# TƏSVİRİ İNCƏSƏNƏT

METODİK VƏSAİT

7



 

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhmməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

YEGANƏ CƏLİLOVA
KƏMALƏ CƏFƏRZADƏ
MƏHSƏTİ MƏMMƏDOVA

# TƏSVİRİ İNCƏSƏNƏT

# 7

Ümumtəhsil məktəblərinin
7-ci sinfi üçün Təsviri incəsənət fənni üzrə dərsliyin
**METODİK VƏSAİTİ**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**bn@bakineshr.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR
Bakı – 2018

## MÜNDƏRİCAT


Dərslik komplekti haqqında ........................................................................ 3

Dərsliyin tədris vahidləri üzrə məzmunu ........................................................... 3

Dərsliyin təlim materialları ilə tanışlıq ........................................................ 4

Müəllim üçün metodik vəsait ........................................................................ 5

Təsviri incəsənət dərslərində İKT-dən istifadə imkanları ......................................... 6

Təlimin təşkilində istifadə olunan forma və üsullar ............................................... 6

Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) haqqında ................................ 7

VII sinif üçün təsviri incəsənət fənni üzrə məzmun standartları ................................... 9

Dərslik komplektinin mövzular üzrə strukturu ..................................................... 10

Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli ................................................ 11

Fənlərarası inteqrasiya cədvəli ................................................................... 12

İllik planlaşdırma nümunəsi cədvəli ............................................................... 13

Şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və üsulları ................................. 15

Təsviri incəsənət fənni üzrə formativ qiymətləndirmə zamanı istifadə olunan
üsul və vasitələr ................................................................................. 18


### MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ


1. **TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ** ................................................................ 20

Gündəlik planlaşdırmaya dair dərs nümunəsi ......................................................... 29

2. **TƏSVİRİ SƏNƏTDƏ JANRLAR** ...................................................................... 32

Gündəlik planlaşdırmaya dair dərs nümunəsi ......................................................... 48

3. **DÖVR, XALQ VƏ GEYİMLƏR** ....................................................................... 51

Gündəlik planlaşdırmaya dair dərs nümunəsi ......................................................... 67

4. **DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN** ....................................................... 70

Gündəlik planlaşdırmaya dair dərs nümunəsi ......................................................... 84

Kiçik summativ qiymətləndirmə nümunələri və cavabları ............................................... 87

Mənbələr ........................................................................................... 94

## DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) əsasında hazırlanmış 7-ci siniflər üçün "TƏSVİRİ İNCƏSƏNƏT" fənnindən dərslik komplekti **dərslik və müəllim üçün metodik** vəsaitdən ibarətdir.

## DƏRSLİYİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ MƏZMUNU

Dərslikdə Azərbaycanın və Avropanın orta əsrləri incəsənəti haqqında şagirdlər üçün yeni məlumat və anlayışlar verilmişdir. Mövzularda sənətkarlıq, memarlıq, təsviri sənətin növ və janrları, dekorativ-tətbiqi sənətlər, geyimlər inkişaf tarixi baxımından şərh edilir. Dərslikdə istifadə olunan elmi anlayış və zəngin reproduksiyalar əhatəli məzmunla müşayiət olunur.

Mövzular 4 tədris vahidində cəmləşdirilmişdir:

1-ci tədris vahidi "TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ" adlanır, 4 mövzu və 5 tədris saatından ibarətdir. Orta əsrlərdə Şərqdə və Avropada yaradılmış incəsənət və mədəniyyət nümunələri çox nadir və təkrarolunmazdır. Bu bölmədə Şərq memarlığı və şəhərsalma mədəniyyətinin, məscidlər və saraylar, dekorativ-tətbiqi sənət, Bizans dövrünə aid məbədlər, roman və qotika üslublarında yaradılmış Avropa memarlıq, İntibah dövründə dahi sənətkarlar tərəfindən yaradılmış rəngkarlıq və heykəltəraşlıq nümunələrinin dünya incəsənətinin ümumbəşəri əhəmiyyətə malik ən dəyərli əsərlərindən olduğu diqqətə çatdırılır.

2-ci tədris vahidi – "TƏSVİRİ SƏNƏTDƏ JANRLAR" özündə 6 mövzu üzrə 6 tədris saatını cəmləşdirir. Bu mövzular orta əsrlərdə yaşayıb-yaratmış rəssamlara və əsatir janrında yaradılmış süjetli əsərlərlə tanışlığa həsr edilib, burada natürmort, portret janrları ilə bağlı geniş məlumatlar yer almışdır. Janrlarda təsvir olunan müxtəlif əşyalar və hadisələr cəmiyyətin inkişafı və müxtəlif tarixi dövrlər arasında əlaqə yaratmağa imkan verir. Hər dövrün özünəməxsus sevimli janr və ifadə formaları var. Onlar sanki inkişaf etməmiş və həmin dövrdə qalmışlar, rəsm əsəri həmin həyat hadisələrini əhatə edən geniş imkanlara malik olması ilə həmişə tamaşaçıların diqqətini cəlb edir. Müxtəlif janrlarda yaradılmış əsərlərdə – dünyanın və insan həyatının tarixi özünəməxsus bədii ifadə vasitələri ilə əks olunur.

3-cü tədris vahidi "DÖVR, XALQ VƏ GEYİMLƏR" adlanır. Tədris vahidi "Avropa sənətkarlığı" və "Azərbaycan sənətkarlığı" adlı iki hissədən ibarətdir. 1-ci hissəni 4 mövzu və 5 tədris saatı, 2-cini isə 3 mövzu və 4 tədris saatı əhatə edir. Burada orta əsrlərdə müxtəlif xalqlarda yaranmış geyim mədəniyyəti, geyimin növ və hissələri, onun cəmiyyətdə tutduğu mövqe açıqlanır.

Orta əsrlərdə özünəməxsus tərzdə yaradılmış insan gözəlliyinin idealı, onun xarakteri, həyat tərzi bu mövzularda ümumiləşdirilmiş və bədii üslubların, zövqün inkişafı ilə əlaqələndirilmişdir. Bütün dövrlərdə geyim – insanın ictimai və ailə vəziyyəti, onun məişəti və əmək fəaliyyəti haqqında aydın təsəvvür yaratmış, müxtəlif xalqların mədəni və iqtisadi əlaqələrini, onun estetik zövqünü və adətlərini özündə əks etdirmişdir.

4-cü tədris vahidi "DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN" adlanır. Şagirdlər orta əsrlər incəsənətində dekorativ-tətbiqi sənət növlərinin tutduğu yerə, yaranma tarixinə dair illüstrasiya və məlumatlarla tanış olacaq, dekorativ-tətbiqi sənətlərin insanın öz məişətini bəzəmək səyləri nəticəsində yaranmasını və onun müxtəlif dövrlərdə inkişafını, gözəllik duyumunu ifadə etməsini tarixi nümunələr əsasında öyrənəcəklər. Əsrlər boyu insanlar özlərini yaradıcılıqda göstərməyə çalışmaqla çox dəyərli bədii əşyalar yaratmış, bu

əşyalara həm məişətdə istifadə funksiyası vermiş, həm də onları dekorativ elementlərlə zənginləşdirmişlər. Buna görə də dekorativ-tətbiqi sənət əsərləri estetik keyfiyyətlərə malik olmaqla yanaşı, bütün dövrlərdə məişət və interyerlərin tərtibatına da xidmət etmişdir. Mənzillərin müxtəlif bədii bəzək əşyaları və mebellə daxili tərtibatı da buraya daxil edildikdə, dekorativ-tətbiqi sənət növləri qədim zamanlardan müasir dövrümüzədək çox uzun bir yol keçmişdir.

## DƏRSLİYİN TƏLİM MATERİALLARI İLƏ TANIŞLIQ

Dərslikdə hər bir mövzu üzrə təlim materialları müəyyən metodoloji ardıcıllıqla təqdim olunur.

A – **İncəsənətə dair dialoq** – mövzuya maraq oyatmaq (motivasiya) üçün sual, şəkil, anlayışların çıxarılması.

B – **Xatırla** – əvvəlki siniflərdə qazanılmış biliklərə əsaslanan suallar şagirdləri aktiv fəaliyyətə cəlb edir.

C – Təsviri sənətin tarixi, onun cəmiyyətdə rolu, yeni anlayışlar haqqında giriş məlumatları, məzmunun mənimsənilməsinə xidmət edən və şagirdlərin təfəkkürünü fəallaşdırmaq üçün vacib sayılan müzakirə sualları verilmişdir.

D – **Tanış ol** – Dərs zamanı müstəqil tanış olmaq və müzakirə üçün verilən məzmun. Burada mövzu ilə bağlı verilmiş məzmuna əsasən müxtəlif sxem və cədvəllər əks olunur. Mövzu ilə əlaqəli olan və şagirdlərin dünyagörüşünü genişləndirməyə xidmət edən daha maraqlı faktlar və hadisələr də öz əksini tapır. **Düşün və izah et** blokunda şagirdi mövzu ilə bağlı düşünməyə və izah etməyə vadar edən fikirlər, suallar verilmişdir.

E – **Təsviri sənət qalereyası** – şagirdin estetik münasibət bildirməsi üçün Azərbaycan və dünya rəssamlarının qrafika, rəngkarlıq, heykəltəraşlıq və dekorativ-tətbiqi sənət əsərlərinin nümayişi.

F – **Görkəmli rəssamlar** – Azərbaycanın və dünyanın görkəmli təsviri sənət nümayəndələrinin həyat və yaradıcılığı ilə tanışlıq – həyat xronologiyası – cədvəl şəklində verilmişdir.




G – **Sərbəst iş üçün tapşırıqlar** – mövzu ilə bağlı nəzəri və praktiki tapşırıqlar; yeni qazanılmış bacarıqların tətbiqi, onların izahı və rəsm zamanı şagirdlərə yardım edən təsvir ardıcıllığının metodikası.

**Müəyyən et.** ***1. Sağlamlıq imkanları məhdud şagirdlər üçün olan tapşırıqlar;***

**Yaradıcı fəaliyyət**

***2. Təlim nəticələri orta olan şagirdlər üçün tapşırıqlar;***

***3. Təlim nəticələri yüksək olan şagirdlər üçün verilmiş tapşırıqlar.***

Şagirdlərin bütün tapşırıqları yerinə yetirmələri vacib deyil. Tapşırıqlar diferensial yanaşma əsasında, çətinlik dərəcələrinə görə şagirdlər arasında bölüşdürülə bilər.

**Sənətkar məsləhəti** – şagird üçün praktiki və yaradıcı tapşırıqlarda əməl edilməsi vacib olan qaydalardan, yeni məlumatlardan ibarətdir.

H – **Özünü yoxla və Ümumiləşdirici tapşırıqlar** (hər bölmənin sonunda) – özünü qiymətləndirmə və əldə olunmuş nəticələri ümumiləşdirmək üçün verilmiş sual və tapşırıqlar.

Uşaqların incəsənətlə ünsiyyəti prosesində müəllimin rolu danılmazdır. Məhz müəllim dərsdə emosional-bədii atmosfer yaradır, məqsədlər qoyur, şagirdlərin həmin məqsədlərə çatması üçün bədii əsərlərlə canlı ünsiyyətini təşkil edir. Bu da şagirdlərin hərtərəfli inkişafına və estetik dünyagörüşünün formalaşmasına səbəb olur.

Demək olar ki, hər mövzuda *yaradıcı tapşırıq* və *müzakirə üçün suallar* verilmişdir. Şagirdlərin bu tapşırıqları fərdi seçim əsasında yerinə yetirməsi daha məqsədəuyğundur.

Mövzuların metodoloji quruluşu müəllimə məzmundan müxtəlif variantlarda istifadə etmək üçün geniş imkan və şərait yaradır. Şagirdlərin məzmunla mexaniki tanış olmaları kifayət deyil. Qazanılmış bilikləri yoxlamaq və dərinləşdirmək üçün nəzərdə tutulmuş müxtəlif təlim materialları, həmçinin illüstrasiyalar mövzunun dərk edilməsində əsas yardımçı elementlərdir.

Dərslikdəki zəngin illüstrasiyalar məktəblilərə incəsənət aləmi ilə ünsiyyət yaratmağa, "bədii" biliklərin sistemləşməsinə və yaradıcı təfəkkürün formalaşmasına yardım göstərir.

Diferensial təlim prinsipləri nəzərə alınmaqla hazırlanmış dərsliyə bilik və bacarıqları möhkəmləndirmək üçün müxtəlif yaradıcı tapşırıqlar və praktik çalışmalar daxil edilmişdir. Yadda saxlanılması vacib olan məlumatlar ayrıca izah edilir.

Dərslikdə *xüsusi qayğıya ehtiyacı olan şagirdlər* üçün də çalışmalar nəzərdə tutulmuşdur. Mövzularda yaradıcı tapşırıqlar sadədən mürəkkəbə doğru yerləşdirilmişdir.

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Təsviri incəsənət fənni üzrə müəllim üçün metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- Təsviri incəsənət fənn kurikulumu haqqında;
- Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik planlaşdırma nümunəsi;
- Şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və formaları;
- Fənlərarası inteqrasiya imkanları və digər fənlərin uyğun alt-standartları ilə inteqrasiya cədvəli;
- İnklüziv təlim prinsipləri haqqında ümumi məlumat;
- Müəllim üçün metodik vəsaitdə istifadə olunan forma və üsullar;
- Dərsin fəal təlim mərhələləri üzrə planlaşdırılma nümunələri;
- Müəllimlər üçün mövzu üzrə əlavə məlumatlar;
- Bölmə və vahidlər üzrə qiymətləndirmə vasitələri;
- Müəllimin istifadə edə biləcəyi mənbələr.

Müəllim tövsiyə olunan materiallardan sinfin hazırlıq səviyyəsinə, tədris vaxtına, texniki təchizata və diferensial təlim prinsiplərinə uyğun olaraq lazım bildiyi kimi istifadə edə bilər. Vəsaitdə, ümumiyyətlə, tədqiqat işlərində qruplarla və cütlərlə iş formalarına daha çox üstünlük verilir. Praktik dərslər zamanı isə şagirdlərdə fərdi bacarıqların formalaş-

dırılması məqsədilə əsasən fərdi və cütlərlə iş formasından istifadə edilməsi daha məqsədəuyğundur. Cütlərdə işləyən şagirdlər tədqiqat işini də birlikdə yerinə yetirirlər.

Ümidvarıq ki, bu vəsait müəllimlərə təsviri sənətlə şagirdlərin ünsiyyət prosesini daha səmərəli təşkil etməyə imkan yaradacaq və onlarda incəsənətə maraq oyadacaq.

## TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ İKT-dən İSTİFADƏ İMKANLARI

Müasir tədris sistemində informasiya texnologiyaları o qədər geniş tətbiq olunur ki, onların zəruriliyi şübhə doğurmur.

Artıq məktəbin gündəlik praktik həyatında interaktiv avadanlıq və elektron lövhələr tətbiq olunmaqdadır ki, bu da qısa müddət ərzində təlim-tədris prosesinin ayrılmaz hissəsinə çevrilib.

## TƏLİMİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN FORMA VƏ ÜSULLAR

Təlim üsulları təlim prosesinin səmərəliliyini təmin edən faktorlardan biridir. Nəzərdə tutulan bacarıqların formalaşdırılmasının ən real rolu təlim prosesinin əsasında, fəal təlim üsullarından istifadə etməklə təşkil etməkdir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Vəsaitdə fəal təlimin iş formalarından istifadə etməklə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, işgüzar iş mühiti, əməkdaşlıq şəraiti təmin olunur.

## TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ MUSİQİNİN ROLU.

Orta məktəbdə təsviri incəsənət dərslərində musiqinin rolu əvəzedilməzdir. Təsviri sənətlə musiqi arasında çoxtərəfli əlaqə var. Qeyd edilməlidir ki, onlar bədii təxəyyülü, fantaziyanı eyni dərəcədə inkişaf etdirir, emosional aktivliyi artırır, bir sözlə, insanın daxili aləminin zənginliyinə gətirib çıxarır. Müəllim nəzərə almalıdır ki, musiqinin səslənməsi görmə obrazlarına xüsusi ahəng və qabarıqlıq verir. Şübhəsiz, belə coşqun qavrama şagirdin yaradıcı fəaliyyətinə stimullaşdırıcı təsir göstərir. Musiqi fraqmentinin optimal səslənmə müddəti konkret şəraitdən asılı olaraq 20–40 saniyədir.

# TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) HAQQINDA

Kurikulumda təsbit olunmuş məqsəd və vəzifələri aşağıdakı məzmun xətləri vasitəsilə həyata keçirmək nəzərdə tutulur:

1. **Cəmiyyət və təsviri incəsənət**
2. **Təsviri və dekorativ yaradıcılıq**
3. **Estetik reaksiya**

**Cəmiyyət və təsviri incəsənət.** Bu məzmun xətti cəmiyyətdə təsviri incəsənətin rolu, cəmiyyət və təsviri incəsənət arasındakı əlaqələri, təsviri incəsənətin cəmiyyətin aynası olması, baş verən tarixi hadisələrin mahiyyətinin dərk olunmasında təsviri incəsənət nümunələrinin əhəmiyyəti, milli və dünya təsviri incəsənət tarixinin görkəmli nümayəndələri, onların məşhur əsərləri haqqında məlumatları əhatə edir.

Cəmiyyətdə baş verən müxtəlif hadisələr, xalqımızın, eləcə də dünya xalqlarının tarixi, mədəniyyəti, adət-ənənələri haqda məlumatların şagirdlərə mənimsədilməsində, təsviri sənət əsərlərinin informativ-kommunikativ imkanlarının dərk olunmasında bu fənn mühüm vasitə kimi çıxış edir.

Digər fənlər vasitəsilə mənimsədilən tarixi faktların, hadisələrin və şəxsiyyətlərin təsvirlərdə əks olunması şagirdlərdə bütün bunlar haqqında daha dolğun təsəvvürlər formalaşmasına əhəmiyyətli təsir göstərir.

Cəmiyyət və təsviri incəsənət əlaqələrini əks etdirən bu məzmun xətti üzrə müəyyən olunan bilik və bacarıqlar şagirdlərdə milli və beynəlmiləl dəyərlərə maraq və hörmət aşılayır, insan cəmiyyətinin mədəni, siyasi və iqtisadi həyatı haqqında geniş və dolğun təsəvvürlər yaradır, müxtəlif dövrlərdə mövcud olan cəmiyyətlər, onların tərkib hissələri və bunların özünəməxsus xüsusiyyətləri haqda geniş və rəngarəng məlumatlar verir.

**Təsviri və dekorativ yaradıcılıq.** Təsvir yaradarkən şagird hadisələri, obyektləri və predmetləri dərk etdiyi tərzdə vizuallaşdıraraq onların mahiyyətinə, qarşılıqlı əlaqələrinə və fərdi xüsusiyyətlərinə öz münasibətini bildirir.

Təsvir fəaliyyəti şagirdlərin əqli və estetik inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, onların görmə yaddaşının, mühit və məkan duyumunun, obrazlı təsəvvür qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

Təsviri yaradıcılıq fəaliyyəti gerçəkliyi dərk etmək, obrazlı və məntiqi düşünmək, hiss və duyğuları vizual obrazlarda əks etdirmək bacarıqlarının təmin edilməsində başlıca vasitə hesab olunur. Bu prosesdə şagird keçmişə və gələcəyə obrazlı münasibətini bildirmək imkanları əldə edir.

İnsan mənəviyyatının mühüm tərkib hissəsi olan gözəlliyə tələbatın ödənilməsində təsvir yaradıcılığı mühüm əhəmiyyət kəsb edir. Yaradıcılıq prosesi şəxsdə daxili aləmlə xarici aləm arasında əlaqələrin yaranmasını, müxtəlif təsvir üsullarının mənimsənilməsini təmin edir, onun cəmiyyətə daha fəal inteqrasiyasına və özünütəsdiqinə geniş imkanlar yaradır.

Təsviri sənətin mühüm hissəsi olan, istər müstəvi səth üzərində (qrafika, rəngkarlıq), istərsə də üçölçülü plastik forma yaratmaq bacarığı (heykəltəraşlıq) şagirddə forma hissiyyatını təmin etməklə, onun forma gözəlliyindən və kamilliyindən zövq almaq qabiliyyətini inkişaf etdirir.

Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma, dizayn bacarıqları aşılayır.

Dekorativ yaradıcılıq şəxsin bəzəyə olan təbii tələbatını ödəyir və onun estetik aləmini zənginləşdirərək bədii zövqünün formalaşmasına, bu sahədə milli ənənələrin davam etdirilməsinə qüvvətli təsir göstərir.

Dekorativ kompozisiya və dizayn (tərtibat) işlərinin yerinə yetirilməsi şagirdin bədii düşüncə, zövq, ənənə daşıyıcısına çevrilməsinə imkanlar yaradır.

Dekorativ yaradıcılıq prosesi şagirdlərin abstrakt və estetik düşüncə qabiliyyətini inkişaf etdirərək rənglərin, formaların, ölçülərin vəhdət prinsiplərini və qanunauyğunluqlarını mənimsəməsini təmin edir.

**Estetik reaksiya.** Təsviri və dekorativ sənət növlərinə aid nümunələr təbiətin, ətraf aləmin insanın daxili aləminə, hisslərinə, duyğularına təsirindən yaranır. Şəxsiyyətin mənəvi dünyasında gözəllik təsəvvürləri (meyarları) incəsənət vasitəsilə formalaşaraq, termin, anlayışlar və bədii ifadə vasitələri (rəsm, heykəl, dekor, kompozisiya) şəklində əks olunur. Şüurlu, mükəmməl mənimsəmə estetik-emosional hisslər yaradır.

Azərbaycan və dünya incəsənəti tarixini təşkil edən əsərlər zaman keçdikcə mədəni, bədii, mənəvi dəyərlərin ifadəsi kimi meydana gəlmiş, milli və ümumbəşəri dəyərlərin maddiləşmiş daşıyıcılarına çevrilmişdir.

Təsviri incəsənət əsərləri ilə təmasda olmaq şagirdə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə, bir növ, mədəni mübadilə prosesini yaşadır. Təsviri və dekorativ incəsənət əsərlərinin şəxsiyyətə göstərdiyi bu təsir nəticəsində şagirdlərdə estetik-emosional meyar və normalar, mənəvi zənginləşmə və mədəni tolerantlıq formalaşır, hissiyyat diapazonu daha da genişlənir.

Təsviri və dekorativ sənət əsərlərinin qavranılması estetik zövqün, emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir. İncəsənət əsərlərinə, hadisələrinə və fenomenlərinə şagird tərəfindən verilən estetik reaksiya gözəlliyi duymaq və qiymətləndirmək (dəyərləndirmək) qabiliyyətlərinin göstəricisi kimi çıxış edir.

Təsviri incəsənət fənninin mənimsənilməsi nəticəsində formalaşdırılan və inkişaf etdirilən bədii həssaslıq və emosional qavrama bacarıqları şagirdlərin mənəvi dünyasını zənginləşdirir, onlarda milli və ümumbəşəri dəyərlərə hörmət, humanizm, şəfqət hisslərini qüvvətləndirir.

## VII SİNİF ÜÇÜN TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**VII sinfin sonunda şagird:**

- təsviri incəsənətin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;
- təsviri və dekorativ sənətin növ və janrlarını (məişət və əsatir) xüsusiyyətlərinə görə şərh edir;
- Azərbaycanın və dünyanın təsviri incəsənətinin görkəmli nümayəndələri (Müzəffər Əli, Kamil Əliyev, Mirəli Mirqasımov, Rasim Babayev, İlya Repin, Rembrandt, Velaskes, Karavacco) və onların əsərləri haqqında məlumatları şərh edir;
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri incəsənətin müxtəlif növündə (dizayn, milli geyimlər, bədii hörmə) real və abstrakt təsvir edir;
- müxtəlif texniki avadanlıq üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir;
- təsviri sənətin növ və janrlarında milli-üslubi cəhətləri estetik-emosional hisslərə görə fərqləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

Şagird:

**1.1. Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.**

1.1.1. Təsviri incəsənətin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir.

**1.2. Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.2.1. Təsviri sənətin növ və janrlarını (məişət və əsatir) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

1.2.2. Dekorativ sənət növlərini (milli geyimlər, bədii hörmə) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

**1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələrinə və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Müzəffər Əli, Kamil Əliyev, Mirəli Mirqasımov, Rasim Babayev, İlya Repin, Rembrandt, Velaskes, Karavacco) və onların əsərləri haqqında məlumatları şərh edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

Şagird:

**2.1. Həyati görüntüləri real və abstrakt təsvir edir.**

2.1.1. Həyati görüntüləri məişət, əsatir janrlarında real və abstrakt təsvir edir.

2.1.2. Həyati görüntülərin real və abstrakt təsvirində müxtəlif vasitələrdən (tuş, sulu boya və ya qarışıq texnika, plastilin və ya gil) istifadə edir.

**2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.**

2.2.1. Müxtəlif texniki avadanlıq üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3. Estetik reaksiya**

Şagird:

**3.1. Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.**

3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətləri (forma, ritm, rəng çaları) estetik xüsusiyyətlərinə görə fərqləndirir.

3.1.2. Təsviri sənətin növ və janrlarını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir.

## DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| TƏDRİS VAHİDİ | MÖVZULAR | |
|---|---|---|
| **1. TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ** | 1 | Orta əsr heykəltəraşlığı |
| | 2–3. | Memarlıq üslubları |
| | 4. | Azərbaycanın memarlıq məktəbləri |
| | 5. | Monumental rəngkarlıq |
| **2. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR** | 6. | Miniatürlərdə məişət təsvirləri |
| | 7. | Təsviri sənətdə əfsanəvi obrazlar |
| | 8. | Təsviri sənətdə işıq və kölgə |
| | 9. | Avtoportret |
| | 10. | Süjetli əsərlərdə insan obrazı |
| | 11. | Heykəltəraşlıqda insan obrazı |
| **3. DÖVR, XALQ VƏ GEYİMLƏR** | **Avropa sənətkarlığı** | |
| | 12. | Parça, rəng və ornament |
| | 13. | Avropa baş geyimləri |
| | 14–15. | Geyimin cəmiyyətdə rolu |
| | 16. | Rəssam əsərində zadəgan geyimləri |
| | **Azərbaycan sənətkarlığı** | |
| | 17. | Azərbaycan baş geyimləri |
| | 18–19. | Əsrlərin xəzinəsi: Azərbaycan milli geyimləri |
| | 20. | Dəb və geyim dizaynı: müasir üslublar |
| **4. DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN** | 21. | Əl ilə yaradılan möcüzələr |
| | 22. | Naxışlarda əbədiləşən həyat |
| | 23. | Zaman və qablar |
| | 24–25. | Mebeldə dizayn və dekor |
| | 26. | İnteryerin dizaynı |
| | 27. | Dünya muzeyləri |

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ

Cədvəldə kurikulumda tələb olunan bacarıqlar əsasında tövsiyə edilən illik planlaşdırma nümunəsi verilmişdir. İş planı həftədə 1 saat olmaqla, ildə 34 həftəyə və ya 34 saata nəzərdə tutulmuşdur. Tədris ili ərzində 5 saat KSQ, 2 saat BSQ, 27 saat hər mövzuya 1 saat olmaqla, 27 mövzunun tədrisi üçün nəzərdə tutulmuşdur.

| Tədris həftələri | TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | Məşğələ növü | Cəmiyyət və təsviri incəsənət | | | | Təsviri və dekorativ yaradıcılıq | | | Estetik reaksiya | | Saat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1.1. | 1.2 | | 1.3. | 2.1. | | 2.2 | 3.1. | | |
| | | | | 1.1.1 | 1.2.1 | 1.2.2 | 1.3.1 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1. | 3.1.2. | |
| 1 | 1. TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ | Orta əsr heykəltəraşlığı | Yapma | + | | | | | + | | | + | 1 |
| 2-3. | | Memarlıq üslubları | T.s.h.s.<br>M.ü.r. | + | | | | | + | | + | | 2 |
| 4. | | Azərbaycanın memarlıq məktəbləri | Konstr. | | | | + | | + | | + | | 1 |
| 5. | | Monumental rəngkarlıq | D-t.f. | + | | | | | + | | | + | 1 |
| 6. | 2. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR | Miniatürlərdə məişət təsvirləri | M.ü.r. | | + | | + | + | | | | + | 1 |
| 7. | | **Qiymətləndirmə (KSQ №1)** | | | | | | | | | | | 1 |
| 8. | | Təsviri sənətdə əfsanəvi obrazlar | M.ü.r. | | + | | + | + | | | | | 1 |
| 9. | | Təsviri sənətdə işıq və kölgə | N.r. | | | | + | | + | | + | | 1 |
| 10. | | Avtoportret | N.r. | | + | | + | | + | | | + | 1 |
| 11. | | Süjetli əsərlərdə insan obrazı | M.ü.r. | | + | | + | + | | | | | 1 |
| 12. | | Heykəltəraşlıqda insan obrazı | Yapma | | | | + | | + | | | + | 1 |
| 13. | | Parça, rəng və ornament | D-t.f. | + | | + | | | + | | | + | 1 |
| 14. | | Avropa baş geyimləri | D-t.f. | + | | + | | | | + | | | 1 |
| 15. | | **Qiymətləndirmə (KSQ №2)** | | | | | | | | | | | 1 |
| 16. | **Qiymətləndirmə (BSQ №1)** | | | | | | | | | | | | 1 |
| 17-18. | 3. DÖVR, XALQ VƏ GEYİMLƏR | Geyimin cəmiyyətdə rolu | T.s.h.s.<br>M.ü.r. | + | | + | | | + | | | | 2 |
| 19. | | Rəssam əsərində zadəgan geyimləri | D-t.f. | | | + | + | | | | + | | 1 |
| 20. | | **Qiymətləndirmə (KSQ №3)** | | | | | | | | | | | 1 |
| 21. | | Azərbaycan baş geyimləri | D-t.f. | + | | + | | | | + | | | 1 |
| 22-23. | | Əsrlərin xəzinəsi: Azərbaycan milli geyimləri | T.s.h.s.<br>M.ü.r. | + | | + | | + | | | | | 2 |
| 24. | | Dəb və geyim dizaynı: müasir üslublar | M.ü.r. | + | | + | | | + | | | | 1 |
| 25. | | **Qiymətləndirmə (KSQ №4)** | | | | | | | | | | | 1 |
| 26. | 4. DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN | Əl ilə yaradılan möcüzələr | D-t.f. | + | | + | | | | | | | 1 |
| 27. | | Naxışlarda əbədiləşən həyat | D-t.f. | + | | | + | | + | | + | | 1 |
| 28. | | Zaman və qablar | Yapma | + | | | | | + | + | + | | 1 |
| 29-30. | | Mebeldə dizayn və dekor | T.s.h.s.<br>D-t.f. | + | | | | | + | + | | | 2 |
| 31. | | İnteryerin dizaynı | M.ü.r. | + | | | | | + | + | | | 1 |
| 32. | | **Qiymətləndirmə (KSQ №5)** | | | | | | | | | | | 1 |
| 33. | | Dünya muzeyləri | T.s.h.s. | + | | | | | | | | + | 1 |
| 34. | **Qiymətləndirmə (BSQ №2)** | | | | | | | | | | | | 1 |

Təsviri incəsənət dərsləri məşğələ növləri vasitəsilə təqdim edilir: ***mövzu üzrə rəsm, naturadan rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.***

**M.ü.r.** – Mövzu üzrə rəsm; **T.s.h.s.** – Təsviri sənət haqqında söhbət; **D-t.f.** – Dekorativ-tətbiqi fəaliyyət; **N.r.** – Naturadan rəsm, **Konstr.** – Konstruksiya.

*Müəllim mövzulara şəxsi münasibətindən asılı olaraq tövsiyə edilən illik planlaşdırma nümunəsinə müəyyən dəyişikliklər edə bilər.*

QEYD: Müəllim illik planlaşdırma üzrə nəzərdə tutulmuş kiçik summativ qiymətləndirmələri "Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması barədə təlimat"ın 6.6-cı bəndinə uyğun olaraq ayrıca dərs saatında, yaxud dərs saatının bir hissəsində apara bilər.

## FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| TƏDRİS VAHİDİ | MÖVZULAR | | FƏNNİN ADI VƏ ALT-STANDARTIN NÖMRƏSİ |
|---|---|---|---|
| 1. TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ | 1. | Orta əsr heykəltəlraşlığı | Az.-t. 5.1.1.; X-d.1.1.2; Tex. 1.3.2. |
| | 2–3 . | Memarlıq üslubları | Ü-t. 5.1.1; Az.-d. 2.2.3; Ə. 2.1.2. |
| | 4. | Azərbaycanın memarlıq məktəbləri | Tex.1.3.3.; Az.-d. 1.1.2.; Az.-t. 1.3.1.; 5.1.3. |
| | 5. | Monumental rəngkarlıq | İnf. 3.2.1.; H-b. 3.1.1.; Az.-t. 1.3.1.; 5.1.3.; Tex. 1.3.1.; 1.3.2.; 1.3.3.; 4.1.1. |
| 2. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR | 6. | Miniatürlərdə məişət təsvirləri | Az.-t. 1.3.1.; 5.1.1.; 5.1.3.; Az.-d. 1.1.1.; 1.2.1.; Ə. 2.2.1.; H-b. 3.1.1. |
| | 7. | Təsviri sənətdə əfsanəvi obrazlar | Az.-t. 1.3.1.; 5.1.1.; 5.1.3.; Az.-d. 1.1.1.; 1.2.1. |
| | 8. | Təsviri sənətdə işıq və kölgə | Az.-d. 1.1.1.; 1.2.1.; 1.2.4.; Az.-t. 4.1.1.; Ə. 2.2.1.; H-b. 3.1.1. |
| | 9. | Avtoportret | Az.-d. 1.2.1.; Ü-t. 5.1.1.; Ə. 2.2.1. |
| | 10. | Süjetli əsərlərdə insan obrazı | Ü-t. 5.1.1.; 5.1.2.; Ə. 2.2.1.; Az.-d. 1.1.1.; 1.2.1.; Az.-t. 4.1.1.; 5.1.1.; Tex. 1.3.3. |
| | 11. | Heykəltəraşlıqda insan obrazı | Az.-d. 1.1.1.; 1.2.1.; Az.-t. 4.1.1.; X-d.1.1.2. |
| 3. DÖVR, XALQ VƏ GEYİMLƏR — Avropa sənətkarlığı | 12. | Parça, rəng və ornament | Az.-d. 1.2.1; 1.2.2.; Az.-t. 1.3.1.; Ə. 2.2.1. Tex. 1.3.3. |
| | 13. | Avropa baş geyimləri | Az.-d. 1.2.1; 1.2.2.; Az.-t. 1.3.1.; Tex.1.3.3.; 4.2.1. |
| | 14–15. | Geyimin cəmiyyətdə rolu | Az.-d. 1.2.2.; Ü-t. 5.1.1.; Tex.1.3.3. |
| | 16. | Rəssam əsərində zadəgan geyimləri | Az.-d. 1.2.1.; Az.-t. 5.1.1.; Ü-t. 4.1.1.; 5.1.1.; Ə. 2.2.1. |
| Azərbaycan sənətkarlığı | 17. | Azərbaycan baş geyimləri | Az.-d. 1.2.1; 1.2.2.; 1.2.4.; Az.-t. 1.3.1.; Tex.1.3.3.; 4.2.1. |
| | 18–19. | Əsrlərin xəzinəsi: Azərbaycan milli geyimləri | Az.-d. 1.1.2.; 2.1.3.; Az.-t. 1.3.1.; Ə. 2.2.1.; Tex. 1.3.3. |
| | 20. | Dəb və geyim dizaynı: müasir üslublar | Az.-d. 1.1.2.; 2.1.3.; Az.-t. 1.3.1.; Ə.1.2.4.; Tex.1.3.3. |
| 4. DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN | 21. | Əl ilə yaradılan möcüzələr | Az.-d. 1.1.2.; 2.1.3.; Az.-t. 1.3.1.; Tex.1.3.3. |
| | 22. | Naxışlarda əbədiləşən həyat | Az.-d. 1.2.1.; 1.2.4.; Ü-t. 4.1.1.; 5.1.1.; Ə. 2.2.1.; Tex.1.3.3. |
| | 23. | Zaman və qablar | Az.-d. 1.2.1.; 1.2.4.; Ü-t. 5.1.1.; Ə. 2.2.1.; Tex.1.3.3. |
| | 24–25. | Mebeldə dizayn və dekor | Az.-d. 1.2.1.; 1.2.4.; Ü-t. 5.1.1.; Ə. 2.2.1.; Tex.1.3.3. |
| | 26. | İnteryerin dizaynı | Az.-d. 1.2.1.; 1.2.4.; Ü-t. 5.1.1.; Ə. 2.2.1.; X-d. 3.1.4. |
| | 27. | Dünya muzeyləri | Az.-d. 1.2.1.; 1.2.4.; Ü-t. 5.1.1.; Ə. 2.2.1.; Tex.1.3.3. |

*Az.-d. – Azərbaycan dili; H-b. – Həyat bilgisi; X-d. – Xarici dil; Az.t. – Azərbaycan tarixi; İnf. – İnformatika; Ə. – Ədəbiyyat; Ü-t. – Ümumi tarix; Tex. – Texnologiya.*

# İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ CƏDVƏLİ

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsul | Vasitələr |
| 1 – 6 | 1 | 1. TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ | Orta əsr heykəltəraşlığı | Yapma | 1.1.1., 2.1.2., 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; təqdimat (yapma), rubrik (sxem) | Orta əsr heykəltəraşlıq nümunələrinin təhlili, yapma iş (plastilin, gil), meyar üzrə qiymətləndirmə şkalası |
| | 2 | | Memarlıq üslubları | Mövzu üzrə rəsm | 1.1.1., 2.1.2., 3.1.1. | Müşahidəetmə, tapşırıqvermə, sual-cavab, təqdimat | Orta əsr Qərbi Avropa memarlıq nümunələrinin müqayisəli təhlili, rəsm işləri, suallar, meyar cədvəli |
| | 1 | | Azərbaycanın memarlıq məktəbləri | Konstruksiya | 2.1.1., 2.1.2., 3.1.1. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat | Qrta əsr memarlıq nümunələrinin müqayisəli təhlili; əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili |
| | 1 | | Monumental rəngkarlıq | Dekorativ-tətbiqi fəaliyyət | 1.1.1., 2.1.2., 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə; təqdimat | Monumental rəngkarlıq nümunələrinin təhlili, rəsm işləri, meyar cədvəli |
| | 1 | | Miniatürlərdə məişət təsvirləri | Mövzu üzrə rəsm | 1.2.1., 1.3.1., 2.1.1., 3.1.2. | Şifahi sual-cavab; tapşırıqvermə; təqdimat | Miniatürlərin nümunələr üzrə təhlili; rəsm işləri, meyar cədvəli |

**7-ci dərs - Qiymətləndirmə (KSQ №1)**

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsul | Vasitələr |
| 8 – 14 | 1 | 2. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR | Təsviri sənətdə əfsanəvi obrazlar | Mövzu üzrə rəsm | 1.2.1., 1.3.1., 2.1.1., 3.1.2. | Müşahidə, tapşırıqvermə; rubrik (sxem) | Müxtəlif obrazların müqayisəli təhlili; rəsm işləri, meyar üzrə qiymətləndirmə şkalası |
| | 1 | | Təsviri sənətdə işıq və kölgə | Naturadan rəsm | 1.3.1., 2.1.2., 3.1.1., 3.1.2. | Müşahidə, tapşırıqvermə; özünüqiymətləndirmə, rubrik (sxem) | Natürmort janrında əsərlərin təhlili, naturadan rəsm işləri, meyar üzrə özünüqiymətləndirmə şkalası |
| | 1 | | Avtoportret | Naturadan rəsm | 1.2.1., 1.3.1., 2.1.2., 3.1.2. | Müşahidə, tapşırıqvermə; rubrik (sxem) | Əsərlərin müqayisəli təhlili, naturadan rəsm, meyar üzrə qiymətləndirmə şkalası |
| | 1 | | Süjetli əsərlərdə insan obrazı | Mövzu üzrə rəsm | 1.2.1., 1.3.1., 2.1.1., 3.1.1. | Müşahidə, tapşırıqvermə; təqdimat | Müşahidə vərəqi, rəsm işləri, meyar cədvəli |
| | 1 | | Heykəltəraşlıqda insan obrazı | Yapma | 1.3.1., 2.1.2., 3.1.2. | Müşahidə, tapşırıqvermə; təqdimat (yapma), rubrik (sxem) | Plastilin, gil, əsərlərin təhlili, yapma işləri, meyar üzrə qiymətləndirmə şkalası |
| | 1 | | Parça, rəng və ornament | Dekorativ-tətbiqi fəaliyyət | 1.1.1., 2.1.2., 3.1.2. | Müşahidə, tapşırıqvermə; təqdimat rubrik (sxem) | Müşahidə, dekorativ-tətbiqi sənət nümunələri, rubrik |
| | 1 | | Avropa baş geyimləri | Konstruksiya | 1.1.1., 1.2.2., 2.2.1. | Müşahidə, tapşırıqvermə; təqdimat rubrik (sxem) | Müşahidə, dekorativ-tətbiqi sənət nümunələri, dekorativ işlər, şkala |

**15-ci dərs – Qiymətləndirmə (KSQ №2), 16-cı dərs – Qiymətləndirmə (BSQ №1)**

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsul | Vasitələr |
| | 2 | 3. DÖVR, XALQ VƏ GEYİMLƏR | Geyimin cəmiyyətdə rolu | Mövzu üzrə rəsm | 1.1.1., 1.2.2., 2.1.2. | Müşahidə, dekorativ-tətbiqi sənət nümunələri | Müşahidə, dekorativ-tətbiqi sənət nümunələri, rəsm işləri, şkala |
| | 1 | | Rəssam əsərində zadəgan geyimləri | Dekorativ-tətbiqi fəaliyyət | 1.2.2.; 1.3.1.; 3.1.1. | Müşahidə, tapşırıqvermə; təqdimat rubrik (sxem) | Müşahidə vərəqləri, təsvirlərdə geyimlərin təhlili; aplikasiya işləri, meyar üzrə qiymətləndirmə şkalası |
| | 1 | | Azərbaycan baş geyimləri | Dekorativ-tətbiqi fəaliyyət | 1.1.1., 1.2.2., 2.2.1. | Müşahidə, tapşırıqvermə; təqdimat rubrik (sxem) | Müşahidə vərəqləri, təsvirlərdə baş geyimlərin təhlili, dekorativ rəsm işləri, meyar üzrə qiymətləndirmə şkalası |
| | 2 | | Əsrlərin xəzinəsi: Azərbaycan milli geyimləri | Mövzu üzrə rəsm | 1.1.1., 1.2.1., 1.2.2., 2.1.1. | Müşahidə, tapşırıqvermə; təqdimat rubrik (sxem) | Müşahidə vərəqləri, təsvirlərdə geyimlərin təhlili; rəsm işləri, şkala |
| | 1 | | Dəb və geyim dizaynı: müasir üslublar | Mövzu üzrə rəsm | 1.1.1., 1.2.2., 2.1.2. | Müşahidə, tapşırıqvermə; təqdimat | Tapşırıqvermə; rəsmetmə, rubrik |

**20-ci dərs – Qiymətləndirmə (KSQ №3), 25-ci dərs – Qiymətləndirmə (KSQ №4)**

| Tədris həftələri | Saat | Tədris vahidi | Mövzular | Məşğələ növü | Standartlar | Qiymətləndirmə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Üsul | Vasitələr |
| 26 – 33 | 1 | 4. DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN | Əl ilə yaradılan möcüzələr | Dekorativ-tətbiqi fəaliyyət | 1.1.1., 1.2.2. | Müşahidə, tapşırıqvermə; təqdimat, rubrik (sxem) | Müşahidə vərəqləri, əl ilə hörmə və toxuma işlərinə aid nümunələr, şkala |
| | 1 | | Naxışlarda əbədiləşən həyat | Dekorativ-tətbiqi fəaliyyət | 1.1.1., 1.3.1., 2.1.2., 3.1.1. | Müşahidə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | Müşahidə vərəqləri, meyar üzrə qiymətləndirmə şkalası |
| | 1 | | Zaman və qablar | Yapma | 1.1.1., 2.1.2., 2.2.1., 3.1.1. | Müşahidə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | Müşahidə vərəqləri, dekorativ yapma işləri, şkala |
| | 2 | | Mebeldə dizayn və dekor | Dekorativ-tətbiqi fəaliyyət | 1.1.1., 2.1.2., 2.2.1. | Müşahidə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | Müşahidə vərəqləri, mebellərin müqayisəli təhlili; dekorativ rəsm işi, meyar cədvəli |
| | 1 | | İnteryerin dizaynı | Mövzu üzrə rəsm | 1.1.1., 2.1.2., 2.2.1. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat, rubrik (sxem) | Müşahidə üzrə qeydiyyat vərəqi, təsviri sənət nümunələrinin təhlili, meyar cədvəli |
| | 1 | | Dünya muzeyləri | Təsv. sənət haq. söhbət | 1.1.1., 3.1.2. | Müşahidəetmə, tapşırıqvermə, təqdimat | Müzakirə üzrə qeydiyyat vərəqi |

**32-ci dərs – Qiymətləndirmə (KSQ №5), 34-cü dərs – Qiymətləndirmə (BSQ №2)**

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏ PRİNSİPLƏRİ VƏ ÜSULLARI

Təlim prosesinin ən mühüm mərhələlərindən biri qiymətləndirmədir. Hər bir fənn üzrə təlim prosesinin müxtəlif mərhələlərində aparılan qiymətləndirmə şagirdlərdə mənfi emosiya doğurmamalıdır. O cümlədən təsviri incəsənət fənni üzrə əldə edilən bilik və bacarıqların qiymətləndirilməsində bir yaradıcılıq, şəffaflıq, yüksək estetik zövq və daimi yüksəlişə, ümumbəşəri dəyərlərə köklənmiş müsbət emosiya hiss olunmalıdır. Bu prosesdə müəllim şagirdin səhvlərini deyil, daha çox əldə etdiyi nailiyyətləri, keyfiyyət göstəricilərini və qazandığı dəyərləri vurğulamalıdır. Müəllim təlim prosesində müəyyənləşdirilmiş hər hansı bir səhvin ən asan həlli yollarını tapmaqda onlara dəstək verməklə stimul yaratmalıdır.

Azərbaycan Respublikası Təhsil nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə 1–7-ci siniflərdə məktəbdaxili qiymətləndirmə qaydalarında bir sıra dəyişiklik edilmişdir. (http://www.muallim.edu.az/arxiv/2013/34/26.htm)

Vəsaitdə hər bir dərsin sonunda təlim nəticələrinə uyğun formativ qiymətləndirmə meyarları göstərilmişdir. Tədris vahidlərinin sonunda isə summativ qiymətləndirmə vasitələri verilmişdir. Qiymətləndirmə dərslərində müəllim vəsaitdəki vasitələrdən yararlana və ya bu nümunələr əsasında yeni qiymətləndirmə vasitəsini özü tərtib edə bilər. Kiçik summativ qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin sonunda verilmişdir.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik, formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Diaqnostik qiymətləndirmə, adından da məlum olduğu kimi, şagirdə və ya bütöv sinfə qoyulan diaqnozdur. Şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir. Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr: müsahibə; söhbət; müşahidə; tapşırıqlar; valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq.

Diaqnostik qiymətləndirmə həm də şəraitə görə təlim məqsədləri və üsullarda çevik dəyişikliklər aparılmasına imkan yaradır.

**Formativ qiymətləndirmə**nin məqsədi (2 sentyabr 2013-cü il tarixli təlimata əsasən) təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil.

Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır. Tədris prosesində formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə oluna bilər.

Müəllim qiymətləndirmə meyarlarına uyğun dördsəviyyəli rubriklər (I–IV səviyyə) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər.

Müəllim şagirdin fəaliyyətinin nəticəsini "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubrikə uyğun olaraq rum rəqəmləri (I, II, III və IV) ilə, "Məktəbli kitabçası"nda isə sözlərlə yazır.

"Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubriklərin məzmunu və şagirdin formativ qiymətləndirilməsinə dair məlumatlar sərbəst formada aparılır. Müəllim yarımillərin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri" əsasında şagirdin yarımil ərzində fəaliyyətinin qısa təsvirini hazırlayır və portfolioda saxlayır.

***Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr***

| **Üsullar** | **Vasitələr** |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Tapşırıqlar: rəsm, yapma, aplikasiya, konstruksiya |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi: təsviri sənət əsərinə, növ və janrlara, rəssamın yaradıcılığına, məşhur əsərlərinə aid yazılmış esse və ya annotasiyalar, qısa şərhlər |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimatlar üçün meyarlar | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə olunur. Rubrik xüsusi növ qiymətləndirmə şkalasıdır. O, iki əsas suala cavab verir:

- "Mən nəyi qiymətləndirməliyəm?" (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər);
- "Aşağı, orta, yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə bilmək olar?"

Rubrik vasitəsilə qiymətləndirmə nəticəsində şagirdlərin keçilmiş materialı necə mənimsədiklərini, buraxdıqları xarakterik səhvləri müəyyən etmək, növbəti dərsdə qarşıya çıxa biləcək problemlər üzərində görüləcək işləri dəqiqləşdirmək olar.

Qiymətləndirmə şkalası nailiyyət səviyyələrinə qiymət (bal) verilməsi üçün mexanizmdir. Rubriklərin hazırlanması üçün əvvəlcə dərsin məqsədləri müəyyən olunmalıdır. Qiymətləndirmənin formalarından biri seçilməlidir (diaqnostik, formativ və ya summativ).

**Müəllimlər üçün rubriklərin üstün cəhətləri:**

- Rubriklər qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl olmasına imkan verir.
- Rubriklər tələb edir ki, müəllimlər müvafiq şərtlər üzrə öz meyarlarını səviyyələr əsasında müəyyənləşdirsinlər.
- Rubriklər müəllimləri tədrisin səmərəliliyi ilə bağlı faydalı məlumatlarla təmin edir.
- Rubriklər keyfiyyət səviyyələrinin intervalı vasitəsilə müxtəlif qabiliyyətli şagirdlərin olduğunu nəzərə alır.

***Səviyyələr üzrə təsvirlərin hazırlanması üçün təlimat:***

1. Qısa və sadə tərzdə, şagirdin anlayacağı dildən istifadə edilməlidir.
2. Müqayisəli və ya normativ dildən fərqli olaraq, deskriptiv dildən istifadə edin. Pis, orta, kafi, yaxşı, əla kimi qeyri-müəyyən deskriptorlardan istifadə olunmur.
3. Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün dərəcədə ifadə edilməlidir.
4. Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalı, üst-üstə düşməməlidir.
5. Şkala şagird nailiyyətləri intervalını tam əhatə etməlidir.
6. Təsvirlərin məzmunu nailiyyət səviyyələri üzrə eyni formalı tərtib edilməlidir.
7. Fəaliyyət səviyyələri bütün aspektlər üzrə uyğun olmalıdır (məsələn: bir aspekt üzrə "4" qiyməti digər aspekt üzrə "4" qiyməti ilə müqayisə oluna bilməlidir).
8. Əvvəlcə "ən yüksək", sonra "ən aşağı" səviyyələr, sonda "aralıq" səviyyələrin təsvir edilməsi tövsiyə olunur.
9. Ən yüksək səviyyə: yüksək tələbkarlığa malik, bununla yanaşı, real olmalıdır.
10. Ən aşağı səviyyə: yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.

**Summativ qiymətləndirmə** təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Summativ qiymətləndirmə məzmun standartlarını mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir.

Summativ qiymətləndirmə kiçik summativ və böyük summativ qiymətləndirmədən ibarətdir.

Kiçik summativ qiymətləndirmə (KSQ) bəhs və ya bölmələrin sonunda müəllim, böyük summativ qiymətləndirmə (BSQ) isə yarımillərin sonunda məktəb rəhbərliyinin və ya məktəbdə yaratdığı müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

Kiçik summativ qiymətləndirmə fənn kurikulumları tətbiq olunan siniflərdə bəhs və ya bölmələrin sonunda altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Onun nəticələri yarımillik qiymətlərin hesablanmasında nəzərə alınır.

Kiçik summativ qiymətləndirmə vasitələri (test, tapşırıq, yazı işləri və s.) fənni tədris edən müəllim tərəfindən hazırlanır.

Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsi rəhbərliyinin yaratdığı müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Ona görə də metodik vəsaitdə böyük summativ qiymətləndirmə üçün testlərin nümunəsi verilməyib.

Şagirdin illik qiyməti aşağıdakı cədvələ uyğun hesablanılır:

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 4 | 2 | 3 |
| 4 | 3 | 3 |
| 4 | 4 | 4 |
| 4 | 5 | 5 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 5 | 2 | 3 |
| 5 | 3 | 4 |
| 5 | 4 | 4 |
| 5 | 5 | 5 |

Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir:

| № | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1. | (0% – 40%] | 2 (qeyri-kafi) |
| 2. | (40% – 60%] | 3 (kafi) |
| 3. | (60% – 80%] | 4 (yaxşı) |
| 4. | (80% – 100%] | 5 (əla) |

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ FORMATİV QİYMƏTLƏNDİRMƏ ZAMANI İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR

<table>
<tr><th>FƏALİYYƏT NÖVLƏRİ</th><th>ÜSULLAR</th><th>VASİTƏLƏR</th></tr>
<tr><td>Müşahidəetmə</td><td>Müşahidə (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir).</td><td>Müşahidə vərəqi (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl):<br>natura, təbiət, interyer, meyvə, tərəvəz, məişət əşyaları və s.<br>Təsviri incəsənət əsərləri (rəsm və heykəltəraşlıq nümunələri).<br>Dekorativ-tətbiqi sənət nümunələri (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər).</td></tr>
<tr><td rowspan="8">Təsvirlərin təhlili</td><td>Tapşırıqvermə</td><td>Təsviri incəsənət əsərləri, rəsm işləri</td></tr>
<tr><td colspan="2">Nəzəri tapşırıqlar</td></tr>
<tr><td>Sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili.</td><td>Təsviri (reproduksiya, fotoşəkil və s.) və dekorativ sənət əsərlərinə (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər) münasibət.</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar:</td></tr>
<tr><td>Məzmun</td><td>İşləmə texnikası</td></tr>
<tr><td>səth üzərində</td><td>rəsm, rəngkarlıq, aplikasiya</td></tr>
<tr><td>həcmli (model)</td><td>kağız, karton, plastilin, gil, maket</td></tr>
<tr><td>• Rəsm çəkmək (naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ fəaliyyət və s.);<br>• Dekorativ-tətbiqi fəaliyyət (texnikalar: aplikasiya, panno, kollaj, dekupaj, vitraj, mozaika, batika, tikmə, hörmə, ke-</td><td>• karandaş, flomaster, diyircəkli və rəngli qələm, tuş, kömür, qrafit, pastel tabaşir, rəngli kağız, karton, qutu, parça, boya (quaş, akvarel, akril, yağlı boya və s.) və s.;<br>• təbiət materialları (düyü, buğda, şam qozası, ağac, budaq, toxum, yarpaq və s.);</td></tr>
</table>

| | | |
|---|---|---|
| | ramik məhsullar və s.);<br>• Yapma (relyefli və ya həcmli);<br>• Kompüter qrafikası. | • plastilin, gil, gips, duzlu xəmir;<br>• qrafik redaktor (Paint və s.). |
| **Sorğu** | Şifahi sual-cavab | Təsviri incəsənət əsərləri, ətraf aləm, qayda və anlayışlar üzrə sual-cavablar, təhlil, müzakirə üzrə ***qeydiyyat vərəqi*** |
| **Təqdimat** | Şifahi, yazılı, rəmzi, təsviri, kompüterdə təqdimatlar | Şifahi cavablar;<br>bədii əsərlərə esselərin yazılması;<br>rəmzi təsvirlər (işarələr);<br>bədii yaradıcılıq və əl işləri, slayd vasitəsilə təqdimat;<br>layihələr |
| **Qiymətləndirmə** | Qrup işlərinin qiymətləndirilməsi, özünüqiymətləndirmə, rubrik üzrə qiymətləndirmə, qrafik, sxem, şkala, test və s. | Qiymətləndirmə vərəqləri, qiymətləndirmə sxemləri, meyarlar cədvəli, şkalalar, sxemlər, test tapşırıqları və s. |

Müvafiq qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin arxasında verilmişdir.

Müəllim üçün metodik vəsaitdə bir sıra qiymətləndirmə üsullarından istifadə olunması tövsiyə edilir. Müəllim bu üsul və formalardan öz məqsədinə uyğun şəkildə istifadə edib, yenilərini yarada bilər.

# 1. TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ




1. Orta əsr heykəltəraşlığı
2–3. Memarlıq üslubları
4. Azərbaycanın memarlıq məktəbləri
5. Monumental rəngkarlıq

# MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

## 1. ORTA ƏSR HEYKƏLTƏRAŞLIĞI

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | yapma |
| **Alt-standart:** | | 1.1.1.; 2.1.2.; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• heykəltəraşlığın cəmiyyətin həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• baş, büst, fiqurun real yapılmasında plastilin və ya gildən istifadə edir;<br>• heykəltəraşlığın inkişaf sahələrinə aid nümunələri sadalayır, orta əsrlərdə yaradılmış əsərləri xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. | | |
| **Təchizat:** | Müəllim üçün: | heykəltəraşlıq nümunələrinin fotoları, rubriklər, iş vərəqləri, suallar, praktik işin mərhələlərinə dair nümunələr (slaydlar, əyani vəsait və s.) |
| | Şagird üçün: | dərslik, flomasterlər, rəngli karandaşlar, plastilin və ya gil |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər heykəltəraşlığın inkişaf sahələrinin – monumental, monumental-dekorativ, dəzgah heykəltəraşlığının xarakterik xüsusiyyətlərinin oxşar və fərqli cəhətlərini müəyyən edir, orta əsrlərdə heykəltəraşlığın memarlıqla sıx bağlı olduğunu və heykəltəraşlıq sahələrinə aid nümunələrlə tanış olurlar.*




**A** Dərsliyin **İncəsənətə dair dialoq** bloku fəal dərsin "motivasiya" mərhələsinə uyğun verilmişdir. Bundan əlavə, müəllimə müxtəlif heykəllərin fotolarını (monumental, monumental-dekorativ, dəzgah heykəltəraşlığa aid nümunələr) göstərmək, şagirdlərlə birlikdə onların fərqli cəhətlərini sadalamaq tövsiyə olunur.

Dərsi fəal təlim üsulları ilə keçmək planlaşdırılarsa, o zaman tədqiqat suallarından istifadə oluna bilər.

**Tədqiqat sualları:** *Heykəltəraşlığın inkişaf sahələri arasında fərq nədədir? Baş, büst və fiquru yapmaq üçün nələri bilmək lazımdır?*

**B** Əvvəlki siniflərdə keçdikləri mövzulara əsasən dərsliyin **Xatırla** blokunda verilmiş sual və tapşırıq müzakirə olunur. Şagirdlərlə birlikdə dəyirmi və relyef heykəllərin

fərqini müzakirə etmək məsləhətdir (məsələn, dəyirmi heykəl hər tərəfdən, relyefli heykəl isə öndən və yandan baxılır).

C Müəllimin mövzuya başlaması üçün şagirdlərin diqqətini dərslikdəki orta əsrlərdə heykəltəraşlığın inkişafına dair məlumata yönəltməsi, müzakirə sualları və yaxud şəkillər təqdim etməsi məqsədəuyğundur.

D Şagirdlər **Tanış ol** blokunda heykəltəraşlığın inkişafının monumental, monumental-dekorativ və dəzgah heykəltəraşlığı sahələrinin əhatə etdiyi haqqında məlumat alır.
Mövzu ilə tanış olduqdan sonra şagirdlər heykəltəraşlığın inkişaf sahələrinin oxşar və fərqli cəhətlərini Venn diaqramı vasitəsilə də yerinə yetirə bilərlər. Yaxşı olardı ki, onlar yaşadıqları şəhərin heykəltəraşlıq nümunələrinə aid misal da göstərsinlər. Yeni mövzunun mənimsənilməsini "Ziqzaq" üsulu ilə aparmaq məqsədəuyğundur. "Ekspert" qruplarında müzakirə üçün müəllim şagirdlərə suallar hazırlayır:




**1-ci qrup:** monumental heykəltəraşlığın özünəməxsus xüsusiyyətləri nədədir?
**2-ci qrup:** monumental-dekorativ heykəltəraşlığın əsas xüsusiyyətləri nədədir?
**3-cü qrup:** dəzgah heykəltəraşlığının özünəməxsus xüsusiyyətləri nədədir?
**4-cü qrup:** dəzgah, monumental, monumental-dekorativ heykəltəraşlığın fərqi nədədir?
**5-ci qrup:** orta əsrlərdə heykəltəraşlığın memarlıqla əlaqəsi nədədir?

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Dərslikdə verilən heykəllərin monumental, monumental-dekorativ və ya dəzgah heykəltəraşlığına aid olduğu, qədim, antik və orta əsr heykəltəraşlıq nümunələri arasındakı fərq müəyyən edilir.

Müəllim şagirdləri istiqamətləndirə bilər ki, onlar heykəlləri fərqləndirsinlər.

Müəllimə şagirdlərə orta əsrlərə aid heykəltəraşlığın inkişaf sahələri üzrə maraqlı nümunələr göstərmək, onlar arasındakı fərqi başa salmaq tövsiyə olunur.

**Yaradıcı fəaliyyət**

**2.** Dəzgah heykəltəraşlığına aid nümunə yapmaq tapşırılır. Bu, baş, büst, fiqur və ya bir qrup fiqurlar da ola bilər. Bu tapşırığı yerinə yetirərkən müəllimin şagirdləri **Sənətkar məsləhəti** blokunda verilmiş əsas qaydalarla tanış etməsi məqsədəuyğundur. Tapşırığın qruplarda yerinə yetirilməsi məsləhətdir. Hər qrupa müxtəlif – baş, büst, fiqur yapılması tapşırılır.

**3.** Öz evinin, küçənin yaxınlığında olan memarlıq və təbii landşaftla sıx bağlı heykəltəraşlıq abidəsinin yaddaşdan, yaxud naturadan rəsmini çəkmək tapşırılır. Müəllim xatırladır ki, bu rəsmi çəkmək üçün xətti və hava perspektivini, mütənasibliyi nəzərə almaq lazımdır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Yapma (plastilin və ya gil).

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Heykəltəraşlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında çətinliklə şərh edir. | Heykəltəraşlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini verilmiş suallar əsasında şərh edir. | Heykəltəraşlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini verilmiş nümunələr əsasında çətinliklə şərh edir. | Heykəltəraşlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında ətraflı şərh edir. |
| Baş, büst və ya fiqurun real yapılmasında plastilin və ya gildən çətinliklə istifadə edir. | Baş və ya büstün real yapılmasında plastilin və ya gildən istifadə edir, proporsiyaları müəllimin köməyi ilə müəyyənləşdirir. | Baş, büst və ya fiqurun real yapılmasında plastilin və ya gildən düzgün istifadə edir, proporsiyaları müəyyənləşdirəndə kiçik səhvlər edir. | Baş, büst və ya fiqurun real yapılmasında plastilin və ya gildən düzgün istifadə edir. |
| Heykəltəraşlıq haqqında ən sadə məlumatları yalnız nümunə əsasında sadalayır. | Heykəltəraşlığın inkişaf sahələrinə aid nümunələri sadalayır, orta əsrlərdə yaradılmış müxtəlif heykəltəraşlıq nümunələrini suallar əsasında fərqləndirərək şərh edir. | Heykəltəraşlığın inkişaf sahələrini nümunələr əsasında sadalayır, orta əsrlərə aid müxtəlif sənət nümunələrinin xarakterik xüsusiyyətlərini fərqləndirərək şərh edəndə kiçik səhvlər edir. | Heykəltəraşlığın inkişaf sahələrinə aid nümunələri sadalayır, orta əsrlərdə yaradılmış əsərləri xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək sərbəst şərh edir. |

## 2–3. MEMARLIQ ÜSLUBLARI

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.1.1. , 2.1.2., 3.1.1. |
| **Təlim nəticələri:**<br>• memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• memarlıq tikilisinin real təsvirində qarışıq texnikadan istifadə edir;<br>• verilmiş nümunələr əsasında memarlıq tikililərində milli-üslubi cəhətləri (forma, ritm) estetik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | memarlıq nümunələri (slayd və ya şəkillər), kompüter, proyektor, praktik işin ardıcıllığını əks etdirən nümunə, meyar cədvəli |
| | Şagird üçün: | dərslik, flomasterlər, rəngli karandaşlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda orta əsrlərdə mövcud olan memarlıq üslubları haqqında geniş məlumat verilir. Memarlıq üslubları yaradılan tikililərin hansı dövrə aid olduğu, necə tikildiyi, xalqın tarixi keçmişi, mədəniyyəti və adət-ənənələri haqqında məlumat verir. Bu mövzuda şagirdlər dünya əhəmiyyətli memarlıq üslublarının hər birinin xarakterik xüsusiyyətləri, bir-birindən fərqləndirən səciyyəvi cəhətləri və ən məşhur abidələrin adı ilə tanış olurlar.*




**Mövzuya iki tədris saatı ayrılmışdır: 1-ci saat nəzəri biliklərə, 2-ci saat isə praktik tapşırıqlara əsaslanır.**

**A** Müəllimin mövzunu dərslikdə verilmiş **İncəsənətə dair dialoq** blokundakı sual və fotolarla, yaxud müxtəlif memarlıq üslubuna aid tikililərin fotolarını yazı lövhəsindən asaraq, onlar arasında hansı fərqlərin olmasına dair suallar verə bilər.

***Tədqiqat sualı:*** *Memarlıq üslubu nədir? Orta əsrlərdə hansı dünya əhəmiyyətli memarlıq üslubları mövcud olmuşdur? Bu üslubları fərqləndirən səciyyəvi cəhətlər hansılardır?*

**B** Müəllim sual verə bilər: – *Dərslikdəki memarlıq abidələri haqqında nə deyə bilərsiniz?* (Müzakirə aparılır).

**Xatırla.** *Qədim dövrün ən məşhur memarlıq abidələri hansılardır?* (Şagirdlər əvvəlki siniflərdəki biliklərə əsasən cavablandıra bilərlər).

**C** Dərslikdə memarlıq və memarlıq üslublarının orta əsrlərdə rolu və mövcudluğu haqqında məlumat verilmişdir.

**D** Yeni mövzunun öyrənilməsini “Ziqzaq” üsulu ilə aparmaq məqsədəuyğundur. “Doğma” qruplar memarlıq haqqında bildiklərini söyləyə bilərlər. “Ekspert” qruplarının hər birinə orta əsrlərin bir memarlıq üslubu ilə (1-ci “Ekspert” qrupu – antik, 2-ci “Ekspert” qrupu – Bizans, 3-cü “Ekspert” qrupu – roman, 4-cü “Ekspert” qrupu – qotika, 5-ci “Ekspert” qrupu – İntibah, 6-cı “Ekspert” qrupu – barokko, 7-ci “Ekspert” qrupu – rokoko üslublarını) tanış olmaq tapşırıla bilər.

Fasilələrlə oxu üsulundan da istifadə etmək olar. Orta əsrlərə aid memarlıq üslubunu oxumazdan əvvəl müəllim sual verə bilər. Şagirdlər həmin hissəni oxuyub öyrəndikdən

sonra müəllim ümumiləşdirici sualla müraciət edir. Məsələn, antik üslubu haqqında tanışlıqdan əvvəl müəllim sual verir:

– *Orta əsrlərdə antik üsluba xas olan xüsusiyyətləri sadalayın?* (fərziyyələr).
Onlar 6-cı sinifdə bu üslub haqqında az da olsa məlumat toplayıblar.

Şagirdlərin cavabından sonra, antik dövr onlar tərəfindən dərslikdən oxunub mənimsənilir. Daha sonra müəllim şagirdlərə antik üslubda inşa edilmiş memarlıq abidələrinə aid misallar gətirməsini tapşıra bilər.

– *İntibah dövrünün hansı dahi rəssam və memarlarını tanıyırsınız?* (Albrext Dürer, Leonardo da Vinçi, Rafael Santi, Mikelancelo Buonaroti, Memar Sinan və b.).

**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Verilmiş cədvəli aşağıdakı qaydada qeyd etmək tapşırılır:

| Üslubun adı | Üslubun meydana çıxdığı dövr | Üslubu fərqləndirən səciyyəvi cəhətlər | Üslubun bədii xüsusiyyətləri | Memarlıq abidələrinin adı |
|---|---|---|---|---|
| Antik | | | | |
| Bizans | VI əsr | Silindrik forma üzərində olan günbəz. | İncə bədii gözəllik, həddən çox təmtəraq və dini amillər hiss olunur | Müqəddəs Sofiya məbədi |
| Qotik | | | | |
| Barokko | | | | |
| Roman | | | | |
| İntibah | | | | |
| Rokoko | | | | |

**2-ci dərsdə praktik tapşırıqlar yerinə yetirilir.**

**Yaradıcı fəaliyyət.**

**2.** Hər hansı bir üslubda memarlıq tikilisi üçün öz eskiz variantını çəkmək tapşırılır. İstifadə etdikləri üslubun xarakterik xüsusiyyətini təsvir etmək tələb olunur. Mövzudakı nümunələrə baxmaq məsləhət görülür. Bunun üçün şagirdləri orta əsrlərdə memarlıq üslublarının sayına uyğun 7 qrupa ayırmaq olar.

1-ci qrup – antik, 2-ci qrup – Bizans, 3-cü qrup – roman, 4-cü qrup – qotik, 5-ci qrup – İntibah, 6-cı qrup – barokko, 7-ci qrup – rokoko üslublarına aid eskiz variantı çəkə bilər. İşi cütlərlə də yerinə yetirmək olar. Bu zaman hər cütə müxtəlif memarlıq üslubunun tapşırılması məsləhətdir.

**3.** Müxtəlif mənbələrdən orta əsr memarlıq üslubları haqqında əlavə məlumat toplamaq tapşırılır.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;

- **Qarışıq texnikadan**[1] istifadəetmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Memarlığın cəmiyyət həyatında rolunu müəllimin köməyi ilə anlayır. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini verilmiş suallar əsasında izah edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini verilmiş nümunələr əsasında çətinliklə şərh edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında ətraflı şərh edir. |
| Müəllimin köməyi ilə memarlıq tikilisinin real təsvirini səliqəsiz çəkir. | Müəllimin köməyi ilə memarlıq tikilisinin real təsvirini səliqəli çəkir. | Müəllimin köməyi ilə memarlıq tikilisinin real təsvirində qarışıq texnikadan istifadə edir. | Memarlıq tikilisinin real təsvirində qarışıq texnikadan sərbəst istifadə edir. |
| Verilmiş nümunələrdə memarlıq tikililərində milli-üslubi cəhətləri (forma, ritm) suallar əsasında tanıyır. | Memarlıq tikililərinin milli-üslubi cəhətlərini (forma, ritm) estetik xüsusiyyətlərini çətinliklə fərqləndirir. | Nümunələr əsasında memarlıq tikililərində milli-üslubi cəhətləri (forma, ritm) estetik xüsusiyyətlərinə görə fərqləndirir. | Memarlıq tikililərində milli-üslubi cəhətləri (forma, ritm) estetik xüsusiyyətlərini nümunələr göstərməklə fərqləndirir. |

## 4. AZƏRBAYCANIN MEMARLIQ MƏKTƏBLƏRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | konstruksiya | |
| **Alt-standart:** | 2.1.1., 2.1.2., 3.1.1. | |
| **Təlim nəticələri:**<br>• Azərbaycan memarlıq tikililərini konstruksiya edir;<br>• memarlıq tikililərinin konstruksiyasının qurulmasında flomasterlər, rəngli karandaşlar, kağız qutular, parçalar, gil və ya plastilin, məftildən istifadə edir;<br>• Azərbaycan memarlıq tikililərində forma, ritm, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **Təchizat:**: | Müəllim üçün: | memarlıq tikililərinin fotoşəkilləri (yaxud slaydlar), praktik işin ardıcıllığına aid nümunələr (model, rəsm, yapma, qarışıq texnika) |
| | Şagird üçün: | dərslik, flomasterlər, rəngli karandaşlar, kağız qutular, parçalar, gil və ya plastilin, məftil |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərə orta əsrlərdə Azərbaycanda mövcud olmuş memarlıq məktəbləri haqqında məlumat vermək, onları bir-birindən xarakterik xüsusiyyətlərinə görə fərqləndirmək və tikililərin konstruksiyasını düzəltmək.*

[1] **Qarışıq texnika** – metodika və termin kimi istifadə olunur, təsviri sənətdə bir və ya bir neçə təsvir vasitəsinin istifadə üsulu və ya texnologiyasıdır.







A Müəllim mövzuya başlamaq üçün müəyyən bina, tikili və ansamblların şəklini yazı lövhəsindən asır. Onları hansı əlamətlərinə görə ayırmaq mümkün olduğuna aid sual verə bilər. Bundan başqa, **“Memarlıq məktəbləri”** sözünü şagirdlərdən almaq üçün bir tərəfdə məktəb şəkilləri, başqa tərəfdə memarlıq abidələrinin şəklini asıb: “Bunlar arasında hansı əlaqə var?” sualını verə bilər.

***Tədqiqat sualı:*** *Orta əsrlərdə Azərbaycanın memarlıq məktəbləri arasında fərq nədədir? Memarlıq tikililərinin konstruksiya edilməsində nələri nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B Şagirdləri 4 qrupa ayırmaqla onlara – *Aran, Şirvan–Abşeron, Naxçıvan, Təbriz* adlarını vermək məqsədəuyğundur. Qruplarda şagirdlər orta əsrlərdə Azərbaycanda mövcud olan müxtəlif memarlıq məktəbləri, onlara xas tikililər haqqında öz fərziyyələrini söyləyirlər.

C Müəllim şagirdlərə orta əsrlərdə Azərbaycan memarlarının əvəzsiz töhfələri haqqında kiçik məlumat verir.

D Müəllim şagirdlərin hər birinə dərslikdəki mövzunun əvvəlcədən çıxarılmış surətini paylayır və onlara tapşırır ki, İQS vasitəsilə mətni aşağıda verilmiş xüsusi işarələrlə oxusunlar:

“+” – yeni informasiyadır; “–” – bildiyimə ziddir; “?” – qarışıq informasiyadır;
“!” – əvvəl bilirdim.

Şagirdlər mətni oxuyur və bu işarələrdən ibarət cədvəli doldururlar. Bunun üçün yeni və qarışıq olan informasiyanı, bildikləri və bilmədiklərini cədvəldə lazımi hissəyə qeyd

edirlər. Mətni mənimsətmək üçün BİBÖ cədvəlindən, fasilələrlə oxu üsulundan da istifadə etmək olar.

**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Şagirdlər aşağıdakı suallara cavab verməlidirlər:

– *Yaşadığın şəhər, qəsəbə və ya kəndin memarlığında hansı tikinti materialından daha çox istifadə olunub? Tikililər hansı ümumi memarlıq üslubuna, konstruksiyaya, qapı və pəncərə formalarına, bəzək ünsürlərinə malikdir? Onlar nə zaman inşa olunub və xarakterik xüsusiyyətləri hansılardır?*

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə hazır formadan (qutu, yeşik, qablaşdırma) istifadə etməklə və öz tikilisini yaratmaq tapşırılır. Onu kağız, parça, gil, plastilin, məftil və s. materiallardan olan element və bəzəklərlə tamamlamaq məsləhət görülür.

**3.** Yaşadıqları şəhər və ya kənddə bəyəndikləri binanın rəsmini çəkmək tapşırılır. Bu məqsədlə ekskursiya edərək, tarixi və müasir binalara baxmaq və onların xarici görünüşündəki ümumi cəhətləri müəyyənləşdirmək tələb olunur (müəllim bir dərs əvvəl şagirdlərə bunu etməyi tapşıra bilər. Onlara ekskursiya zamanı eskizlər etmək tövsiyə olunur).

Tapşırıq cütlüklərdə də yerinə yetirilə bilər. Müəllimin binanı yerləşdirməyi, perspektivi nəzərə almağı, koloriti verməyi, ətrafındakı elementləri göstərməyi şagirdlərin yadına salması məsləhətdir.

**H** Müəllim şagirdlərə suallar verməklə dərslikdə verilmiş **Özünü yoxla** blokundakı ümumiləşdirici sualların cavablandırılmasına nail olur.

*Qiymətləndirmə meyarları:*

- Təsviretmə;
- Müxtəlif təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müəllimin köməyilə memarlıq tikilisinin konstruksiyasını düzəltməkdə çətinlik çəkir. | Müəllimin köməyilə memarlıq tikilisinin konstruksiyasını düzəltməyə çalışır. | Memarlıq tikilisinin konstruksiyasını düzəltməyə səy göstərir. | Memarlıq tikilisinin konstruksiyasını sərbəst yaradır. |
| Memarlıq tikilisinin konstruksiyasının qurulmasında sulu boya və plastilindən istifadə etməkdə çətinlik çəkir. | Memarlıq tikilisinin konstruksiyasının qurulmasında sulu boyalar və plastilindən istifadə edir. | Memarlıq tikilisinin konstruksiyasının qurulmasında sulu boyalar, qarışıq texnika və plastilindən düzgün istifadə edir. | Memarlıq tikililərinin konstruksiyasının qurulmasında flomasterlər, rəngli karandaşlar, kağız qutular, parçalar, gil və ya plastilin, məftildən istifadə edir. |
| Memarlıq tikililərində forma, ritm və rəng çalarlarını fərqləndirməkdə çətinlik çəkir. | Memarlıq tikililərində forma, ritm və rəng çalarlarını məntiqə əsasən fərqləndirir. | Memarlıq tikililərində forma, ritm və rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir. | Memarlıq tikililərində forma, ritm, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə asanlıqla fərqləndirir. |

# 5. MONUMENTAL RƏNGKARLIQ

## Gündəlik planlaşdırmaya dair dərs nümunəsi

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | | 1.1.1., 2.1.2., 3.1.2. |
| **Təlim nəticələri:**<br>• monumental rəngkarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• mozaika və vitrajın real təsvirində sulu boya, aplikasiya və ya qarışıq texnikadan istifadə edir;<br>• təsviri incəsənətin monumental rəngkarlıq növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. | | |
| **İnteqrasiya:** | | İnf. 3.2.1.; H-b. 3.1.1.; Az.-t. 1.3.1.; 5.1.3.; Tex. 1.3.1.; 1.3.2.; 1.3.3.; 4.1.1. |
| **İş formaları:** | | qrup işi, kollektiv iş, |
| **İş üsulları** | | müzakirə, fasilələrlə oxu, yaradıcı əsərin yaradılması, təqdimat |
| **Təchizat:** | Müəllim üçün: | monumental rəngkarlıq nümunələri (slayd və ya şəkillər), iş vərəqləri, kompüter, proyektor, meyar cədvəli |
| | Şagird üçün: | dərslik, quaş və ya akvarel, rəngli kağızlar, qayçı, yapışqan |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərin monumental rəngkarlıq, onun işlənmə texnikasına görə sahələri haqqında məlumat toplamaqdır. İşlənmə texnikasına görə monumental rəngkarlıq əsərləri arasında freska, vitraj və mozaika xüsusilə fərqlənir.*



**Dərsin gedişi / MOTİVASİYA**

Ⓐ Dərsliyin **İncəsənətə dair dialoq** bloku, əvvəlki mövzularda da qeyd edildiyi kimi, fəal dərsin “motivasiya” mərhələsinə uyğun verilmişdir.

***Tədqiqat sualları:*** *Monumental rəngkarlıq haqqında nə bilirsiniz və onun hansı işlənmə texnikaları var? Mozaika və ya vitraj üçün eskiz hansı ardıcıllıqla təsvir olunur?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**TƏDQİQATIN APARILMASI**

**B** Müəllim şagirdlərə 6-cı sinifdə keçdikləri freska haqqında suallar verir, biliklərini yoxlayır. Sonra aşağı siniflərdə yaş səviyyələrinə uyğun keçdikləri mozaika və vitraja aid fotoşəkillər göstərir və texnikalarla bağlı suallar verir.

**C** Mətnlə tanış olmamışdan əvvəl müəllim sual verə bilər:

– Rəngkarlıq əsərlərini kətan üzərindən başqa daha harada görmüsünüz? (fərziyyələr)
– Memarlıqda divarı, döşəməni və tavanı bəzəyən, rəngkarlıq növü *monumental rəngkarlıq* adlanır. Monumental rəngkarlıq əsərləri arasında freska, vitraj və mozaika xüsusilə fərqlənir. Orta əsrlərdə rəngkarlıq təsviri sənətin əsas növlərindən biri olmuşdur.

**D** Fasiləli oxu üsulundan istifadə etməklə mətn abzaslarla oxunur və mətnin məzmunu müzakirə olunur. Fasilələr zamanı müəllim şagirdlərə qabaqcadan hazırlanmış müxtəlif suallar verir. Məsələn, vitraj haqqında oxuduqdan sonra **Düşün və izah et** blokuna cavab vermək olar: "*Vitraj – şüşədən olan elə bir təsvirdir ki, onun rəngləri heç vaxt solmur*" fikri nəyi bildirir?

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Şagirdlər Bakının «Nizami» metro stansiyasındakı mozaikanın və Şəki xan sarayındakı şəbəkənin kompozisiya motivini nə təşkil etdiyini tapırlar.

**2.** Mövzunu mənimsədikdən sonra mozaika (1 və 2-ci qruplar) və ya vitraj (3 və 4-cü qruplar) üçün eskiz çəkmək tapşırılır. Şagirdlər kompozisiyanın süjet və kolorit həllini müəyyən etməlidirlər. Bu tapşırığı rəngli kağız vasitəsilə aplikasiya texnikasında, yaxud kompüterdə PAINT proqramında yerinə yetirmək təklif olunur. Şagirdlər eskizləri qruplarda da yerinə yetirə bilər. Onlar iş zamanı mozaika və ya vitrajı akvarel, quaşla rəngləyə və ya rəngli kağızlardan istifadə edərək aplikasiya düzəldə bilərlər.

**Sənətkar məsləhəti:** Verilmiş eskiz nümunələrindən istifadə etmək olar.







Təsvir zamanı müəllim dərsin sonunda *qrupun özünü qiymətləndirəcəyini* xatırladır və meyarlar yazı lövhəsindən asılır.

**MƏLUMAT MÜBADİLƏSİ**

Qruplar təsvirlərini təqdim edirlər.

**MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

– Müasir dövrdə monumental rəngkarlıq əsərlərinin hansı texnikaları mövcuddur?
– Memarlıq və monumental rəngkarlıq arasında hansı əlaqə var?

**ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

Öyrəndiklərini ümumiləşdirmək üçün konseptual cədvəl doldurulur.

| **Müqayisə olunan cəhətlər** | **Nədən ibarətdir?** | **Harada görmüsünüz?** | **Əlavə nə bilirsiniz?** |
|---|---|---|---|
| **Müqayisə olunan obyektlər** | | | |
| Mozaika | Əlvan rəngli daşlardan, keramika parçalarından, smaltadan yaradılan təsvirlərdir. | San-Vitale kilsəsində, Bakının "Nizami" metro stansiyasında və s. | Monumental rəngkarlıq əsərləri uzaq məsafədən seyr olunur. **Mozaika** latın dilində "*musivum*", tərcümədə – "ilham pərilərinə həsr olunmuş" deməkdir. |
| Vitraj | | | |
| Freska | | | |

**YARADICI TƏTBİQETMƏ**

**3.** Orta əsr monumental rəngkarlığına həsr olunmuş sərginin planını hazırlamaq və onun ekspozisiyasına tərtibat vermək tapşırıla bilər.

**QİYMƏTLƏNDİRMƏ**

Qiymətləndirmə zamanı *qrupun özünüqiymətləndirməsindən* istifadə edilir. Göstərilən cədvələ uyğun qruplar özlərinə qiymət verirlər. Bunun üçün meyarlar hər qrupun qarşısına qoyulur.

| **№** | **MEYARLAR** | **Həmişə** | **Bəzən** | **Heç vaxt** |
|---|---|---|---|---|
| **1.** | Müzakirəyə başlamazdan əvvəl tapşırığı dəqiqləşdiririk. | | | |
| **2.** | Tapşırıqdan kənara çıxmırıq. | | | |
| **3.** | Hamı fikrini söyləyir. | | | |
| **4.** | Bir rəyə gələ bilirik. | | | |
| **5.** | Qrupda yerinə yetiriləcək işləri aramızda düzgün bölürük. | | | |
| **6.** | İşi verilən vaxt ərzində yerinə yetiririk. | | | |

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)**
**nümunəsi vəsaitin sonunda verilmişdir.**

# 2. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR




6. Miniatürlərdə məişət təsvirləri
7. Təsviri sənətdə əfsanəvi obrazlar
8. Təsviri sənətdə işıq və kölgə
9. Avtoportret
10. Süjetli əsərlərdə insan obrazı
11. Heykəltəraşlıqda insan obrazı

# 6. MİNİATÜRLƏRDƏ MƏİŞƏT TƏSVİRLƏRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.2.1., 1.3.1., 2.1.1. |
| **Təlim nəticələri:**<br>• təsviri incəsənətin məişət janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• Azərbaycanın görkəmli təsviri incəsənət nümayəndəsi Müzəffər Əli və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• insanın gündəlik həyatını məişət janrında real təsvir edir; | | |
| **Təchizat:** | Müəllim üçün: | miniatür əsərlərdən nümunələr (slayd və ya şəkillər), iş vərəqləri, kompüter, proyektor, meyar cədvəli |
| | Şagird üçün: | dərslik, boyalar, flomasterlər, rəngli karandaşlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər təsviri sənətdə janr müxtəlifliyi ilə tanış olur, süjetli əsərlərin məzmuna görə fərqini dərk edirlər. Məişət janrının əsas xüsusiyyətlərini görkəmli miniatürçü-rəssam Müzəffər Əlinın əsərlərində şərh edir, rəssamın həyat və yaradıcılığı haqqında məlumat əldə edirlər.*




**A** 1.“Motivasiya” mərhələsində dərsliyin **İncəsənətə dair dialoq** blokundakı sualı müzakirə etmək olar. Bu zaman şagirdlərin diqqətini məişət mövzusuna və uyğun süjetli əsərlərə yönəltmək lazımdır.

2. Anlayışın çıxarılması üsulundan istifadə etmək olar. Məsələn:

– *Verilmiş sözlər nəyi bildirir?*



3. Dərslikdəki məişət janrına aid şəkillərdən istifadə etmək mümkündür. Onların böyüdülmüş surətlərini yazı lövhəsindən asıb sinfə müraciət etmək olar: Məsələn: *"Bu şəkillərdə nə təsvir olunub? Mövzular sizə nəyi xatırladır?* (Təsviri sənətin məişət janrını)". Şagirdlərə verilən müxtəlif suallarla onların fikirləri təsviri sənətin məişət janrına yönəldilir. Müəllim bu sözlərin onlara nəyi xatırlatdığını (məişət janrı) soruşa bilər.

Dərsi fəal təlim üsulları ilə keçməyi planlaşdıran müəllimlər tədqiqat sualını belə qoya bilərlər.

***Tədqiqat sualları:*** *Müzəffər Əlinin yaradıcılığının əsas xüsusiyyətləri nədir?*

Şagirdlər öz fərziyyələrini söyləyir. Bu zaman şagirdlərin fərziyyələrini qeyd etmək məqsədəuyğundur.

B **Xatırla** bloku şagirdlərin köhnə biliklərini yada salmaq məqsədilə birlikdə müzakirə olunur. Dərslikdəki suallarla yanaşı, şagirdlərə əsərin süjeti və onunla bağlı müxtəlif suallarla müraciət etmək olar.

C Müəllim şagirdlərlə birlikdə dərslikdə verilmiş janr müxtəlifliyi, janrların bir-birindən fərqi, hər bir janrın tərkibində bəzən ona məxsus olan daxili bölgü haqqında məlumat alır.

D Dərslikdəki məlumatları şagirdlərə mənimsətmək üçün müxtəlif vasitələrdən istifadə etmək olar. Bu işi qruplarla təşkil etməyi planlaşdıran zaman süjetli əsərlərin hər biri bir qrupa verilə bilər. Qruplar müzakirə edib, ona aid bildikləri əsərləri sadalaya bilərlər. Bu zaman şagirdlərə istiqamətləndirici suallar vermək olar.

**Nəzərdən keçir və müqayisə et** blokundakı tapşırıqda məişət janrının inkişafının keçdiyi mərhələlər təsvirlər əsasında verilmişdir. Şagirdlər onları müqayisə və xronoloji ardıcıllıq üzrə məişət janrının necə inkişaf etdiyini şərh edirlər. Bu zaman müəllim Qobustan qayaüstü rəsmlərini də nümunə göstərir. Bu əsərlərdə həmin dövrdə yaşamış insanların həyat tərzi, məişət xüsusiyyətləri əks olunur. Bu baxımdan əsərlərin süjeti, onların yaranma dövrləri barədə müəyyən məlumatlar verir.

E Şagirdlər **Təsviri sənət qalereyası** blokunda Müzəffər Əlinin miniatürlərində məişət janrının xüsusiyyətləri, o dövrün insanlarının gündəlik həyatının təsvirləri ilə tanış olurlar.

F **Görkəmli rəssamlar**a dair cədvəldə Təbriz miniatür məktəbinin ən parlaq nümayəndələrindən olan Müzəffər Əlinin həyat xronologiyası verilmişdir.

Yeni mövzunu mənimsəmək üçün müəllim BİBÖ üsulunu tətbiq edir. Bunu vaxta qənaət etmək üçün qruplarla deyil, bütün siniflə frontal aparır. Yazı lövhəsində cədvəlin öncə BİB hissəsini çəkir. 3-cü "Öyrəndim" hissəsinə isə toxunmur.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Şagirdlərdən təsviri sənətin məişət janrı, Müzəffər Əli haqqında bildiklərini soruşub cədvəlin 1-ci "Bilirik" hissəsinə yazır. Sonra bu haqda nə öyrənmək istədiklərini soruşur və meydana gələn sualları cədvəlin "İstəyirik bilək" hissəsinə yazır. Şagirdlər dərslikdə məlumatla tanış olurlar. Müəllim onlardan dərslikdən nə öyrəndikləri haqqında soruşur.

Sonra cədvəlin 3-cü hissəsində yazılan "Öyrəndik" sözünü əlavə edir və oraya şagirdlərin əlavə öyrəndiklərini yazır.

Mövzu İQS üsulu ilə də öyrənilə bilər.

Şagirdlərin mətnlə tanışlığı zamanı **Şərh et** blokundakı sual ilə bağlı və rəssamın təqdim olunan əsərinin süjetləri barədə müzakirə təşkil etmək faydalı olardı.

**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Təsvirlərdə verilmiş insan fiqurunun hərəkətləri bir-birindən nə ilə fərqlənir?

**Yaradıcı fəaliyyət**

**2.** İstənilən mövzuya əsaslanaraq məişət janrında kompozisiya yaratmaq tapşırılır. Şagirdlərə təklif olunur ki, mənsub olduqları ailənin həyat tərzini, adət-ənənələrini, insan həyatındakı xüsusi əhəmiyyətli günləri təsvir etsinlər. Bu zaman rəsmin süjetini maraqlı düşünmək lazımdır. Burada nə qədər adam iştirak edəcək? Harada və nə vaxt (təbiətdə, evdə) nələr baş verəcək?

Müəllim öncə şagirdə formatı seçməkdə kömək etməlidir. Belə ki, əgər onun rəsmində üfüqi istiqamətdə çəkəcəyi obyektlər çoxdursa, vərəqi üfüqi, əks halda, şaquli tutmaq təklif edilir. Rəsmə başlamaqdan əvvəl **Sənətkar məsləhəti** ilə tanış olmaq lazımdır. Şagirdlər rəsmetmə zamanı insanı hərəkətdə göstərməkdə çətinlik çəkirlər. Bunun üçün müəllim təklif edə bilər ki, şagirdlər bir-birinin hərəkətdə olan anının qaralamasını çəksinlər. Şagird növbə ilə yoldaşından xahiş edə bilər ki, hərəkəti göstərmək üçün lazım olan vəziyyətdə dayansın. Həmin vəziyyətdə onun qaralaması çəkilir və vərəqdə lazımi yerə köçürülür. İnsanın ən çox hərəkətdə olan anları dərslikdə həm sxem, həm də rəsm formasında verilmişdir. Şagirdlər bu təsvirlərdən də istifadə edə bilərlər. İnsan fiqurlarının yeri əvvəlcədən müəyyən olunmalıdır. İşi qruplarda, cütlərlə yerinə yetirmək də olar.

**3.** Məişət janrının inkişaf mərhələləri əks olunan sxem tərtib etmək tapşırılır. Ən qədim, qədim və müasir dövrdə rəssamları bu janrı heykəltəraşlıqda, qrafikada və rəngkarlıqda necə vermişlər? Müəllim uyğun suallar vasitəsilə şagirdləri belə bir sxemin yaradılmasına istiqamətləndirə bilər. Şagirdlər bu barədə fikirlərini söyləyirlər.

| Təsviri sənət növləri | **Məişət janrının inkişaf mərhələləri** | | |
|---|---|---|---|
| | Ən qədim dövr | Qədim dövr | Müasir dövr |
| Heykəltəraşlıq | | | |
| Qrafika | | | |
| Rəngkarlıq | | | |

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təsviretmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Məişət janrında verilmiş nümunələri sualları cavablandırmaqla izah edir. | Məişət janrında verilmiş əsərləri bədii ifadə vasitələrinə görə şərh edir. | Məişət janrında olan əsərləri forma, məzmun və bədii ifadə vasitələri əsasında şərh edir. | Məişət janrında ideya, forma və məzmun, bədii ifadə vasitələri ilə şərh edir. |
| Müzəffər Əlinin verilmiş əsərini tanıyaraq izah edir. | Azərbaycanın miniatürçü rəssamı Müzəffər Əlinin ən məşhur əsərləri haqqında məlumatları şərh edir. | Azərbaycanın miniatürçü rəssamı Müzəffər Əlinin ən məşhur əsərlərini seçərək şərh edir. | Azərbaycanın miniatürçü rəssamı Müzəffər Əli və onun yaradıcılığını fərqləndirərək müqayisə və şərh edir. |
| İnsanın gündəlik həyatının məişət janrında real və ya abstrakt təsvirində bədii ifadə vasitələrindən səthi istifadə edir. | İnsanın gündəlik həyatının məişət janrında real və ya abstrakt təsvirində üsullardan və bədii ifadə vasitələrindən əsasən istifadə edir. | İnsanın gündəlik həyatının məişət janrında real və ya abstrakt təsvirində kompozisiya həllini, üsulları və bədii ifadə vasitələrini müəyyənləşdirərək istifadə edir. | İnsanın gündəlik həyatının məişət janrında real və ya abstrakt təsvirində kompozisiya həllindən, müxtəlif üsullardan və bədii ifadə vasitələrindən məqsədyönlü istifadə edir. |
| Verilmiş nümunədə təsviri sənətin məişət janrını tanıyaraq şərh edir. | Təsviri sənətin müxtəlif janrlarında verilmiş nümunələri qruplaşdıraraq şərh edir. | Təsviri sənətin məişət janrında verilmiş nümunələri xarakterik xüsusiyyətlərinə görə seçərək şərh edir. | Təsviri sənətin məişət janrını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək düzgün şərh edir. |

## 7. TƏSVİRİ SƏNƏTDƏ ƏFSANƏVİ OBRAZLAR

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.2.1., 1.3.1., 2.1.1., 3.1.2. |
| **Təlim nəticələri:**<br>• əsatir janrında olan əsərləri xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• Azərbaycanın görkəmli rəssamı Rasim Babayev və onun yaradıcılığına dair məlumatları şərh edir;<br>• həyati görüntüləri əsatir janrında real və abstrakt təsvir edir;<br>• əsatir janrını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif nağıl və əfsanələrə aid (slayd və ya şəkillər), obrazların təsvirləri, kompüter, proyektor, rubrik |
| | Şagird üçün: | dərslik, akvarel, quaş, pastel tabaşirləri |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Şagirdlər ilk dəfə əfsanə, rəvayət və dini hekayələrdə bəhs olunan obraz, hadisə və qəhrəmanlara həsr edilmiş təsviri sənətin əsatir janrı ilə tanış olurlar. Əsatir janrı orta əsrlərdə müxtəlif xalqların mifologiyasından götürülmüş süjetlər əsasında yaradılmışdır. Azərbaycan mifologiyasında əfsanəvi varlıqların fərqli təsviri folklorumuzda geniş yayılmış obrazlardandır. Şagirdlər Azərbaycanın Xalq rəssamı Rasim Babayevin yaradıcılığı və əsərlərinin xüsusiyyətləri, qəhrəmanları haqqında məlumat alırlar.*




**A** Müəllim yazı lövhəsində müxtəlif nağıl qəhrəmanlarının və əfsanəvi varlıqların təsvir olunduğu əsərlərin fotoşəkillərini bərkidir və şagirdlərdən soruşur: *“Şəkillərdə nə görürsünüz? Belə əsərlər təsviri sənətin hansı janrına aiddir?”* (Əsatir janrına. Şagirdlər bu janr haqqında məlumata əvvəlki mövzudan malikdir). Anlayışın çıxarılması, açar sözlər üsullarından da istifadə etmək olar.

***Tədqiqat sualları:*** *Əsatir janrında rəsmi necə, hansı bədii ifadə vasitələri ilə çəkmək olar? Rasim Babayevin yaradıcılığının əsas xüsusiyyətləri nədir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** bloku təhlil olunur. Mifoloji obrazlar haqqında müzakirələr aparılır. Müxtəlif xalqlara məxsus illüstrasiyalar şagirdlər tərəfindən müqayisə edilir. Onların ümumi cəhətləri araşdırılır.

**C** Dərslikdə əsatir janrı, onun yaranma tarixi, cəmiyyətdə yeri haqqında məlumatla tanış olurlar. Azərbaycan mifologiyasında mövcud olan fantastik obrazların fərqli cəhətlərini müəyyən edirlər, **Bilirsənmi** blokunda verilmiş məlumatı oxuyurlar.

**D** Mövzu mənimsənildikdən sonra müəllim Rasim Babayevin dərslikdə adıçəkilən əsərlərinin şəkillərini və digər janrlarda olan əsərləri partanın üzərində qarışıq halda qoya bilər. Şagirdlərə onların arasından Rasim Babayevin əsərlərini (əsərlərin adı) tapmaq tapşırılır. Bunu qruplarla da aparmaq mümkündür. Mövzunu BİBÖ üsulu ilə də anlatmaq olar.

**E** Şagirdlər **Təsviri sənət qalereyası** blokunda Rasim Babayevin əsərlərində əsatir janrının xüsusiyyətləri ilə, rəssamın özünəməxsus tərzdə çəkilmiş nağılların və folklor nümunələrinin təsvirləri ilə tanış olurlar.

**F** **Görkəmli rəssamlar**a dair cədvəldə Abşeron rəngkarlıq məktəbinin ən parlaq nümayəndələrindən olan Rasim Babayevin həyat xronologiyası verilmişdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Şagirdlərdən Rasim Babayevin rəngkarlıq əsərlərində hansı koloritin müşahidə olunduğu soruşulur.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə müxtəlif xalqların, yaxud Azərbaycan xalqının tanış əsatirlərinə aid rəsm çəkmək tapşırılır. Rəsmi cütlükdə yerinə yetirmək daha məqsədəuyğundur.

Dərslikdə mifoloji obrazlardan olan Təpəgöz, Simurq quşu və Əjdahadan əlavə, Div personajının mərhələlərlə çəkilmə ardıcıllığını da müəllim təqdim edə bilər.



| | | | |
|---|---|---|---|
| Təpəgöz | Div | Əjdaha | Simurq |






**3. (a)** Özünün təkrarolunmaz, əfsanəvi obrazını yaratmaq tapşırılır.
**(b)** Onun yaradıcılığına aid əlavə məlumatlar toplamaq və təqdimat hazırlamaq tapşırılır.
H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təsviretmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əsatir janrında verilmiş nümunələri müəllimin köməyi ilə tanıyaraq şərh edir. | Əsatir janrında olan əsərləri bədii ifadə vasitələrinə görə şərh edir. | Əsatir janrında olan əsərlərdə forma, məzmun və bədii ifadə vasitələrini şərh edir. | Əsatir janrında olan əsərlərdə ideya, forma, məzmun, bədii ifadə vasitələrini şərh edir. |
| Azərbaycanın görkəmli rəssamı Rasim Babayevin əsərləri haqqında məlumatları çətinliklə şərh edir. | Azərbaycanın görkəmli rəssamı Rasim Babayevin ən məşhur əsərləri haqqında məlumatları şərh edir. | Azərbaycanın görkəmli rəssamı Rasim Babayevin ən məşhur əsərlərini fərqləndirərək şərh edir. | Azərbaycanın görkəmli rəssamı Rasim Babayev və onun yaradıcılığına aid nümunələri şərh edir. |
| Həyati görüntülərin əsatir janrında real və ya abstrakt təsvirində bədii ifadə vasitələrindən səthi istifadə edir. | Həyati görüntülərin əsatir janrında real və ya abstrakt təsvirində üsullardan və bədii ifadə vasitələrindən istifadə edir. | Həyati görüntülərin əsatir janrında real və ya abstrakt təsvirində kompozisiya həllini, üsulları və bədii ifadə vasitələrini müəyyənləşdirərək istifadə edir. | Həyati görüntülərin əsatir janrında real və ya abstrakt təsvirində müxtəlif kompozisiya həllindən, üsullardan və bədii ifadə vasitələrindən istifadə edir. |
| Verilmiş nümunədə əsatir janrını xarakterik xüsusiyyətlərinə görə çətinliklə şərh edir. | Əsatir janrında verilmiş nümunələri qruplaşdıraraq şərh edir. | Əsatir janrında verilmiş nümunələri xarakterik xüsusiyyətlərinə görə seçərək şərh edir. | Əsatir janrını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. |

## 8. TƏSVİRİ SƏNƏTDƏ İŞIQ VƏ KÖLGƏ

| | |
|---|---|
| **Məşğələ növü:** | naturadan rəsm |
| **Alt-standart:** | 1.3.1., 2.1.2., 3.1.1.; 3.1.2. |

**Təlim nəticələri:**

- dünyanın görkəmli rəssamı Karavacco və onun əsərləri haqqında məlumatları şərh edir;
- natürmortun real təsvirində müxtəlif vasitələrdən sulu boya, rəngli karandaşlar, pastel tabaşirlərdən istifadə edir;
- natürmortda forma, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir;
- natürmort janrını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir.

| | | |
|---|---|---|
| **Təchizat:** | Müəllim üçün: | natürmort janrında əsərlərdən nümunələr (slayd və ya şəkillər), əşyalar, praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik sxemi |
| | Şagird üçün: | dərslik, akvarel, quaş, pastel tabaşirlər, rəngli karandaşlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərə sənət əsərlərinin yaradılmasında işıq və kölgənin əhəmiyyətini başa salmaqdır. Barokko dövrünün ən görkəmli sənətkarlarından biri, dahi italyan rəssamı Mikelancelo Merizi da Karavacconun yaradıcılığında işıq və kölgənin rolu haqqında məlumat alacaqlar. Şagirdlər rəngkarlığın bu ifadə vasitələrindən istifadə edərək naturadan natürmortun çəkilməsində əşyaların forma, rəng çalarlarını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edirlər.*




**A** Müəllim dərsin “motivasiya” mərhələsini dərslikdə **İncəsənətə dair dialoq** blokunda verilmiş fotoşəkillərlə və ya istənilən vasitələrlə qura bilər.
Müəllim yazı lövhəsindən yalnız kənar xətləri verilmiş iki dairə şəkli asır və soruşur:
– Bu dairələr bir-birindən fərqlənir? (Xeyr).
Sonra bir həcmli, bir də yastı dairə şəkli olan vərəq asılır. Müəllim yenə də eyni sualı verir. Şagirdlər təbii ki, birinin həcmli (kürə) və digərinin yastı (dairə) olduğunu bildirirlər. Müəllim soruşur:
– Niyə ikinci şəkildə dairələr fərqli görünürdü? (İşıq-kölgənin sayəsində).

***Tədqiqat sualları:*** *Karavacconun yaradıcılığının əsas xüsusiyyətləri nədədir? Meyvə, tərəvəz və qabdan ibarət natürmortu çəkərkən işıq-kölgə münasibətlərini necə göstərmək olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** Şagirdlər işıq-kölgənin keçidlərini xatırlayır və dolçanın təsviri üzərində onu izah edirlər. Müəllim şəklin üzərində (yazı lövhəsindən işıq-kölgə vasitəsilə verilən hər hansı qab şəkli bərkidə və ya naturadan göstərə bilər) blik, işıq, yarımkölgə, xüsusi kölgə, refleks, düşən kölgə haqqında müzakirə aparır. Bundan başqa **Düşün və izah et** blokunda əsərlərdə formanın həcmini qabardaraq aşkara çıxaranın nə olduğunu soruşması məqsədəuyğundur.

**C** Müəllim şagirdlərə təsviri sənət əsərlərində işıq və kölgənin İntibah dövründən başlayaraq tətbiq edildiyi haqqında danışır. İlk dəfə Leonardo da Vinçi işıq və kölgəni öz yaradıcılığında istifadə etmiş və onun nəzəriyyəsini işləmişdir.

**D** Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olurlar. Rembrandt və Karavacco yaradıcılığında işıq və kölgənin tətbiqi ən yüksək inkişaf mərhələsinə çatmışdır. Rəssamlar əsərlərində işıq və kölgənin köməyi ilə əşyaların forma, həcm və fakturasını elə inandırıcı təsvir etməyi öyrəndilər ki, sanki, onlar göz önündə canlanırdı.





***1. Rembrandt. “Qırmızı geyimli qocanın portreti”***
***2. Leonardo da Vinçi. “Madonna (Məryəm) qayalıqlar arasında”***

Yeni mövzunun mənimsənilməsi üçün fasilələrlə oxu üsulundan istifadə etmək məsləhətdir. Bundan başqa, mövzunu bloklarla oxuyub müzakirə etmək olar.

**E** **Təsviri sənət qalereyası** blokunda olan təsvirləri müzakirə etdikdən sonra rəssamın təqdim olunmuş əsərlərinin hansı janrda olduğunu soruşmaq olar.

**Tanış ol** blokunda Karavacco haqqında oxuyub sonra onu təhlil etmək məsləhətdir. Bu bloku oxuyub qurtardıqdan sonra şagirdlər rəssam haqqında bildiklərini şaxələnmə üsulu vasitəsilə verə bilərlər.

**F** **Görkəmli rəssamlara** dair cədvəldə XVII əsr Avropa rəngkarlığında realist istiqamətin əsasını qoymuş, barokko dövrünün ən görkəmli rəssamı Mikelancelo Merizi da Karavacconun həyat xronologiyası verilmişdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Meyvə üzərindəki işığın mənbəyini nümunə üzərində əsaslandırmaq. Hansı işıqlandırma meyvənin formasını daha yaxşı qabardır? Sual ətrafında müzakirə aparılır. Şagird öz seçimini izah etməlidir.

**Yaradıcı fəaliyyət**

**2.** Meyvə, tərəvəz və qabdan ibarət natürmort çəkərkən əşyaları kağız üzərində düzgün yerləşdirmək tapşırılır. Əşyaların üzərinə düşən işığın vəziyyətini və kompozisiya mərkəzini müəyyənləşdirmək lazımdır. Rəsmin ardıcıllıqla təsviri metodikası dərslikdə göstərilmişdir.

**3.** Karavacconun yaradıcılığı haqqında əlavə məlumat toplamaq tapşırılır.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dünyanın görkəmli rəssamı Karavacco və onun əsərini tanıdığını izah edir. | Dünyanın görkəmli rəssamı Karavacco və onun ən məşhur əsərləri haqqında sadə məlumatları şərh edir. | Dünyanın görkəmli rəssamı Karavacco və onun ən məşhur əsərlərini müqayisə və şərh edir. | Dünyanın görkəmli rəssamı Karavacconun yaradıcılığını fərqləndirərək şərh edir. |
| Natürmortun real təsvirində sulu boya, rəngli karandaşlar, pastel tabaşirlərdən çətinliklə istifadə edir. | Natürmortun real təsvrində sulu boya, rəngli karandaşlar, pastel tabaşirlərdən müəllimin köməyilə istifadə edir. | Natürmortun real təsvirində sulu boya, rəngli karandaşlar və pastel tabaşirlərdən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Natürmortun real təsvirində sulu boya, rəngli karandaşlar və pastel tabaşirlərdən sərbəst və düzgün istifadə edir. |
| Natürmortda forma və rəng çalarlarını çətinliklə fərqləndirir. | Natürmortda forma və rəng çalarlarını məntiqə əsasən fərqləndirir. | Natürmortda forma, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə tanıyaraq fərqləndirir. | Natürmortda forma, rəng çalarlarının estetik xüsusiyyətlərini asanlıqla fərqləndirir. |
| Verilmiş nümunədə natürmort janrını tanıyaraq şərh edir. | Təsviri sənətin müxtəlif janrları arasında natürmort nümunələrini qruplaşdıraraq şərh edir. | Müxtəlif janrlara aid əsərlərdən natürmort nümunələrini xarakterik xüsusiyyətlərinə görə seçərək şərh edir. | Natürmort janrını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. |

# 9. AVTOPORTRET

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | naturadan rəsm |
| **Alt-standart:** | | 1.2.1., 1.3.1., 2.1.2., 3.1.2. |
| **Təlim nəticələri:** | | • təsviri sənətin portret janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• dünyanın görkəmli təsviri incəsənət nümayəndəsi Rembrandt və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• avtoportretin real və ya abstrakt təsvirində, sulu boya, pastel tabaşirlər, sadə və rəngli karandaşlardan istifadə edir;<br>• avtoportret janrını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. |
| **Təchizat:** | **Təchizat:** | portret janrında əsərlərdən nümunələr (slayd və ya şəkillər), kompüter, proyektor, praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik sxemi |
| | Şagird üçün: | dərslik, boyalar, qara qələm, pastel tabaşirlər, rəngli karandaşlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərə avtoportret janrının İntibah dövründə inkişaf etdiyini, holland rəngkarlığının qızıl dövründə yaşayıb-yaratmış görkəmli rəssam, qravürçü və işıq-kölgənin mahir ustası kimi tanınan Rembrandt Harmens van Reynin yaradıcılığı haqqında məlumat verməkdir.*




(A) “Motivasiya” mərhələsini tətbiq etmək üçün müəllim dərslikdə verilmiş rəsmlərdən və ya hər hansı bir rəssamın fotosunu və onun çəkdiyi öz şəxsi rəsmini yapışdırır.

– Bu şəkillər haqqında nə deyə bilərsiniz? (Biri rəssamın fotosu, digəri isə onun çəkilmiş portretidir).
– Rəssam portretini özü çəkirsə, bu onun avtoportretidir. Yəni təsvir edənin şəxsi portretinə avtoportret deyilir.

***Tədqiqat sualları:*** *Rembrandt Harmens van Reyn yaradıcılığının əsas xüsusiyyətləri nədir? Avtoportreti necə çəkmək olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

(B) **Xatırla** blokunda verilmiş sual şagirdlərlə birlikdə müzakirə olunur. Müəllim şagirdlərə 6-cı sinifdə keçdikləri təsvir xarakterinə görə portretlərin təntənəli və kameral olduğunu xatırlada bilər.

**C** Şagirdlər dərslikdə verilmiş məzmunla tanış olur, avtoportretin cəmiyyətdə rolu, yaradıldığı təsviri sənət növləri və belə təsvirlər yaradan rəssamlardan biri olan Rembrandt haqqında oxuyurlar.

**D** Rembrandt haqqında məlumatları oxuyub, təhlil etmək məsləhətdir. Bu bloku oxuyub qurtardıqdan sonra şagirdlər rəssam haqqında bildiklərini şaxələnmə üsulu vasitəsilə verə bilərlər.

**E** **Təsviri sənət qalereyası** blokunda verilmiş Rembrandtın avtoportretləri, orada rəssamın özünün təsvir etdiyi daxili aləmi, xarakteri təsvirlər əsasında müzakirə edilir.

**F** **Görkəmli rəssamlar**a dair cədvəldə holland rəssamlarının yaradıcılığına dərin təsir göstərmiş, dünya realist sənətinin inkişafında mühüm rol oynamış Rembrandt Harmens van Reynin həyat xronologiyası verilmişdir.

Hazırda Rembrandtın 80-ə yaxın rəngkarlıq, rəsm və qravüra nümunələri olan avtoportretləri var. Rembrandtın yaradıcılığında portret janrı ilə yanaşı məişət janrı da mühüm yer tutur. Onun ən məşhur əsərlərindən biri "Gecə gözətçiləri" adlanan Amsterdamın könüllü atıcılarına həsr olunmuş portretlərin təsviridir.

Rembrandtın çox incə həm rəngkarlıq, həm də qrafik işlərində işıq və kölgənin oyununu, dramatik və emosional gərgin mühiti görmək mümkündür.





*1. "Gecə gözətçiləri", 1642. Reyksmuzeum, Amsterdam*
*2. "Geniş açılmış gözlərlə avtoportret". 1630. Qravüra. Reyksmuzeum, Amsterdam*

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1. (a)** Avtoportretlərdə rəssamın xarakteri və daxili aləmi haqqında nə demək olar?

**(b)** Əlavə tapşırıq kimi Rembrandtın "Səfil oğulun qayıtması" mövzusu üzrə üç kompozisiya verilir. Onların hansı materiallarla işləndiyini soruşmaq olar.



Ofort. 1636



Rəsm. 1642



Rəngkarlıq.1668-1669

**Yaradıcı fəaliyyət**

**2.** Öz avtoportretini çəkmək tapşırılır. O, rəngli və ya qrafik ola bilər. Şagirdlərə xatırladılır ki, üz simmetriya xəttinə malikdir və onun əyilməsi vərəq (kağız) üzərində başın hərəkətini müəyyənləşdirir.

Şagirdlərə rəsm zamanı izah edin ki, üz üç bərabər hissədən (çənə ilə burun, burun ilə qaşlar arası məsafə və alın) ibarətdir. Fərdi şəkildə avtoportreti çəkdikdən sonra onu ya boyalarla, ya pastel tabaşirlərlə və ya rəngli karandaşlarla rəngləmək məsləhətdir.

**3.** Aplikasiya texnikasında portret yaratmaq tapşırılır. Bu tapşırıq üz hissələri və onun ifadəsinin xarakterin dəyişməsinə necə təsir etdiyini öyrənməyə kömək edəcək.

Şagirdlərdən Rembrandtın yaradıcılığına dair əlavə məlumat toplamaq və təqdimatlar hazırlamaq da tələb oluna bilər.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Rembrandtın əsərləri ilə tanışlıq;
- Təsvir materiallarından düzgün istifadəetmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avtoportret janrında verilmiş nümunəni tanıyaraq şərh edir. | Avtoportret janrında əsərləri bədii ifadə vasitələrinə görə şərh edir. | Avtoportret janrında olan əsərləri forma, məzmun və bədii ifadə vasitələrinə əsasən şərh edir. | Avtoportret janrında olan əsərlərin ideya, forma, məzmun, bədii ifadə vasitələrini şərh edir. |
| Dünyanın görkəmli rəssamı Rembrandt və onun əsərini verilmiş nümunə əsasında tanıyaraq izah edir. | Dünyanın görkəmli rəssamı Rembrandt və onun ən məşhur əsərləri haqqında məlumatları şərh edir. | Dünyanın görkəmli rəssamı Rembrandt və onun ən məşhur əsərlərini fərqləndirərək şərh edir. | Dünyanın görkəmli rəssamı Rembrandtın yaradıcılığını kiçik təqdimatlarla şərh edir. |
| Avtoportretin real və ya abstrakt təsvirində sulu boya, rəngli karandaşlardan istifadə etməkdə çətinlik çəkir. | Avtoportretin real və ya abstrakt təsvirində sulu boya, rəngli karandaşlar, pastel tabaşirlərdən müəllimin köməyilə istifadə edir. | Avtoportretin real və ya abstraskt təsvirində sulu boya, rəngli karandaşlar, pastel tabaşirlərdən istifadə qaydalarını nümayiş etdirir. | Avtoportretin real və ya abstrakt təsvirində sulu boya, pastel tabaşirlər, sadə və rəngli karandaşlardan sərbəst istifadə edir. |

| | | | |
|---|---|---|---|
| Verilmiş nümunədə təsviri sənətin portret janrını tanıyaraq şərh edir. | Müxtəlif janrlarda verilmiş nümunələri qruplaşdıraraq şərh edir. | Avtoportret janrında verilmiş nümunələri xarakterik xüsusiyyətlərinə görə seçərək şərh edir. | Avtoportret janrını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. |

# 10. SÜJETLİ ƏSƏRLƏRDƏ İNSAN OBRAZI

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.2.1., 1.3.1., 2.1.1., 3.1.1. |
| **Təlim nəticələri:** | | |
| **Təchizat:** | Müəllim üçün: | süjetli əsərlər janrında olan nümunələr (slayd və ya şəkillər), kompüter, proyektor, meyarlar cədvəli |
| | Şagird üçün: | dərslik, boyalar, rəngli karandaşlar, flomasterlər, pastel tabaşirlər |

**Təlim nəticələri:**
- məişət janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- dünyanın görkəmli rəssamı İlya Repin və onun əsərləri haqqında məlumatları şərh edir;
- həyati görüntüləri (insan obrazını) məişət janrında real təsvir edir;
- məişət janrında olan əsərlərdə forma, ritm, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir.

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Süjetli əsərlərdə ən başlıca rol insan obrazına məxsusdur. İnsan münasibətləri, əmək fəaliyyəti, gerçək və həyati xarakterlər realist sənətin ən yüksək zirvəsində duran görkəmli rus rəssamı İlya Yefimoviç Repinın yaradıcılığında mühüm yer tutur.*




Ⓐ Müəllim İ.Repinin 3–4 süjetli rəsm əsərinin fotoşəklini asır və soruşur:

– Bu əsərlərdə mövzu nədən ibarətdir? (fərziyyələr).
– Mövzuda başlıca rol kimə məxsusdur? (İnsana).
– Gördüyünüz süjetli əsərlərin müəllifi İ.Repindir. Bu gün onun yaradıcılığı ilə yaxından tanış olacaqsınız.

***Tədqiqat sualları:*** *İlya Yefimoviç Repinin yaradıcılığının əsas xüsusiyyətləri nədir? Zəhmətkeş insan obrazını təsvir etmək üçün hansı ifadə vasitələrindən istifadə etmək olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** blokundakı sual müzakirə olunur. Şagirdlər indiyə kimi yaddaşlarında qalan rəssamların çəkdikləri insan obrazlarını xatırlayırlar.

**C** Süjetli əsərlərdə təsvir olunan əşyalar, onları əhatə edən mühit nə qədər əhəmiyyətli olsa da, burada başlıca rol insana məxsusdur və hər şey onun obrazının açılmasına xidmət edir. Görkəmli rus rəssamı Repinin yaratdığı insan obrazları müxtəlifdir.

**D** Mövzu hissə-hissə oxunub müzakirə olunur. Öncə **Tanış ol,** sonra **Bilirsənmi** bloklarındakı məlumatlar oxunur və müzakirə üçün sual verilir: "Burlaklar Volqada" əsərində insanların üzündə hansı ifadəni görmək olar, hərəkətlərdə nə hiss olunur və s.

**E** **Təsviri sənət qalereyası** blokunda verilmiş Repinin portretlərində insan obrazları təhlil edilir. Şagirdlərin portretlərdəki insanların üz ifadələrinin necə olduğunu müzakirə etmələri məsləhətdir.

– *Portretlərə niyə süjetli rəsm demək olmaz?* (Çünki insanlar heç bir fəaliyyətdə göstərilməyib və süjet yaranmayıb).

**F** **Görkəmli rəssamlar**a dair cədvəldə XIX əsr realist rəssamlığının ən yüksək nailiyyətləri hər bir holland rəssamının yaradıcılığına dərin təsir göstərmiş, dünya realist sənətinin inkişafında mühüm rol oynamış Rembrandt Harmens van Reynin həyat xronologiyası verilmişdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** "Burlaklar Volqada" əsərində perspektiv qanunları və kolorit həllini təhlil etmək tapşırılır. Tapşırıqda verilən sual da müzakirə edilsə məqsədəuyğun olar (Əsərdə insanların uzaqlaşan fiqurları ön plandakılara nisbətən necə təsvir olunmuşdur?).

**Yaradıcı fəaliyyət**

**2.** Kompozisiya mərkəzini, perspektivi və kolorit həllini nəzərə alaraq, süjetli rəsm çəkmək tapşırılır. Şagirdlər zəhmətkeş insanın obrazını təsvir etməyə çalışırlar. Rəsmi qruplarla yerinə yetirmək daha məqsədəuyğundur. Müəllim konkret mövzu da tapşıra, şagirdlər özləri də mövzu seçə bilərlər. Perspektivi verən zaman mütənasiblik də nəzərə alsın (hansı obyekt o birilərinə nisbətdə balacadır, ya böyükdür. Məsələn, ev, adam və s.). İnsan rəsmi çəkərkən, əvvəldə də qeyd edildiyi kimi, müəyyən hərəkətləri vermək üçün şagirdlər bir-birinin hərəkətlərinin eskizini çəksinlər.

**3.** İ.Repinin həyat və yaradıcılığı haqqında əlavə məlumat toplamaq tapşırılır.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualı cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- İ.Repinin əsərləri ilə tanışlıq;
- Təsviretmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Məişət janrında verilmiş nümunəni tanıyaraq şərh edir. | Məişət janrında verilmiş əsərləri bədii ifadə vasitələrinə görə şərh edir. | Məişət janrında olan əsərləri forma, məzmun və bədii ifadə vasitələrinə əsasən şərh edir. | Məişət janrında əsərləri ideya, forma, məzmun, bədii ifadə vasitələrinə görə ətraflı şərh edir. |
| Dünyanın görkəmli rəssamı İ.Repin və onun əsərini tanıdığını izah edir. | Dünyanın görkəmli rəssamı İ.Repin və onun ən məşhur əsərləri haqqında məlumatları şərh edir. | Dünyanın görkəmli rəssamı İ.Repin və onun ən məşhur əsərlərini fərqləndirərək şərh edir. | Dünyanın görkəmli rəssamı İ.Repinin yaradıcılığını kiçik təqdimatlarla şərh edir. |
| Həyati görüntülərin məişət janrında real təsvirində bədii ifadə vasitələrindən səthi istifadə edir. | Həyati görüntülərin məişət janrında real təsvirində üsuldan və bədii ifadə vasitələrindən istifadə edir. | Həyati görüntülərin məişət janrında real təsvirində kompozisiya həllini, üsulları və bədii ifadə vasitələrini müəyyənləşdirərək istifadə edir. | Həyati görüntülərin məişət janrında real təsvirində kompozisiya həllindən, müxtəlif üsullardan və bədii ifadə vasitələrindən sərbəst istifadə edir. |
| Məişət janrında olan əsərlərdə forma və rəng çalarlarını çətinliklə fərqləndirir. | Məişət janrında olan əsərlərdə forma və rəng çalarlarını məntiqə əsasən fərqləndirir. | Məişət janrında olan əsərlərdə forma, ritm, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə tanıyaraq fərqləndirir. | Məişət janrında olan əsərlərdə forma, ritm, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə asanlıqla fərqləndirir. |

# 11. HEYKƏLTƏRAŞLIQDA İNSAN OBRAZI

## Gündəlik planlaşdırmaya dair dərs nümunəsi

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | yapma |
| **Alt-standart:** | | 1.3.1., 2.1.2., 3.1.2. |

**Təlim nəticələri:**

- Azərbaycanın görkəmli heykəltəraşı Mirəli Mirqasımov və onun yaradıcılığı haqqında məlumatları şərh edir;
- "Mənim sevimli qəhrəmanım" mövzusunda portretin real yapılmasında plastilin yaxud gil, yapma üsullarından və alətlərindən istifadə edir;
- təsviri sənətin heykəltəraşlıq növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir.

| | | |
|---|---|---|
| **İnteqrasiya:** | | Az.-d. 1.1.1.; 1.2.1.; 1.2.4.; Az.-t. 4.1.1.; X-d. 1.1.2. |
| **İş formaları:** | | cütlərlə, fərdi |
| **İş üsulları** | | müzakirə, qalereya gəzintisi, esse |
| **Təchizat:** | Müəllim üçün: | portret janrında heykəltəraşlıq nümunələri (slayd və ya şəkillər), praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, plastilin, yaxud gil, yapma alətləri, müstəvi lövhə |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***
*Mövzunun əsas məqsədi şagirdlərin heykəltəraşlıq haqqında biliklərini yada salması və Mirəli Mirəsədulla oğlu Mirqasımovun yaradıcılığı haqqında məlumat toplamasıdır.*




**Dərsin gedişi / MOTİVASİYA**

A Müəllim yazı lövhəsindən müxtəlif büstlərin şəkillərini asır və soruşur:

– Bunlar nədir? (Portret heykəllər – büstlər). Heykəlləri kim yapır? (Heykəltəraşlar). Heykəltəraşlardan kimləri tanıyırsınız? (fərziyyələr).
– Məşhur heykəltəraşlarımızdan biri də Mirəli Mirqasımovdur. Onun yaradıcılığı ilə 3-cü sinifdə tanış olmuşdunuz.

***Tədqiqat sualları:*** *Heykəltəraş M.Mirqasımovun yaradıcılığı haqqında nə bilirsiniz?*
*Sadə portreti hansı qaydalara uyğun yapmaq olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**TƏDQİQATIN APARILMASI**

B **Xatırla** bloku təhlil olunur. Portreti hansı materiallarla yaratmaq müzakirə olunur.

C Şagirdlər yeni mövzu ilə tanış olurlar. Mirəli Mirqasımov haqqında öyrənirlər.

E **Təsviri sənət qalereyası** blokunda verilmiş M. Mirqasımovun heykəl-portretlərində insan obrazları təhlil edilir.

F **Görkəmli rəssamlar**a dair cədvəldə Azərbaycanın Xalq rəssamı Mirəli Mirqasımovun həyat xronologiyası verilmişdir.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Mövzuda heykəltəraşlıq əsərləri verilir. Şagirdlər həmin əsərlərin oxşar və fərqli cəhətlərinin nədə olduğunu deyirlər.

Müəllim şagirdlərə dərsin sonunda *cütlərlə fəaliyyətlərinə əsasən* özlərini qiymətləndirəcəklərini bildirir. Meyarlar isə yazı lövhəsindən asılır.

**2.** Müəllim “Mənim sevimli qəhrəmanım” mövzusunda portreti yapmaq üçün eskiz çəkməyi məsləhət verir. Gil və ya plastilindən qəhrəmanın sadə portret təsvirini yaratmaq tapşırılır. Yapmanın cütlükdə yerinə yetirilməsi məqsədəuyğundur.

**MƏLUMAT MÜBADİLƏSİ**

Hər cütlük yapdığı portretləri yazı lövhəsinin qarşısında olan partanın üzərində düzür. Şagirdlər qalereya gəzintisi üsulu ilə yapmalara diqqətlə baxırlar.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– M.Mirqasımov haqqında nə öyrəndiniz? Portreti hansı ardıcıllıqla yapdınız?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Hansı şəkillərdə büstlər, hansılarda isə monumental abidələr təqdim edilib?
– Heykəl yapmaq üçün daha hansı materiallardan istifadə etmək olar?

## YARADICI TƏTBİQETMƏ

**3.** M.Mirqasımovun yaradıcılığı haqqında əlavə məlumat toplamaq, yaxud bir əsərinə esse yazmaq tapşırıla bilər.

## QİYMƏTLƏNDİRMƏ

Müəllim *dərəcələr üzrə qiymətləndirmədən* istifadə edir.
*Nümunə:*

| **Cütlər** | **Meyarlar** | | | | | **Nəticə** | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **№** | **Mirəli Mirqasımov və onun əsərləri haqqında nə bilir?** | **Portretin yapılmasında forma necə verilib?** | **Təsvir materiallarından necə istifadə edilib?** | **Heykəltəraşlığı digər təsviri sənət növlərindən fərqləndirə bilirmi?** | **Yapma tapşırılan vaxt ərzində yerinə yetirilib?** | **Əla** | **Yaxşı** | **Orta** | **Zəif** |
| ***1-ci*** | + | + | + | + | + | * | | | |
| ***2-ci*** | + | + | + | - | + | | * | | |
| ***3-cü*** | + | - | + | - | + | | | * | |
| ***4-cü*** | + | - | - | - | + | | | | * |
| ***5-ci*** | | | | | | | | | |
| ***6-cı və s.*** | | | | | | | | | |

Burada qiymətlər belə müəyyən edilə bilər:

5 meyar üzrə "+" işarəsi qoymuş şagirdlərin fəaliyyəti "əla", 4 meyar üzrə "+" işarəsi qoymuş şagirdlərin fəaliyyəti "yaxşı", 3 meyar üzrə "+" işarəsi qoymuş şagirdlərin fəaliyyəti "orta", 2 meyar üzrə "+" işarəsi qoymuş şagirdlərin fəaliyyəti isə "zəif" qiymətlərlə qiymətləndirilir.

---

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 2)**
**nümunəsi vəsaitin sonunda verilmişdir.**

# 3. DÖVR, XALQ VƏ GEYİMLƏR




**Avropa sənətkarlığı**

12. Parça, rəng və ornament
13. Avropa baş geyimləri
14–15. Geyimin cəmiyyətdə rolu
16. Rəssam əsərində zadəgan geyimləri

**Azərbaycan sənətkarlığı**

17. Azərbaycan baş geyimləri
18–19. Əsrlərin xəzinəsi: Azərbaycan milli geyimləri
20. Dəb və geyim dizaynı: müasir üslublar

# 12. PARÇA, RƏNG VƏ ORNAMENT

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | | 1.1.1., 2.1.2., 3.1.2. |
| **Təlim nəticələri:**<br>• parçanın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• parçaların real təsvirində boyalar, flomasterlər, rəngli karandaşlar və qələmdən istifadə edir;<br>• dekorativ-tətbiqi sənət növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif parça və naxış nümunələri (slayd və ya şəkillər), praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, boyalar, flomasterlər, rəngli karandaşlar və qələmlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda toxuculuq məmulatı olan parçanın yaranması, hazırlanma üsulları, naxışlanması, istifadəsi və növləri haqqında geniş məlumat verilir. Azərbaycan Qafqazda ən qədim toxuculuq mərkəzlərindən biri olması ilə yanaşı, orta əsrlərdə Şuşa, Naxçıvan, Şəki və Şamaxıda istehsal edilən parçalar Azərbaycandan çox uzaqlarda məşhur idi. Şagirdlər parçaların tərtibatına görə müxtəlif qrup növləri ilə tanış olur, onların dünyanın ən məşhur muzeylərində saxlandıqları haqqında öyrənirlər. Parça xalqın mədəniyyətini əks etdirən elementlərdən biridir. Parçaların naxışı və rəngləri həm bir xalqı başqasından ayırmağa və həm də eyni xalqın içərisində müxtəlif sinfi təbəqələrin nümayəndələrini fərqləndirməyə imkan verirdi.*







**A** "Motivasiya" üçün açar sözlər verilə bilər:

Müəllim soruşur:

– Bu sözlər sizə nəyi xatırladır? (Parçanı).

– Parça haqqında nə bilirsiniz? (fərziyyələr)

– Bu gün dekorativ-tətbiqi sənət sahəsinə aid parçalar haqqında məlumatlarla tanış olacaqsınız.

***Tədqiqat sualları:*** *Parçalar bir-birindən nə ilə fərqlənir? Naxışlı parça nümunəsi çəkmək üçün nələri nəzərə almaq vacibdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** bloku təhlil olunur. Şagirdlər parçaların adlarını söyləyirlər. Geyimlərin hazırlanmasında hansı parçalardan istifadə olunduğu müzakirə edilir.

**C** Parça, onun yaranma tarixi, cəmiyyətdə rolu haqqında dərslikdə verilmiş mətn vasitəsilə şagirdlər yeni informasiya əldə edirlər.

Azərbaycan xalqının qədim sənət və peşələrindən biri toxuculuqdur. Daha doğrusu, bu işlə bağlı olan parça istehsalıdır. Zəngin naxışlı, rəngarəng çeşidli toxumalar – parçalar daim xalq ustalarının bədii fikir və yaradıcı təxəyyülünü özündə əks etdirib, xalqın bədii-estetik tərbiyəsinin inkişafında mühüm rol oynayıb. Eyni zamanda, dövrünün inkişaf tarixini özündə yaşadır.

**D** Müəllim şagirdlərin hər birinə dərslikdəki mövzunun əvvəlcədən çıxarılmış surətini paylayır və onlara tapşırır ki, İQS vasitəsilə mətni aşağıda verilmiş xüsusi işarələrlə oxusunlar:

“+” – yeni informasiyadır; “–” – bildiyimə ziddir; “?” – qarışıq informasiyadır;
“!” – əvvəl bilirdim.

Şagirdlər parçalar haqqında mətni oxuyur və bu işarələrdən ibarət cədvəli qeyd edirlər. Bunun üçün yeni və qarışıq informasiyanı, bildikləri və bilmədiklərini cədvəldə müvafiq hissəyə qeyd edirlər.

Müəllim mətni oxuduqca **Bu maraqlıdır** blokunu da şagirdlərlə müzakirə edir, parçaların xarakteristikası ilə tanış olurlar.

Mətni mənimsəmək üçün BİBÖ cədvəlindən də istifadə etmək olar.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

## **G** Sərbəst iş üçün tapşırıqlar

### Müəyyən et

**1.** Dərslikdə parça şəkilləri verilir. Şagirdlərdən parçaların üzərində hansı naxış növünü və rəng həllinin olduğu soruşulur.

### Yaradıcı fəaliyyət.

**2.** Şagirdlərə öz istəklərinə uyğun parça çəkmək, onun rəng həllini seçmək və naxışlarla bəzəmək tapşırılır. Onlar dərslikdə verilmiş parça rəsmlərinin sxemlərindən istifadə edə bilərlər.

Müəllimin istəyi ilə şagirdləri altı qrupa ayırmaq da olar. Parçaları bəzəmək üçün 1 və 2-ci qruplar müxtəlif dini ifadələr və ya Şərq klassiklərinin rübailəri ilə bəzədilmiş parçalar, 3 və 4-cü qruplar – nəbati və ya həndəsi ornamentlərdən, 5 və 6-cı qruplar isə süjetli rəsmlərdən istifadə edə bilərlər. Beləliklə, onlar Azərbaycan parçalarının öz bədii tərtibatına görə üç böyük qrupa bölünməsini dərk etmiş olarlar.

**3.** Evdə əllərinin altında olan müxtəlif materiallardan kiçik ölçülü xalçanı kollaj üsulu ilə hazırlamaq tapşırılır.

(H) Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.
*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təsviretmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Parçanın insanların həyatındakı əhəmiyyətinə dair bəsit şərh verir. | Parçanın insanların həyat və məişətindəki əhəmiyyətini nümunələr əsasında şərh edir. | Parçaların cəmiyyətin inkişafındakı əhəmiyyətini nümunələr əsasında şərh edir. | Parçanın cəmiyyətin həyatındakı rolunu və əhəmiyyətini nümunələr göstərərək ətraflı şərh edir. |
| Parçaların real təsvirində boyalar, flomasterlər, rəngli karandaşlar və qələmdən müəllimin köməyilə istifadə edir. | Parçaların real təsvirində boyalar, flomasterlər, rəngli karandaşlar və qələmdən çətinliklə istifadə edir. | Parçaların real təsvirində boyalar, flomasterlər, rəngli karandaşlar və qələmdən düzgün istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Parçaların real təsvirində boyalar, flomasterlər, rəngli karandaşlar və qələmdən sərbəst və yerində istifadə edir. |
| Dekorativ-tətbiqi sənət növünü xarakterik xüsusiyyətlərinə görə tanıyaraq şərh edir. | Dekorativ-tətbiqi sənəti digər təsviri sənət növlərindən çətinliklə fərqləndirir. | Dekorativ-tətbiqi sənəti təsviri sənətin digər növlərindən fərqləndirir. | Dekorativ-tətbiqi sənət növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. |

# 13. AVROPA BAŞ GEYİMLƏRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | dekorativ-tətbiqi fəaliyyət / konstruksiya |
| **Alt-standart:** | | 1.1.1., 1.2.2., 2.2.1. |
| **Təlim nəticələri:** • orta əsr baş geyimlərinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir; • orta əsr baş geyimlərini xarakterik xüsusiyyətlərinə görə şərh edir; • orta əsr baş geyimlərinin üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif baş geyimlərinə aid nümunələr (slayd və ya şəkillər), praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, rəngli kağızlar, boyalar, flomasterlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***
*Müxtəlif dövrlərdə geyim dəstinin çox mühüm tərkib hissələrindən biri baş geyimləri olmuşdur. Mövzunun əsas məqsədi – şagirdlərin orta əsr baş geyimləri, onların forma və bəzəkləri haqqında məlumat toplaması və orta əsrlərə aid baş geyimlərindən birinin konstruksiyasını hazırlamaqdır. Orta əsrlərdə və sonrakı dövrlərdə baş geyimləri ilk növbədə bəzək əşyası və var-dövlətin təcəssümü hesab olunurdu. Baş geyimləri həm də insanların fərdi keyfiyyətlərinin ifadəçisinə çevrilirdi.*




**A** "Motivasiya" üçün müəllim dərslikdəki mövzuda olan sualı verə bilər:

– Orta əsrlərdə geyimin ən vacib hissələrindən biri, qoruyucu funksiyaya malik olan nədir? (Baş geyimləri).

Şagirdlərə orta əsrlərə aid baş geyimlərinin şəkillərini də göstərib soruşmaq olar:

– Bunlar nədir? (Baş geyimləri).
– Baş geyimlərinin üzərində nə görürsünüz? (Bəzəklər).
– Onların forması və materialı haqqında nə deyə bilərsiniz? (fərziyyələr).

***Tədqiqat sualları:*** *Orta əsr baş geyimləri və bəzəklər haqqında nə bilirsiniz? Orta əsrlərə aid baş geyimlərinin konstruksiyasını hansı materiallardan və necə hazırlamaq olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** blokundakı sual təhlil olunur. Orta əsrlərdə geniş yayılan baş geyimləri müzakirə edilir.

**C** Dərslikdəki baş geyimi, onun funksiyası, bəzəkləri, forması haqqında məzmunla şagirdlər tanış olurlar.

**D** Müəllim şagirdlərin diqqətini **Tanış ol** blokuna yönəltsə, məqsədəuyğun olar. Sonra **Düşün və izah et** blokunu təhlil edə bilərlər. Mövzudakı şəkillərdə verilən müxtəlif üslublarda olan baş geyimlərinin forma və bəzəklərinin nə ilə fərqləndiyini müzakirə etmələri məsləhətdir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Baş geyimlərinin hazırlanmasında hansı bəzəklərdən istifadə olunduğu soruşulur.

**Yaradıcı fəaliyyət**

**2.** Orta əsrlərə aid baş geyimlərindən birinin konstruksiyasını hazırlamaq tapşırılır. İşin qruplarla yerinə yetirilməsi məsləhətdir. Hər qrupa bir üslubda baş geyimi düzəltməyi tapşırmaq olar. Sinfin səviyyəsindən asılı olaraq bütün qruplara eyni tapşırıq da vermək mümkündür. Dərslikdəki mövzuda verilən konstruksiyaetmənin mərhələlərindən istifadə oluna bilər. Mərhələləri müəllimin özünün də izah etməsi məsləhətdir.

**3.(a)** Orta əsr baş geyimlərinin forma və bəzəkləri haqqında əlavə məlumat toplamaq tapşırılır.

**(b)** Şagirdlərə öz istəklərinə uyğun baş geyiminin variantını fikirləşmək tapşırılır. Əvvəlcə eskizini çəkmək, sonra isə onun konstruksiyasını hazırlamaq təklif olunur.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Təsviretmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Orta əsr baş geyiminin insanların həyatında əhəmiyyətinə dair bəsit şərh verir. | Orta əsr baş geyiminin cəmiyyətdə, insanların həyat və məişətində əhəmiyyətini verilmiş nümunələr əsasında şərh edir. | Orta əsr baş geyiminin cəmiyyətdə rolunu və əhəmiyyətini nümunələr üzərində müqayisə etməklə şərh edir. | Orta əsr baş geyimlərinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr üzərində münasibət bildirərək şərh edir. |
| Orta əsr baş geyiminə aid verilmiş nümunələri suallar əsasında şərh verir. | Orta əsr baş geyiminə aid verilmiş nümunə əsasında səthi şərh edir. | Orta əsr baş geyimlərində istifadə olunan alətləri, materialları, naxış növlərini nümunələr əsasında şərh edir. | Orta əsr baş geyimlərində istifadə olunan alətləri, materialları, milli naxış növlərini fərqləndirərək şərh edir. |
| Orta əsr baş geyimlərinin üzərində tərtibat işini səhvlərlə yerinə yetirir. | Orta əsr baş geyimlərinin üzərində tərtibat işləri yerinə yetirir. | Orta əsr baş geyimlərinin üzərində tərtibat bacarıqları nümayiş etdirir. | Orta əsr baş geyimlərinin üzərində tərtibat və dizayn bacarıqlarını nümayiş etdirir. |

## 14–15. GEYİMİN CƏMİYYƏTDƏ ROLU

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.1.1., 1.2.2., 2.1.2. |
| **Təlim nəticələri:** | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif baş geyimlərinə aid nümunələr (slayd və ya şəkillər), praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, boyalar, flomasterlər, rəngli karandaşlar |

**Təlim nəticələri:**

- cəmiyyətdə geyimin rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;
- müxtəlif geyimləri xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- geyimlərin təsvirində boyalar, flomasterlər, rəngli karandaşlardan istifadə edir.

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərin cəmiyyətdə geyimin rolunu dərk etməsi, bəyəndikləri üslubda olan geyimlərdən birinin eskizini çəkməsi və müxtəlif dövrlərə və xalqlara məxsus geyimlər arasında fərqi anlamasıdır. Geyim dəsti (kostyum) – cəmiyyətdə insanın fərqləndirici əlamətlərindən biri olmaqla yanaşı, onun aid olduğu ölkəni, xalqı, dövrü, cəmiyyətdəki mövqeyini, həmçinin həyat tərzini və peşəsini ifadə etmişdir.*

**Mövzuya 2 tədris saatı verilmişdir. 1-ci saatda dərslikdə verilən mövzu nəzəri cəhətdən mənimsənilir. 2-ci dərsdə isə praktik tapşırıq yerinə yetirilir.**



**1-ci dərs:**

**A** Müxtəlif dövrlərə və üslublara aid geyimlərin fotolarını yazı lövhəsindən asmaq olar. Müəllim sual verə bilər:

– Bunlar nədir? (Geyimlər). Cəmiyyətdə geyimin rolu nədən ibarətdir? (İnsanların bədənini yağışdan, günəş şüalarından və s. qorumaq üçün və s.).
– Gördüyünüz geyimlər bir-birindən nə ilə fərqlənir? (fərziyyələr).

***Tədqiqat sualları:*** *Hər hansı bir üslubda olan geyimin eskizini çəkmək üçün nəyi nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** blokundakı sual təhlil olunur. Qədim dövrlərdən bu günə kimi geyimlərin necə dəyişdiyi, hansı dəyişikliklərin müşahidə olunduğu müzakirə edilir.

**C** Şagirdlər geyimin cəmiyyətdə rolu, funksiyası haqqında məzmunla tanış olurlar. Müxtəlif xalqların mədəniyyətinin inkişafında heç bir əşya geyim kimi çoxsaylı forma və funksiya müxtəlifliyinə malik olmayıb.

**D** Şagirdlər **Bilirsənmi, Tanış ol** blokları haqqında da məlumat toplayırlar.

Yeni mövzunun bloklarla oxunub müzakirə olunması məsləhətdir. Şagirdlər mövzu ilə “Ziqzaq” üsulundan da istifadə edərək tanış ola bilərlər. Müəllim “Ekspert” qruplarının hərəsinə mövzudan seçərək bir geyim üslubu haqqında məlumat toplamağı tapşıra bilər (məsələn, 1-ci “Ekspert” qrupu antik üslub, 2-ci “Ekspert” qrupu Bizans üslubu, 3-cü “Ekpert” qrupu roman, 4, 5, 6-cı “Ekspert” qrupları isə qotik, İntibah, barokko və rokoko üslubları haqqında məlumat toplaya bilərlər).

**2-ci dərs:**

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** İstənilən üsluba aid geyim və memarlıq nümunələrində ümumi əlamətlərin nədən ibarət olması soruşulur. Aşağıdakı fikri tamamlamaq tapşırılır.

**Fikri tamamla:** *Hər bir tarixi dövrdə cəmiyyətin inkişafında özünəməxsus üslublar yaranmışdır ki, bu da memarlıq və geyimdə daha dolğun əks olunmuşdur.*

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə bəyəndikləri üslubda olan geyimlərdən birinin eskizini çəkmək tapşırılır. Təklif olunur ki, geyimin səciyyəvi əlamətlərini təsvir edərək göstərməyə çalışsınlar.

Təsvir üçün şagirdləri qruplara ayırıb, hər qrupa bir üslubda geyim çəkmək də tapşırılsa, məqsədəuyğun olar. Müəllim isə hərəsinə bir üslubu çəkməyi tapşırsa, daha səmərəli olar. Bu zaman dərslikdəki şəkillərdən istifadə edə bilərlər.

**3.** Müxtəlif dövrlərə və xalqlara məxsus geyimlər haqqında əlavə məlumatlar toplamaq tapşırılır.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

Dərsin sonunda müəllim ümumiləşdirmə apara bilər:

– Geyimin rolu nədən ibarət oldu? (Məsələn, geyim insanın ictimai və ailə vəziyyətini, onun əmək fəaliyyətinin xarakterini və məişətini əks etdirir. Geyim xalqın mədəni və iqtisadi əlaqələri, onun estetik idealları və adətləri haqqında təsəvvür yaradır).

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Müxtəlif materiallardan istifadəetmə;
- Təsviretmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Geyimin insanların həyatında əhəmiyyətinə dair bəsit şərh verir. | Geyimin cəmiyyətdə, insanların həyat və məişətində əhəmiyyətini şərh edir. | Cəmiyyətdə geyimin rolunu və əhəmiyyətini nümunələr əsasında müqayisə etməklə şərh edir. | Cəmiyyətdə geyimin rolunu və əhəmiyyətini nümunələr əsasında fərqləndirərək ətraflı şərh edir. |
| Geyimlərə aid verilmiş nümunəyə səthi şərh verir. | Müxtəlif geyimlərdə istifadə olunan alətləri, materialları və naxış növlərini tanıyaraq şərh edir. | Geyimlərdə istifadə olunan alətləri, materialları, milli naxış növlərini fərqləndirərək şərh edir. | Geyimləri xarakterik xüsusiyyətlərinə görə ətraflı şərh edir. |
| Geyimlərin təsvirində boyalar, flomasterlər, rəngli karandaşlardan istifadə etməkdə çətinlik çəkir. | Geyimlərin təsvirində boya, flomaster, rəngli karandaşlardan müəllimin köməyilə istifadə edir. | Geyimlərin təsvirində boyalar, flomasterlər, rəngli karandaşlardan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Geyimlərin təsvirində boyalar, flomasterlər və rəngli karandaşlardan sərbəst istifadə edir. |

## 16. RƏSSAM ƏSƏRİNDƏ ZADƏGAN GEYİMLƏRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | | 1.2.2.; 1.3.1.; 2.1.1.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• geyimləri xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• dünyanın görkəmli rəssamı Velaskes və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• geyim modellərinin eskizini real və abstrakt təsvir edir;<br>• geyimlərdə milli-üslubi cəhətləri (forma, ritm, rəng çalarları) estetik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif rəssamların əsərlərində geyimlərə aid nümunələr (slayd və ya şəkillər), praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, A4, rəngli karandaşlar, flomasterlər, rəngli kağızlar, karton, müxtəlif parça kəsikləri, moda jurnalı. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda orta əsrlərdə rəssamların yaratdığı portretlərdə geyimlərin çox əhəmiyyətli məlumatlar verdiyi barədə söhbət açılır. Belə rəssamlardan biri də dahi ispan rəssamı Dieqo Velaskesdir. Şagirdlər rəssamın həyat və yaradıcılığı haqqında məlumatlarla, ən məşhur əsərləri ilə tanış olurlar.*




(A) Müəllim orta əsrə aid rəssam əsərlərində portret şəkillərini yazı lövhəsindən asır:

– Gördükləriniz haqqında nə deyə bilərsiniz? (Rəssam əsərləri, portretlər).
– Portret əsərlərində ən çox diqqəti cəlb edən nədir? (Geyim, insanın zahiri görünüşü, orta əsrə aid dəb, sifətin ifadələri və s.).
– Geyim insan həyatında hansı rolu oynayır? (fərziyyələr).

***Tədqiqat sualları:*** *Dieqo Velaskesin əsərlərinin əsas xüsusiyyətləri nədir? Geyim modellərinin eskizini çəkmək üçün nələri bilmək vacibdir?*

Şagirdlərin fərziyyələri dinlənilir.

(B) **Xatırla** bloku müzakirə olunur. Xarici görünüşünə görə insanların peşəsini necə müəyyən etmək araşdırılır. Şagirdlər misallar gətirirlər.

(C) Şagirdlər dərslikdə verilmiş orta əsrlərdə yaşamış insanların zahiri və dəbdəbəli görünüşü, geyimlərində bahalı parçalar, qiymətli bəzək əşyaları müşahidə olunan portret təsvirləri müzakirə edirlər.

(D) Yeni mövzu ilə tanış olmaq üçün mövzu bloklara uyğun fasilələrə ayrılır və fasilələrlə oxu üsulundan istifadə edilir.

Müəllim bu dərsdə dəyirmi masa (karusel) üsulundan da istifadə edə bilər. Bu üsul şagirdlərin indiyə kimi öyrəndikləri rəssamlar haqqında bilikləri təkrarlamağa kömək edər. Məsələn, şagirdləri dörd qrupa ayırmaq məsləhətdir. Sonra 4 vərəq götürüb hər birinə bir rəssamın adı yazıla bilər: *Diyeqo Velaskes, İlya Repin, Rembrandt, Karavacco.* Hər vərəq bir qrupa verilir. Qruplar onlara verilən rəssam haqqında bir cümlə yazıb digər qrupa ötürürlər. O qrup da həmin rəssam haqqında öz bildiyini yazır. Sonda hər rəssam haqqında qruplar tərəfindən yazılmış məlumat toplanır və oxunur. Müəllimin istəyilə rəssamların adları dəyişdirilə də bilər.

(E) **Təsviri sənət qalereyası** blokunda verilmiş Velaskesin portretlərində insan obrazları, saray geyimləri təhlil edilir. Şagirdlərin portretlərdəki kral yaxınlarının təntənəli geyimləri və hərəkətlərinin təmkinli gözəlliyi, interyerin əzəməti barədə müzakirə etmələri məsləhətdir.

(F) **Görkəmli rəssamlar**a dair cədvəldə XVII əsr realist rəssamlığının, ispan barokkosu-

nun məşhur nümayəndələrindən olan Dieqo Rodriqes de Silva Velaskesin həyat xronologiyası verilmişdir.

**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Dəb (moda) necə dəyişmişdir sualına cavab tapırlar.

**Yaradıcı fəaliyyət**

**2.** Orta əsr və müasir, kişi, yaxud qadın geyimləri üçün eskiz modelləri hazırlamaq tapşırılır. Geyimin kompozisiya həllini (siluet, nisbət, rəng) düzgün yerinə yetirməyə çalışmaq məsləhət görülür. Bu zaman şagirdlərə **Sənətkar məsləhəti** blokunu oxutdurun və təhlil edin. Eskizi orada göstərilən mərhələlərə uyğun çəksələr, daha məqsədəuyğun olar.

**3.** Dieqo Velaskesin bədii yaradıcılığı haqqında əlavə məlumat toplamaq və təqdimat etmək tapşırılır.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Məlumatvermə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Geyimləri müəllimin köməyi ilə səthi şərh edir. | Geyimlərdə istifadə olunan materialları, naxış növlərini verilmiş nümunələr əsasında tanıyaraq şərh edir. | Geyimlərdə istifadə olunan alətləri, materialları, milli naxış növlərini fərqləndirərək şərh edir. | Geyimləri xarakterik xüsusiyyətlərinə görə ətraflı şərh edir. |
| Dünyanın görkəmli rəssamı Velaskes və onun əsərləri haqqında məlumatları çətinliklə şərh edir. | Dünyanın görkəmli rəssamı Velaskes və onun ən məşhur əsərləri haqqında məlumatları şərh edir. | Dünyanın görkəmli rəssamı Velaskes və onun ən məşhur əsərlərini fərqləndirərək şərh edir. | Dünyanın görkəmli rəssamı Velaskes və onun əsərləri haqqında məlumatları kiçik təqdimatlarla şərh edir. |
| Geyim modellərinin eskizini real və abstrakt təsvir edəndə çətinlik çəkir. | Geyim modellərinin eskizini suallar əsasında real və abstrakt təsvir edir. | Geyim modellərinin eskizini real işləyir, abstrakt təsvir edəndə kiçik səhvlər edir. | Geyim modellərinin eskizini sərbəst olaraq real və abstrakt təsvir edir. |
| Geyimlərdə milli-üslubi cəhətləri (forma, ritm, rəng çalarları) çətinliklə fərqləndirir. | Geyimlərdə milli-üslubi cəhətləri (forma, ritm, rəng çalarları) suallara əsasən fərqləndirir. | Geyimlərdə milli-üslubi cəhətləri (forma, ritm, rəng çalarları) estetik xüsusiyyətlərinə görə tanıyaraq fərqləndirir. | Geyimlərdə milli-üslubi cəhətləri (forma, ritm, rəng çalarları) estetik xüsusiyyətlərinə görə asanlıqla fərqləndirir. |

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 3) nümunəsi vəsaitin sonunda verilmişdir.**

# 17. AZƏRBAYCAN BAŞ GEYİMLƏRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | | 1.1.1., 1.2.2., 2.2.1. |
| **Təlim nəticələri:**<br>• Azərbaycan baş geyimlərinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• Azərbaycan baş geyimlərini xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• kəlağayı üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif baş geyimlərinə aid nümunələr (slayd və ya şəkillər), praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, boyalar, flomasterlər, rəngli karandaşlar, rəngli kağızlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərin baş geyimlərinin insanların həyatında və cəmiyyətdə əhəmiyyətini dərk etməsi və kəlağayının rəsmini çəkməsidir.*




**A** "Motivasiya" mərhələsi üçün anlayışın çıxarılması üsulundan istifadə etmək məsləhətdir. Müəllim bu sözlərin onlara nəyi xatırlatdığını (baş geyimlərini) soruşa bilər.




Tapmacalardan da istifadə etmək olar. Məsələn:

*Almışam atandan,* *Qu tükündən yüngül,*
*Gəncədə satandan.* *Qırağı qızılgül.* *(Kəlağayı)*

***Tədqiqat sualları:*** *Baş geyimlərinin insanların həyatında və cəmiyyətdə nə əhəmiyyəti var? Yaş xüsusiyyətini nəzərə alaraq kəlağayının rəsmini hansı təsvir vasitələri ilə və necə çəkmək olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırla** blokunda verilən suala müraciət olunur. Azərbaycanda hansı baş geyimlərinin məşhur olduğu müzakirə edilir.

C Yeni mövzunu mənimsəmək üçün müəllim BİBÖ üsulunu tətbiq edə bilər.

Müəllim yazı lövhəsində cədvəlin öncə BİB hissəsini çəkir. 3-cü "Öyrəndim" hissəsinə isə toxunmur.

| Bilirik | İstəyirik bilək | Oyrəndik |
|---|---|---|
| | | |

Müəllim sinifdən Azərbaycan baş geyimləri haqqında bildiklərini soruşub cədvəlin 1-ci "Bilirik" hissəsinə yazır. Sonra bu haqda nə öyrənmək istədiklərini soruşur və meydana gələn sualları cədvəlin "İstəyirik bilək" hissəsinə yazır. Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Müəllim onlardan dərslikdən nə öyrəndikləri barədə soruşur. Sonra cədvəlin 3-cü hissəsinə "Öyrəndik" sözünü əlavə edir və oraya şagirdlərin əlavə öyrəndiklərini yazır.

D Şagirdlərin diqqəti **Tanış ol** blokuna yönəldilir. Onlar Azərbaycan kişi və qadın baş geyimlərinin forması və adları ilə tanış olurlar.

Mövzu müzakirə yolu ilə də öyrənilə bilər.

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Baş geyimlərinin hazırlanmasında hansı materiallardan istifadə olunduğu soruşulur.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə yaş xüsusiyyətini nəzərə alaraq kəlağayının rəsmini dərslikdəki mövzuda verilən nümunəyə əsasən çəkmək tapşırılır. Müəllim verilən nümunəni izah edə bilər. Rəsm qruplarda və ya cütlükdə yerinə yetirilsə məsləhətdir.

**3. (a).** İstədikləri kişi baş geyiminin konstruksiyasını hazırlamaq tapşırılır.

**(b)**. Azərbaycanın baş geyimlərinin forma və hazırlandığı materiallar, naxışlar haqqında əlavə məlumat toplamaq tələb olunur.

Müəllim şagirdlərin səviyyəsinə uyğun olaraq iki tapşırıqdan birini seçib yerinə yetirməyi tapşıra bilər.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycan baş geyiminin insanların həyatında əhəmiyyətinə dair bəsit şərh verir. | Azərbaycan baş geyiminin cəmiyyətdə, insanların həyat və məişətindəki əhəmiyyətini şərh edir. | Azərbaycan baş geyiminin cəmiyyətdə rolunu və əhəmiyyətini nümunələr əsasında müqayisə və şərh edir. | Azərbaycan baş geyimlərinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında fərqləndirərək ətraflı şərh edir. |
| Verilmiş nümunələr əsasında Azərbaycan baş geyimləri haqqında səthi şərh verir. | Azərbaycan baş geyimlərində istifadə olunan materialları, naxış növlərini tanıyaraq şərh edir. | Azərbaycan baş geyimlərində istifadə olunan alətləri, materialları, milli naxış növlərini fərqləndirərək şərh edir. | Azərbaycan xalqının baş geyimlərini xarakterik xüsusiyyətlərinə görə ətraflı şərh edir. |
| Kəlağayı üzərində tərtibat işini səhvlərlə yerinə yetirir. | Kəlağayı üzərində tərtibat işini səliqəsiz yerinə yetirir. | Kəlağayı üzərində tərtibat bacarıqları nümayiş etdirir. | Kəlağayı üzərində müxtəlif material və üsullardan istifadə etməklə tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |

## 18–19. ƏSRLƏRİN XƏZİNƏSİ: AZƏRBAYCAN MİLLİ GEYİMLƏRİ

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.1.1., 1.2.1., 1.2.2., 2.1.1. |
| **Təlim nəticələri:** | | |
| **Təchizat:** | Müəllim üçün: | Azərbaycan milli geyimlərinə aid nümunələr (slayd və ya şəkillər), praktik işin ardıcıllığını əks etdirən nümunə, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, boyalar, flomasterlər, rəngli karandaşlar |

**Təlim nəticələri:**
- Azərbaycan milli geyimlərinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;
- məişət janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- Azərbaycan milli geyimləri xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- Azərbaycan milli geyimlərini, insanların məişətini real təsvir edir.

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***
*Mövzuda şagirdlər Azərbaycanın milli geyimlərinin müxtəlif tarixi-etnoqrafik bölgələrinə görə ayrıldığını, onların müəyyən əlamətlərinə görə insanın yaşı, peşəsi və sosial vəziyyəti müəyyən olunduğu haqqında məlumat alır. Xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xüsusiyyətləri öz əksini geyimlərdə tapır.*
*Geyimin üslubu onun yiyəsinin ailə vəziyyətini və yaşını əks etdirirdi. Subay qızların geyimləri evli qadınların geyimlərindən fərqlənirdi. Cavan qızlar daha parlaq və qəşəng geyinirdilər. Kişi və qadın geyimləri Azərbaycanın bütün etnik, tarixi zonalarında, demək olar ki, eyni idi. Uşaq geyimi öz forması ilə böyük geyimi ilə eyni idi və onlardan yalnız bəzi xüsusiyyətləri və ölçüsü ilə fərqlənirdi*
**Mövzuya 2 tədris saatı verilmişdir. 1-ci saatda dərslikdə verilən mövzu nəzəri cəhətdən mənimsənilir. 2-ci dərsdə isə praktik tapşırıq yerinə yetirilir.**




**1-ci dərs:**

A "Motivasiya" mərhələsində mövzunun adını almaq üçün krossvorddan istifadə etmək olar.

| | | | | |
|---|---|---|---|---|
| | 2. A | | | |
| | K | | | |
| | V | | | |
| | A | 3. B | | |
| | R | O | | |
| 1. G | E | Y | 4. İ | 5. M |
| İ | L | A | L | O |
| L | | | M | Z |
| | | | Ə | A |
| | | | | İ |
| | | | | K |
| | | | | A |

1. Saxsı qabların materialı (Gil).
2. Sulu boyalardan biri (Akvarel) .
3. Quaş, akvarel nədir? (Boya).
4. Toxuculuq sənətində ipliyin hörülən düyünü (İlmə).
5. Dekorativ-tətbiqi sənətin sahəsi (Mozaika).

Müəllim soruşur:

– 1 rəqəmi yazılan üfüqi sütunda hansı söz alındı? (Geyim).
– Mövzumuz milli geyimlər haqqındadır.

***Tədqiqat sualları:*** *Azərbaycanın kişi və qadın milli geyimlərinin tarixi-etnoqrafik bölgələrə əsasən dəyişməsi haqqında nə deyə bilərsiz? İnsanların milli geyimlərini, məişətini özündə əks etdirən süjetli kompozisiyada nələri nəzərə almaq lazımdır?*
Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** blokunda verilən sual müzakirə edilir. Milli geyimlərin hansı hissədən ibarət olduğunu şagirdlər müzakirə edir.
**C** Şagirdlər yeni mövzu ilə tanış olurlar. Azərbaycan milli geyim məktəbi, əsasən, XVI–XVII əsrlərdə yaranmış və xalqımızın tarixi ilə sıx bağlı olmuşdur. O zamanlar insanların iqtisadi və sosial vəziyyətindən asılı olaraq, milli geyimlər fərqli olurdu. Bu vaxt mövzuda olan ayrı-ayrı bloklar da təhlil edilir.
**D** **Tanış ol** blokunda şagirdlər Azərbaycanın müxtəlif tarixi-etnoqrafik bölgələrinin milli geyimləri ilə tanış olurlar.
Müəllim şagirdləri qruplara ayırır və partalarının üzərinə dərslikdə verilən bir geyimin surətini qoyur. Sonra hərəsinə bir kub verir və onlar kubun tərəflərini təhlil edirlər.
Kub (kiçik, yaxşı olar ki, tili 15-20 sm olsun) kağızdan hazırlanır. Kubun hər üzünə verilən altı qısa göstəriş olur:

1. ***Təsvir edin:*** Milli geyimin şəklinə yaxından nəzər salırlar və gördüklərini rənglər, formalar, ölçülər və s. də daxil olmaqla təsvir edirlər.
2. ***Müqayisə edin:*** O nəyə oxşayır? Nədən fərqlidir?
3. ***Əlaqələndirin:*** O, şagirdləri nə barədə düşünməyə vadar edir? Nəyi xatırladır?
4. ***Təhlil edin:*** Onun necə düzəldiyini söyləyirlər. Dəqiq bilmələri vacib deyil, özlərindən fikirləşə bilərlər.
5. ***Tətbiq edin:*** O necə istifadə oluna bilər?
6. ***Lehinə, yaxud əleyhinə müqayisə edin:*** Əvvəlcədən öz mövqelərini müəyyən edirlər. İstədikləri kimi məntiqli dəlillərdən istifadə edirlər.




Yazı müddəti bitdikdən sonra şagirdlər kubun hər üzünə dair fikirlərini bölüşürlər.
**G** **Sərbəst iş üçün tapşırıqlar**
**1-ci dərsdə Müəyyən et blokundakı 1 (a) və (b) tapşırıqları yerinə yetirilir.**
**Müəyyən et**
**1. (a).** Mövzuda verilmiş şəkillərdə insanların cəmiyyətdə tutduğu mövqe və peşəsinin nədən ibarət olduğu soruşulur.

**(b).** Azərbaycanın müxtəlif bölgələrinin milli geyimləri haqqında əlavə məlumatlar toplamaq tapşırılır. Cədvəli albomda çəkmək, verilmiş bölgələrin xarakterik xüsusiyyətlərini qeyd edərək müqayisə etmək təklif olunur. Məsələn:

| ***Regionlar*** | ***Geyim növləri*** | ***Geyinilən fəsil*** | ***Parçalar*** | ***Naxışlar*** |
|---|---|---|---|---|
| *Bakı* | *Yun corablar, çuxa, eşmək və s.* | *Payız, qış, yaz* | *Yun, ipək, atlas, zərbaf, dəri və s.* | *Nəbati, həndəsi* |
| *Qarabağ* | | | | |
| *Naxçıvan* | | | | |
| *Gəncə* | | | | |
| *Qazax* | | | | |
| *Şamaxı* | | | | |
| *Şəki* | | | | |

**2-ci dərs:**

**Yaradıcı fəaliyyət**

**2.** Qədim dövrdə yaşamış insanların milli geyimlərini, məişətini özündə əks etdirən süjetli rəsm çəkmək tapşırılır. Şagirdlər 1-ci dərsdə milli geyimlər haqqında yetərincə məlumat topladıqları üçün bu süjetli rəsmi çəkmək asan olar. Onlar, sadəcə, süjet xətti fikirləşməli olacaqlar.

Kompozisiya haqqında bilikləri yada salmaq vacibdir. Belə ki, yaxında kiçik, uzaqda isə böyük obyektləri yerləşdirmək, perspektivi, mütənasibliyi, kontrastlığı nəzərə almağı xatırlatmaq olar. Rəsmi qruplarda, cütlərlə yerinə yetirmək məqsədəuyğundur.

**3.** Milli geyimlərin xüsusiyyətlərini – rəng, ornament, formanı nəzərə alaraq, müasir kişi və ya qadın geyim dəsti çəkmək tapşırılır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə (milli geyimlərin rolunu və əhəmiyyətini, xarakterik xüsusiyyətlərini; məişət janrını);
- Təsviretmə.

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Milli geyimin insanların həyatında əhəmiyyətinə dair bəsit şərh verir. | Milli geyimin cəmiyyətdə, insanların həyat və məişətindəki əhəmiyyətini şərh edir. | Milli geyimin cəmiyyət həyatında rolunu və əhəmiyyətini müqayisə edərək, nümunələr əsasında şərh edir. | Milli geyimlərin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir. |
| Məişət janrında verilmiş nümunəni suallar vasitəsilə tanıyaraq şərh edir. | Məişət janrında əsərləri bədii ifadə vasitələrinə görə şərh edir. | Məişət janrında olan əsərləri forma, məzmun və bədii ifadə vasitələrinə görə şərh edir. | Nümunələr əsasında məişət janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Verilmiş nümunələr əsasında milli geyimlərə dair səthi şərh verir. | Milli geyimlərdə istifadə olunan materialları, naxış növlərini tanıyaraq şərh edir. | Azərbaycan milli geyimlərində istifadə olunan alətləri, materialları, milli naxış növlərini fərqləndirərək şərh edir. | Azərbaycan milli geyimlərini xarakterik xüsusiyyətlərinə görə ətraflı şərh edir. |

| | | | |
|---|---|---|---|
| Azərbaycan milli geyimlərini, məişətini özündə əks etdirən real təsvirdə bədii ifadə vasitələrindən səthi istifadə edir. | Azərbaycan milli geyimlərini, məişətini özündə əks etdirən real təsvirdə üsullardan və bədii ifadə vasitələrindən istifadə edir. | Azərbaycan milli geyimlərini, məişətini özündə əks etdirən real təsvirdə kompozisiya həllini, üsulları və bədii ifadə vasitələrini müəyyən edir. | Azərbaycan milli geyimlərini, insanların məişətini real təsvir edir, ideya, məzmun və kompozisiya həllini əlaqələndirir. |

## 20. DƏB VƏ GEYİM DİZAYNI: MÜASİR ÜSLUBLAR

### Gündəlik planlaşdırmaya dair dərs nümunəsi

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.1.1., 1.2.2., 2.1.2. |
| **Təlim nəticələri:**<br>• modanın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• müasir üslubda geyimləri xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• müasir üslubda geyimlərin real və abstrakt təsvirində qələmlər, flomasterlər, rəngli karandaşlar, pastel tabaşirlərdən istifadə edir. | | |
| **İnteqrasiya:** | | Az.-d. 1.1.2.; 2.1.3.; Az.-t. 1.3.1.; Ə. 1.2.4.; Tex. 1.3.3. |
| **İş formaları:** | | qrupla, kollektiv |
| **İş üsulları:** | | müzakirə; ziqzaq; suallar, təkliflər və təriflər |
| **Təchizat:** | Müəllim üçün: | müasir geyim nümunələri haqqında (slayd və ya şəkillər), kompüter, proyektor, meyarlar cədvəli |
| | Şagird üçün: | dərslik, qələmlər, flomasterlər, rəngli karandaşlar, pastel tabaşirlər |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzuda şagirdlər moda aləmi, müasir moda üslubları ilə tanış olurlar. Hazırda çox sayda müasir moda üslubları mövcuddur. Uzun müddət dəyişməz qalan ənənəvi – klassik, romantik və idman üslubları haqqında maraqlı məlumatlar təqdim olunmuşdur.*






## Ⓐ Dərsin gedişi / MOTİVASİYA

Müəllim yazı lövhəsindən klassik, romantik, idman üslublarında olan geyim şəkilləri asır və soruşur?

– Şəkillərdə gördüyünüz insanların geyimi haqqında nə deyə bilərsiniz? (Müasirdir).
– Geyimlər bir-birindən nə ilə fərqlənir? (fərziyyələr).

“Motivasiya” mərhələsini krossvordlarla da aparmaq olar. Şagirdləri üç qrupa ayırıb hər birinə bir üslubu xarakterizə edən krossvord vermək olar. Məsələn:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | *4.* H | | | |
| | | *3.* T | Ə | | | |
| | | Ə | N | | | |
| | | K | D | | *6.* A | |
| | *2.* İ | R | Ə | | B | |
| ***1.* K** | **L** | **A** | **S** | ***5.* S** | **İ** | ***7.* K** |
| O | M | R | İ | O | D | O |
| N | Ə | | | Y | Ə | L |
| T | | | | U | | O |
| R | | | | Q | | R |
| A | | | | | | İ |
| S | | | | | | T |
| T | | | | | | |

*1. Rənglərin kəskin fərqi (Kontrast). 2. Xalçalarda ipliyin hörülən düyünü (İlmə).*
*3. Ritm (Təkrar). 4. Naxış növü (Həndəsi).*
*5. Göy, bənövşəyi, yaşıl və onların çalarları hansı rənglərə aiddir (Soyuq).*
*6. Ölkənin, xalqın mədəni irsi (Abidə). 7. Rəsmlərdəki rəng uyğunluğu (Kolorit).*

Müəllim soruşur:

– 1 rəqəmi yazılan üfüqi sütunda hansı söz alındı? (Klassik).
– Bu, müasir geyim üslublarından biridir.

Digər qruplar üçün də belə səpgidə krossvord hazırlamaq olar.

***Tədqiqat sualları:** Moda və müasir üslublar haqqında nə bilirsiniz? İstədiyiniz üslubda geyimin eskiz və ya qaralamasını çəkmək üçün nələr nəzərə alınmalıdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

## TƏDQİQATIN APARILMASI

Ⓑ **Xatırla** blokunda verilən sual müzakirə edilir.

Ⓒ Şagirdlər dərslikdə verilmiş moda aləmi, onun cəmiyyətdə rolu, modelyerlərin öz kolleksiyalarında daha çox üstünlük verdiyi üslublar haqqında məlumatı oxuyurlar.

**D** Şagirdlər yeni mövzu ilə "ziqzaq" üsulu vasitəsilə tanış ola bilərlər. "Ekspert" qruplarının hər birinə mövzudan bir geyim üslubu haqqında öyrənmək tapşırıla bilər. Məsələn, 1-ci "Ekspert" qrupu mövzunun əvvəlindəki hissəni, 2-ci "Ekspert" qrupu klassik, 3-cü "Ekspert" qrupu romantizm, 4-cü "Ekspert" qrupu isə idman üslubu haqqında olan hissələri öyrənə bilərlər. Müəllim "Ekspert" qruplarına suallar da hazırlaya bilər. Məsələn: İdman üslubu klassik üslubdan nə ilə fərqlənir? İdman və romantizm üslubları arasında hansı oxşarlıq var? Və s.

**G** Mövzunu mənimsədikdən sonra müəllim şagirdlərə yaxın üslubda geyimin eskiz və ya qaralamasını çəkməyi tapşırır. Xatırladır ki, nümunələrdə olduğu kimi kişi və ya qadın geyimlərinin xarakterik cəhətlərini göstərməyi unutmasınlar.

Müəllim sinfin səviyyəsini nəzərə alaraq onları qruplara ayırıb hərəsinə bir üslubu çəkməyi tapşıra bilər. Mövzuda verilən şəkillərə əsasən hər bir geyim üslubunun əsas əlamətləri və funksiyalarının nədə olduğu təhlil edilir.

Müəllim dərsin sonunda şagirdlərin *özünü dərəcələr üzrə qiymətləndirəcəyini* xatırladır və meyarları yazı lövhəsindən asır.

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar rəsmlərini yazı lövhəsinə bərkidir, onlar haqqında danışırlar.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Təriflər, suallar, təkliflər üsulundan istifadə ilə rəsmlər təhlil edilir.

## H ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Müasir geyimlər orta əsrlərdən qalma hansı ümumi cəhətləri özündə daşıyır?
– Müasir geyim üslublarından daha hansıları haqda məlumatınız var?

## YARADICI TƏTBİQETMƏ

Mövcud olan digər üslublar haqqında məlumat toplamaq tapşırılır.

## QİYMƏTLƏNDİRMƏ

*Dərəcələr üzrə qiymətləndirmə* aparılır.

| № | Meyarlar | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Tapşırığa necə əməl etmişik? | + | + | – | – |
| 2. | Geyimin xarakterik xüsusiyyətlərini nə dərəcədə nəzərə almışıq? | + | + | + | + |
| 3. | Modanın cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında necə şərh etmişik? | + | + | + | – |
| 4. | Geyimin hissələri arasında fərqi, mütənasibliyi necə vermişik? | + | – | – | – |
| 5. | Təsvir materiallarından necə istifadə etmişik? | + | + | + | + |
| 6. | Təsviri tapşırılan vaxt ərzində yerinə yetirdikmi? | + | + | + | – |

---

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 4)**
**nümunəsi vəsaitin sonunda verilmişdir.**

# 4. DEKORATİV-TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN




21. Əl ilə yaradılan möcüzələr
22. Naxışlarda əbədiləşən həyat
23. Zaman və qablar
24–25. Mebeldə dizayn və dekor
26. İnteryerin dizaynı
27. Dünya muzeyləri

# 21. ƏL İLƏ YARADILAN MÖCÜZƏLƏR

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | | 1.1.1., 1.2.2. |
| **Təlim nəticələri:**<br>• əl ilə hörülən əşyaların cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• dekorativ sənət növlərindən olan bədii hörməni xarakterik xüsusiyyətlərinə görə şərh edir. | | |
| **Təchizat:** | Müəllim üçün: | Əl ilə hörmə və toxuma işlərinə aid nümunələr, (slayd və ya şəkillər), kompüter, proyektor, iş vərəqləri, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, rəngli kağızlar, karton, iplər (kəndir), qamış, lent |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərə dekorativ-tətbiqi sənət növləri arasında çox qədim zamanlardan mövcud olan hörmə sənəti, əl ilə yaradılan əşyalar haqqında məlumat verməkdir.*




**A** Müəllim yazı lövhəsindən hörmə üsulu ilə olan müxtəlif səbətlərin, ayaqqabı, dolça və s. əşyaların şəkillərini asır və soruşur:

– Bunlar necə və nə ilə hazırlanmışdır? (Qamışdan, iplərdən (kəndirdən), ağac budaqlarından əl ilə hazırlanmışdır). Bu gün dərsimiz əl ilə yaradılan möcüzələrdir.

***Tədqiqat sualları:*** *Əl ilə hörülən əşyalar haqqında nə bilirsiniz? Müxtəlif materiallar vasitəsilə hörmə üsulu ilə kiçik xalçanı necə hazırlamaq olar?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** blokunda verilən sual müzakirə edilir. Hörmə və ya toxuma üsullarından istifadə etməklə hansı əşyaları hazırlamaq mümkün olduğu təhlil edilir.

**C** Şagirdlər dərslikdə dekorativ-tətbiqi sənət növlərindən olan hörmə haqqında verilmiş mətnlə tanış olurlar.

Mətni İQS vasitəsilə, aşağıda verilmiş xüsusi işarələrlə oxumaq olar:
"+" – yeni informasiyadır; "-" – bildiyimə ziddir; "?" – qarışıq informasiyadır;
"!" – əvvəl bilirdim.

Şagirdlər əl ilə hörülən əşyalar haqqında mətni oxuyur və bu işarələrdən ibarət cədvəli doldururlar. Bunun üçün yeni və qarışıq informasiyanı, bildikləri və bilmədiklərini cədvəldə lazımi hissəyə qeyd edirlər.

**D** Müəllim mətni oxuduqca, **Tanış ol** blokunu da şagirdlərlə müzakirə edir.

## G Sərbəst iş üçün tapşırıqlar

**Müəyyən et**

**1.** Mövzuda verilən əşyaların hansı materiallardan hörüldüyü soruşulur.

**Yaradıcı fəaliyyət**

**2.** Rəngli kağızdan, yaxud qamışdan hörmə üsulu ilə kiçik xalça hazırlamaq tapşırılır. Düzəldilmə metodikası dərslikdə verilir. Müəllim şagirdlərin diqqətini **Sənətkar məsləhəti**nə yönəltməli, əlavə məlumat verməlidir. İş qruplarda yerinə yetirilsə, məqsədəuyğun olar və az vaxt aparar.

*Müəllim bu bloka aid 3-cü tapşırığı da sinfin səviyyəsinə uyğun olaraq tapşıra bilər.*

**3.** Səbəti hazırlamaq üçün köhnə qəzet, qayçı, stepler (tikən) və yapışqan lazım olacaq. Qəzeti dar zolaqlar şəklində kəsirik ki, möhkəm lentlər əldə edək. Səbətin hörülməsinə mərkəzindən kənarlara doğru başlamaq lazımdır. Kağızdan hazırlanacaq səbətin dibi hazır olduqdan sonra, onun yan divarlarının hörülməsinə başlanılır. Yan divarların hörülməsi üçün zolaqları 90 dərəcə bucaq altında qatlayırıq (əyirik), divarlarının səthini dairə boyu uzun zolaqlardan istifadə etməklə hörürük.





**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

- Dekorativ-tətbiqi sənətin daha hansı növləri mövcuddur?
- Gündəlik həyatda hansı hörmə məmulatlarına və harada rast gəlmək olar? Onların funksiyası nədən ibarətdir?

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Fəaliyyət.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əl ilə hörülən əşyaların insanların həyatında əhəmiyyətinə dair bəsit şərh verir. | Əl ilə hörülən əşyaların insanların həyat və məişətindəki əhəmiyyətini verilmiş nümunələr əsasında şərh edir. | Əl ilə hörülən əşyaların rolunu və əhəmiyyətini nümunələr əsasında müqayisə və şərh edir. | Əl ilə hörülən əşyaların cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında ətraflı şərh edir. |

| | | | |
|---|---|---|---|
| Əl ilə hörülən əşyalara aid verilmiş nümunəyə səthi şərh verir. | Əl ilə hörülən əşyalara aid verilmiş nümunəyə istifadə olunan materialları tanıyaraq şərh edir. | Əl ilə hörülən əşyalara aid verilmiş nümunəyə istifadə olunan alətləri, materialları fərqləndirərək şərh edir. | Müxtəlif nümunələr üzərində bədii hörməni xarakterik xüsusiyyətlərinə görə şərh edir. |

## 22. NAXIŞLARDA ƏBƏDİLƏŞƏN HƏYAT

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | | 1.1.1., 1.3.1., 2.1.2., 3.1.1. |
| **Təlim nəticələri:**<br>• süjetli xalçaların cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir;<br>• Azərbaycanın görkəmli rəssamı Kamil Əliyev və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• süjetli xalçaların real təsvirində rəngli qələmlər, flomasterlər, rəngli karandaşlardan istifadə edir;<br>• süjetli xalçalarda forma, ritm, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif naxış və dekorativ-tətbiqi sənətə aid nümunələr, (slayd və ya şəkillər), kompüter, proyektor, iş vərəqləri, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, rəngli qələmlər, flomasterlər, rəngli karandaşlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Hələ orta əsrlərdə xalça üzərində insanı, onun məişətini təsvir etmək ənənəsi mövcud olmuşdur. Belə xalçalara süjetli xalçalar deyilir. Müasir xalçaçılıq sənətində Azərbaycanın Xalq rəssamı Kamil Əliyev insan təsvirlərinin özünəməxsus əksini və geniş tətbiqini tapmışdır. Onun yaratdığı xalça-portretlər öz icrasında təkrarsızdır, ən əsası isə, bu təsvirlər obrazın mahiyyətini, onun daxili aləmini və əzəmətini açıqlaya bilir.*




**A** Müəllim şagirdlərə 5 tapmaca (5 qrupa ayırıb hər birinə bir tapmaca verə bilər) deyir və açmalarını yazı lövhəsinə yazır: xurma, ay, lalə, çarıq, arı. Soruşur:

| | | |
|---|---|---|
| ***Sapsarıca yemişəm,<br>Ərəbidən gəlmişəm.<br>Baldan şirin dadım var,<br>Adda, sanda adım var.*** | ***Bir atım var, heç yorulmaz,<br>Gecə gedər, gündüz durmaz.<br>(Ay)*** | ***Para-para,<br>Yeri tala,<br>Özü ala,<br>Qəlbi qara.*** |

<table>
<tr><td>(Xurma)</td><td colspan="2"></td><td>(Lalə)</td></tr>
<tr><td colspan="2">Həm altı var, həm üzü.<br>O necə karədir ki,<br>Bir burnu var, qırx gözü? (Çarıq)</td><td colspan="2">Qanadı var uçmağa,<br>İynəsi var sancmağa. (Arı)</td></tr>
</table>

– Cavabların baş hərflərindən hansı söz alınır? (Xalça).

***Tədqiqat sualları:*** *Kamil Əliyevin yaradıcılığının əsas xüsusiyyətləri nədir? Süjetli xalçanı çəkmək üçün nə etmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırla** blokunda verilən sual müzakirə edilir. Bundan başqa, xalça sözü qruplarda şaxələndirilir.

C Şagirdlər dərslikdəki yeni mövzu ilə tanış olurlar.

D Mövzunu öyrəndikdən sonra hər qrup xalça haqqında yeni öyrəndiyini şaxələndirməyə əlavə edir. Bundan başqa, karusel (dəyirmi masa) üsulundan da istifadə etmək olar. Hər qrupa vərəqdə 1 sual yazmaq lazımdır. Məsələn:

1-ci qrup: *Xovlu xalça nədir və onun haqqında nə bilirsiniz?*
2-ci qrup: *Xovsuz xalça nədir və onun haqqında nə bilirsiniz?*
3-cü qrup: *Xalça rəssamları haqqında nə bilirsiniz?*
4-cü qrup: *Süjetli və ornamental xalçaları fərqləndirən nədir?*

Kamil Əliyev yaratdığı xalçaların mərkəzi hissəsinin dekorativ kompozisiya həllində, əsasən, klassik ornamental xalça kompozisiyalardan olan "İslimibəndlik", "Tirmə" və ya "Butalı"dan istifadə edirdi. Bu xalça naxışlarından istifadə edərək yaratdığı portretlərə misal olaraq: "Nəsimi" (1973), "M.F.Axundov" (1978), "Heydər Əliyev" (1980), "Məmmədəmin Rəsulzadə" (1992), "Ana" (2003), "Atatürk" (1981) və digərlərini göstərmək olar. Rəssam yaratdığı bir sıra ornamental xalçalarda da bu naxışlardan istifadə etmişdir.

E **Təsviri sənət qalereyası** blokunda verilmiş Kamil Əliyevin yaratdığı xalçalarda insan obrazı təhlil edilir.

F **Görkəmli rəssamlar**a dair cədvəldə Azərbaycan Xalq rəssamı, öz yaradıcılığı ilə, xalça sənətini qoruyub saxlamış və onun incəliklərini daha da zənginləşdirmiş, rəngarəng milli ornamentlər, rəng çalarları, müxtəlif kompozisiya və süjetlər yaratmış Kamil Əliyevin həyat xronologiyası verilmişdir.






**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** K.Əliyevin yaratdığı xalçalardakı naxışların kompozisiya həlli haqqında nə deyə bilərsiniz? Rəssam xalçanın ümumi ornamental quruluşunu, onun üzərində verilmiş portret təsvirlə necə əlaqələndirmişdir?

**Yaradıcı fəaliyyət**

**2.** Millimetrlik kağızda milli naxışlardan istifadə edərək sadə xalçanın eskizini çəkmək.

**3.** Süjetli xalça çəkmək tapşırılır. Əvvəlcə xalçanın kənar haşiyəsindəki naxışı, sonra isə onun daxilindəki süjeti təsvir etmək məsləhət görülür. Müəllim kompozisiya üçün ümumi rəng koloriti seçməyə kömək edə bilər. Rəsmdən əvvəl şagirdlərə süjetli xalçaya aid reproduksiyalar göstərmək məqsədəuyğundur. İşin qruplarda yerinə yetirilməsi məsləhətdir.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Tətbiqetmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Süjetli xalçaların insanların həyatında əhəmiyyətini suallar vasitəsilə bəsit izah edir. | Süjetli xalçaların cəmiyyətdə, insanların həyat və məişətində əhəmiyyətinə dair sadə şərh verir. | Süjetli xalçaların cəmiyyətdə rolunu və əhamiyyətini nümunələr əsasında müqayisəli şərh edir. | Süjetli xalçaların cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr göstərməklə ətraflı şərh edir. |
| Azərbaycanın görkəmli rəssamı K.Əliyevi və onun əsərini verilmiş nümunə əsasında tanıyaraq izah edir. | Azərbaycanın görkəmli rəssamı K.Əliyevi və onun ən məşhur əsəri haqqında məlumatları şərh edir. | Azərbaycanın görkəmli rəssamı K.Əliyevi və onun ən məşhur əsərlərini fərqləndirərək şərh edir. | Azərbaycanın görkəmli rəssamı Kamil Əliyev və onun əsərləri haqqında müxtəlif məlumatları fərqləndirərək şərh edir. |
| Süjetli xalçaların təsvirində rəngli qələmlər, flomasterlər, rəngli karandaşlardan çətinliklə istifadə edir. | Süjetli xalçaların təsvirində rəngli qələmlər, flomasterlər, rəngli karandaşlardan müəllimin köməyilə istifadə edir. | Süjetli xalçaların təsvirində rəngli qələmlər, flomasterlər, rəngli karandaşlardan düzgün istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Süjetli xalçaların real təsvirində rəngli qələmlər, flomasterlər, rəngli karandaşlardan sərbəst istifadə edir. |
| Verilmiş nümunə əsasında süjetli xalçanın təsvirində milli-üslubi cəhəti (forma) tanımaqda çətinlik çəkir. | Verilmiş nümunə əsasında süjetli xalçanın təsvirində milli-üslubi cəhətləri (forma, rəng) tanıyaraq səliqəsiz çəkir. | Verilmiş nümunə əsasında süjetli xalçanın təsvirində milli-üslubi cəhətləri (forma, ritm, rəng) tanıyaraq səliqəli çəkir. | Verilmiş nümunə əsasında süjetli xalçanın təsvirində milli-üslubi cəhətləri (forma, ritm, rəng) estetik xüsusiyyətlərinə görə fərqləndirərək çəkir. |

## 23. ZAMAN VƏ QABLAR

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | yapma |
| **Alt-standart:** | | 1.1.1., 2.1.2., 2.2.1., 3.1.1. |
| **Təlim nəticələri:** • müxtəlif dövrlərdə düzəldilmiş qabların cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir; • müxtəlif dövrlərdə düzəldilmiş qabların real və abstrakt təsvirində plastilin və ya gil, quaş və şəffaf lakdan istifadə edir; • yapılmış qabların üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir; • müxtəlif dövrlərdə düzəldilmiş qablarda forma, ritm, rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif serviz və dekorativ qab nümunələri (slayd və ya şəkillər), kompüter, proyektor, iş vərəqləri, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, plastilin və ya gil, quaş və şəffaf lak |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərin müxtəlif dövrlərdəki qablar haqqında məlumat toplaması, sinif yoldaşları ilə birlikdə süfrə üçün bütöv bir qab dəstini (servizi) yaparaq hazırlamasıdır.*




**A** Müəllim şagirdlərə müəyyən ifadələr deyir:

| | | | |
|---|---|---|---|
| Məişətdə istifadə olunur | Qidalanmaq üçün vasitədir | Üzəri müxtəlif naxışlarla bəzənir | Müxtəlif materiallardan hazırlanır |

– Bu ifadələr sizə nəyi xatırladır? (Qabları).

***Tədqiqat sualları:*** *Müxtəlif dövrlərdə düzəldilmiş qablar haqqında nə bilirsiniz? Süfrə üçün bütöv bir qab dəstini (servizi) yaparaq hazırlamaq üçün nəyi nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** blokunda verilən suallar müzakirə edilir. Süfrə hazırlanarkən yemək masası üzərinə hansı əşyalar qoyulduğu təhlil olunur. Şagirdlər əşyaların hansı materiallardan olduğunu aydınlaşdırır, süfrədəki qabların funksiyaları haqqında danışırlar.

**C** Şagirdlər dərslikdəki yeni mövzu ilə tanış olurlar.

**D** Müəllim şagirdlərə tapşırır ki, İQS vasitəsilə mətni aşağıda verilmiş xüsusi işarələrlə oxusunlar:

"+" – yeni informasiyadır;
"–" – bildiyimə ziddir;
"?" – qarışıq informasiyadır;
"!" – əvvəl bilirdim.

Şagirdlər müxtəlif dövrlərdə düzəldilmiş qablar haqqında olan mətni oxuyur və bu işarələrdən ibarət cədvəli doldururlar. Bunun üçün yeni və qarışıq informasiyanı, bildikləri və bilmədiklərini cədvəldə lazımi hissəyə qeyd edirlər.

Müəllim mətni oxuduqca aradakı **Bu maraqlıdır**, **Bilirsənmi** bloklarını da şagirdlərlə müzakirə edir.

**G** **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Orta əsr qab və mətbəx əşyalarının əsasında hansı təbiət formalarının dayandığı təhlil edilir.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə qruplarda yoldaşları ilə birlikdə süfrə üçün bütöv bir qab dəstini (servizi) yaparaq hazırlamaq tapşırılır. Əvvəlcə müxtəlif qab-qacağı, yemək əşyalarının eskizini çəkmək, bu əşyaların yaradılmasında təbiət formalarından (heyvan, quş, həşərat, balıq, bitki) istifadə etmək məsləhət olunur. Sonra onları, materialını nəzərə alaraq, yapmaq tapşırılır. Düzəldilən qabların üzərini quaş və şəffaf lakla örtərək servizin bütün elementlərini vahid ansambl şəklində uyğun yerə toplamaq təklif olunur.

Vaxt çatmasa, sinfin səviyyəsi nəzərə alınaraq hər qrupa servizə daxil olan bir qabın düzəldilməsi də tapşırıla bilər. Sonra qruplar həmin qabları partanın üzərinə toplayıb serviz yarada bilərlər.

**3.** Şagirdlərə orta əsrlərə aid qabların elementlərini özündə birləşdirən müasir qabın rəsmini çəkmək tapşırılır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Tətbiqetmə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə;
- Fərqləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif dövrlərdə düzəldilmiş qabların insanların həyatında əhəmiyyətini sadə nümunə əsasında bəsit izah edir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların insanların həyat və məişətindəki əhəmiyyətini verilmiş nümunələr əsasında izah edir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların insanların həyatında rolunu və əhəmiyyətini müqayisə etməklə şərh edir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında fərqləndirir və şərh edir. |
| Müxtəlif dövrlərdə düzəldilmiş qabların real yapılmasında təsvir vasitələrindən müəllimin köməyi ilə çətinliklə istifadə edir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların real yapılmasında təsvir vasitələrindən müəllimin köməyi ilə istifadə edir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların real yapılmasında plastilin və ya gildən, quaş və şəffaf lakdan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların real yapılmasında plastilin və ya gildən, quaş və şəffaf lakdan məqsədyönlü istifadə edir. |
| Yapılmış qabların üzərində tərtibat işini səhvlərlə yerinə yetirir. | Yapılmış qabların üzərində tərtibat işləri yerinə yetirir. | Yapılmış qabların üzərində tərtibat bacarıqları nümayiş etdirir. | Yapılmış qabların üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |
| Müxtəlif dövrlərdə düzəldilmiş qabların formasını verilmiş nümunə əsasında çətinliklə fərqləndirir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların forma və rəng çalarlarını məntiqə əsasən fərqləndirir. | Müxtəlif dövrlərdə düzəldilmiş qabların forma və rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir. | Müxtəlif dövrlərdə düzəldilmiş qablarda forma, ritm və rəng çalarlarını estetik xüsusiyyətlərinə görə fərqləndirir. |

## 24–25. MEBELDƏ DİZAYN VƏ DEKOR

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | | 1.1.1., 2.1.2., 2.2.1. |
| **Təlim nəticələri:** • müxtəlif üslublarda olan mebelin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir; • müxtəlif üslublarda olan mebelin real və abstrakt təsvirində boyalar, flomasterlər, rəngli karandaşlardan istifadə edir; • müxtəlif üslublarda olan mebelin təsvirində dizayn bacarıqları nümayiş etdirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif mebel nümunələri (slayd və ya şəkillər), kompüter, proyektor, meyarlar cədvəli |
| | Şagird üçün: | dərslik, boyalar, flomastelər, rəngli karandaşlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərin müxtəlif üslublarda mebellərin dizaynı haqqında məlumat toplamaq və tarixi üslublardan birində yaradılmış, ən çox bəyəndikləri mebelin rəsminin çəkilməsidir.*

*Mebel sənətinin inkişafında cəmiyyətdə mövcud olmuş müxtəlif sosial-məişət qaydaları, onun maddi-mədəniyyət nümunələri, adət-ənənələri, ictimai baxışları, zövqü öz əksini tapmışdır. Mebel üslubları – aşyanın forma və hissələrinin, ölçü və nisbətlərinin, rəsm və tərtibatının məcmusudur. Müxtəlif dövrlərdə mebelin müxtəlif forma və tipləri, bu sahədə müxtəlif materialların tətbiqinin emal və bəzək üsulları yaradılmışdır.*

**Mövzuya 2 tədris saatı verilmişdir. 1-ci saatda dərslikdə verilən mövzu nəzəri cəhətdən mənimsənilir. 2-ci dərsdə isə praktik tapşırıq yerinə yetirilir.**




**1-ci dərs:**

**A** Müəllim müxtəlif üslublarda və dizaynda olan mebellərin şəkillərini yazı lövhəsinə bərkidir və soruşur:

– Bunlar nədir ? (Mebellərin şəklidir).
– Mebellər bir-birindən nə ilə fərqlənir? (fərziyyələr).

***Tədqiqat sualları:*** *Müxtəlif üslublarda yaradılmış mebellər haqqında nə bilirsiniz?*
*Hər hansı bir üslubda yaradılmış mebelin rəsmini çəkmək üçün nəyi bilmək lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

B **Xatırla** blokunda verilən sual müzakirə edilir. İlk mebelin necə yarandığı haqqında müzakirə aparılır.

C Şagirdlər dərslikdəki yeni mövzu ilə tanış olurlar.

D Yeni mövzunu öyrənmək üçün "ziqzaq" üsulundan istifadə etmək məqsədəuyğun sayılır. "Doğma" qruplar müxtəlif üslublar haqqında bildiklərini bölüşürlər. "Ekspert" qruplarının hərəsinə mövzudan bir mebel üslubu haqqında öyrənmək tapşırıla bilər. Onların hərəsinə bir sual da verilsə, daha məqsədəuyğun olar. Məsələn: 1-ci "Ekspert" qrupu – **antik,** 2-ci "Ekspert" qrupu – **Bizans,** 3-cü "Ekspert" qrupu – **roman**, 4-cü "Ekspert" qrupu – **qotik**, 5-ci "Ekspert" qrupu – **İntibah**, 6-cı "Ekspert" qrupu – **barokko**, 7-ci "Ekspert" qrupu – **rokoko** üslubları haqqında dərslikdəki mövzudan seçib öyrənir. Onlara aşağıdakı sualları vermək olar.

1-ci "Ekspert" qrupu: *Antik üslubda olan mebellərin xarakterik xüsusiyyəti nədir?*
2-ci "Ekspert" qrupu: *Bizans üslubunda olan mebellərin xarakterik xüsusiyyəti nədədir?*
3-cü "Ekspert" qrupu: *Roman üslubunda olan mebellərin xarakterik xüsusiyyəti nədir?*
4-cü "Ekspert" qrupu: *Qotik üslubda olan mebellərin xarakterik xüsusiyyəti nədədir?*
5-ci "Ekspert" qrupu: *İntibah üslubunda olan mebellərin xarakterik xüsusiyyəti nədir?*
6-cı "Ekspert" qrupu: *Barokko üslubunda olan mebellərin xarakterik xüsusiyyəti nədədir?*
7-ci "Ekspert" qrupu: *Rokoko üslubunda olan mebellərin xarakterik xüsusiyyəti nədir?*

"Ekspert" qrupları "Doğma" qruplara qayıdaraq oxuyub təhlil etdikləri üslubu yoldaşlarına öyrədirlər. Nəticədə hər "doğma" qrup bütün üslublar haqqında məlumatlanır.

**2-ci dərs:**

G **Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Şəkillərdə gördükləri mebellərin əsasını hansı həndəsi formanın təşkil etdiyi soruşulur. Sizə tanış olan memarlıq üslubları, geyimlər və müxtəlif mebellər arasında ümumi olan nədir? Albomda dərslikdə verilmiş cədvəli çəkin və onları göstərməyə çalışın.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə tarixi üslublardan birində yaradılmış, ən çox bəyəndikləri mebelin rəsmini çəkmək tapşırılır. Başlanğıcda onu təşkil edən əsas fiqurları çəkmək, sonra isə detalları və rəngləri müəyyənləşdirmək məsləhət verilir. Təklif olunur ki, üslub üçün xarakterik cizgiləri verməyə çalışsınlar. Tapşırıq qruplarda yerinə yetirilsə, daha məqsədəuyğun olar.

**3.** Şagirdlərə bir neçə üslubun vəhdətini təşkil edən mebel çəkmək və ya öz istəklərinə uyğun, heç kəsin yaratdığına bənzəməyən, onların gözəllik və komfort haqqında fikirlərinin ifadə olunduğu yeni bir variantda mebel rəsmi çəkmək tapşırılır.

H Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Tətbiqetmə;
- Dizayn bacarıqları nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Verilmiş nümunə əsasında mebelin insanların həyatında əhəmiyyətinə dair bəsit izah verir. | Müxtəlif üslublarda olan mebelin insanların həyat və məişətindəki əhəmiyyətini izah edir. | Müxtəlif üslublarda olan mebelin insanların həyat və məişətindəki əhəmiyyətini nümunələr əsasında şərh edir. | Müxtəlif üslublarda olan mebelin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında müqayisəli şərh edir. |
| Müxtəlif üslublarda olan mebelin real təsvirində flomaster və rəngli karandaşlardan müəllimin köməyi ilə istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif üslublarda olan mebelin real təsvirində boyalar, flomasterlər və rəngli karandaşlardan müəllimin köməyi ilə istifadə edir. | Müxtəlif üslublarda olan mebelin real və təsvirində boyalar, flomasterlər və rəngli karandaşlardan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Müxtəlif üslublarda olan mebelin real təsvirində boyalar, flomasterlər və rəngli karandaşlardan sərbəst istifadə edir. |
| Sadə üslubda olan mebelin tərtibat işini səhvlərlə yerinə yetirir. | Müxtəlif üslublarda olan mebelin təsvirində sadə tərtibat işini çətinliklə yerinə yetirir. | Müxtəlif üslublarda olan mebelin təsvirində sadə tərtibat və dizayn işini yerinə yetirir. | Müxtəlif üslublarda olan mebelin təsvirində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |

## 26. İNTERYERİN DİZAYNI

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | mövzu üzrə rəsm |
| **Alt-standart:** | | 1.1.1., 2.1.2., 2.2.1. |
| **Təlim nəticələri:** • müxtəlif tarixi üslubların interyerinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir; • müxtəlif tarixi üslubların interyerinin real və abstrakt təsvirində boyalar, qara qələm, flomasterlər, rəngli karandaşlar, plastilin və ya gildən istifadə edir; • interyerin təsvirində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | | |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif interyer nümunələri, rəsm əsərləri (slayd və ya fotoşəkillər), kompüter, proyektor, rubrik (sxem) |
| | Şagird üçün: | dərslik, boyalar, qara qələm, flomasterlər, rəngli karandaşlar |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi – şagirdlərin müxtəlif tarixi üslubların interyerləri haqqında məlumat toplamaq, təsəvvürdən otaqların interyerinin orta əsrlərin müxtəlif üslublarına uyğun təsvirini çəkməkdir.*



**A** Müəllim “motivasiya” mərhələsi üçün krossvorddan istifadə edə bilər. Krossvordun əhəmiyyəti odur ki, şagirdlər həm də əvvəlki siniflərdə keçdiklərini təkrar edirlər.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | *3.* K | *4.* M | | | | |
| *1.* Ə | | O | A | *5.* T | | | *8.* P |
| R | | N | K | A | | *7.* R | O |
| **İ** | **2. N** | **T** | **E** | **R** | **6. Y** | **E** | **R** |
| Ş | A | R | T | İ | A | L | T |
| | T | A | | X | Ş | Y | R |
| | Ü | S | | İ | I | E | E |
| | R | T | | | L | F | T |
| | M | | | | | | |
| | O | | | | | | |
| | R | | | | | | |
| | T | | | | | | |

*1. İlməni saxlayan əsas iplər (Əriş).*
*2. Təsviri sənətin janrlarından biri (Natürmort).*
*3. Rənglərin kəskin fərqi (Kontrast).*
*4. Həcmli ilkin nümunə (Maket).*
*5. Keçmiş hadisələri əks etdirən süjetli rəsm növü (Tarixi).*
*6. Qarışıq rənglərdən biri (Yaşıl).*
*7. Səth üzərində qabarıq təsvirdir (Relyef).*
*8. Təsviri sənətin janrlarından biri (Portret).*

Müəllim soruşur:
– 1 rəqəmi yazılan üfüqi sütunda hansı söz alındı? (İnteryer).
– Binanın daxilində yerləşən insanın yaşadığı, işlədiyi və istirahət etdiyi məkan *interyer* adlanır.
– Dərsimiz interyerin dizaynı haqqındadır.

***Tədqiqat sualları:*** *Müxtəlif üslublarda olan interyerlər haqqında nə bilirsiniz? Orta əsrlərə aid müxtəlif üslublara uyğun interyerin rəsmini çəkmək üçün nəyi nəzərə almaq lazımdır?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** **Xatırla** blokunda verilən sual müzakirə edilir. İnteryerin təsvirində nələrin nəzərə alındığı təhlil edilir.
**C** Şagirdlər dərslikdəki yeni mövzu ilə tanış olurlar.
**D** Yeni mövzunu mənimsəmək üçün müəllim BİBÖ üsulunu tətbiq edə bilər.
Yazı lövhəsində cədvəlin öncə BİB hissəsini çəkir, 3-cü “Öyrəndim” hissəsinə isə toxunmur.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Sinifdən müxtəlif tarixi üslubların interyeri haqqında bildiklərini soruşub cədvəlin 1-ci "Bilirik" hissəsinə yazır. Sonra bu haqda nə öyrənmək istədiklərini soruşur və meydana gələn sualları cədvəlin "İstəyirik bilək" hissəsinə yazır. Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Müəllim onlardan dərslikdən nə öyrəndikləri haqda soruşur. Sonra cədvəlin 3-cü hissəsində yazılan "Öyrəndik" sözünü əlavə edir və oraya şagirdlərin əlavə öyrəndiklərini yazır.

Mövzu İQS üsulu ilə də öyrənilə bilər.

**G Sərbəst iş üçün tapşırıqlar**

**Müəyyən et**

**1.** Mövzuda verilmiş üslublarda bucaq və frontal interyerləri göstərmək, mebellərin formasını və rəng seçimini izah etmək tapşırılır.

**Yaradıcı fəaliyyət**

**2.** Şagirdlərə təsəvvürdən otaqların (qonaq otağı, yataq otağı, kabinet, dəhliz və mətbəx) orta əsrlərin müxtəlif üslublarına uyğun interyerini çəkmək tapşırılır. Xətti perspektiv qaydalardan istifadə edərək interyerdə çəkiləcək mebelin müvafiq üslubunu müəyyənləşdirmək məsləhət verilir. İş cütlükdə yerinə yetirilə bilər. Müəllim rəsm zamanı dərslikdəki **Xatırla** blokunu təkrar oxutsa məqsədəuyğun olar.

**3.** Şagirdin özünün müasir interyer variantını çəkmək tapşırılır. Otaqların və mebelin dizaynı üzərində düşünmək məsləhət verilir.

**H** Müəllim şagirdlərlə birlikdə dərslikdə **Özünü yoxla** blokunda verilmiş ümumiləşdirici sualları cavablandırır.

*Qiymətləndirmə meyarları:*

- Şərhetmə;
- Tətbiqetmə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Verilmiş üsluba aid interyerin insan həyatında əhəmiyyətini nümunə üzərində 1-2 suala cavab verərək izah edir. | Müxtəlif dövrlərə aid üslubların interyerinin insanın həyat və məişətində əhəmiyyətini nümunə üzərində izah edir. | Müxtəlif dövrlərə aid üslubların interyerinin insanların həyatında rolunu və əhəmiyyətini müqayisə etməklə şərh edir. | Müxtəlif dövrlərə aid üslubların interyerinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr göstərərək şərh edir. |
| Verilmiş dövrə aid üslubda interyerin real təsvirində qara qələm, flomasterlər və rəngli karandaşlardan çətinliklə istifadə edir. | Müxtəlif tarixi üslubların interyerinin real və abstrakt təsvirində boyalar, qara qələm, flomasterlər, rəngli karandaşdan istifadə edir. | Müxtəlif tarixi üslubların interyerinin real təsvirində boyalar, qara qələm, flomasterlər, rəngli karandaşlardan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Müxtəlif tarixi üslubların interyerinin real və ya abstrakt təsvirində boyalar, qara qələm, flomasterlər, rəngli karandaşlardan sərbəst istifadə edir. |
| İnteryerin təsvirində sadə tərtibat işini səhvlərlə yerinə yetirir. | İnteryerin təsvirində sadə tərtibat işləri yerinə yetirir. | İnteryerin təsvirində müxtəlif sadə tərtibat bacarıqları nümayiş etdirir. | İnteryerin təsvirində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |

# 27. DÜNYA MUZEYLƏRİ

## Gündəlik planlaşdırmaya dair dərs nümunəsi

| | | |
|---|---|---|
| **Məşğələ növü**: | | təsviri sənət haqqında söhbət |
| **Alt-standart:** | | 1.1.1., 3.1.2. |
| **Təlim nəticələri:**<br>• dünya muzeylərinin cəmiyyət həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir.<br>• dünya muzeylərində Azərbaycana məxsus təsviri sənət əsərlərinin növ və janrlarını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. | | |
| **İnteqrasiya:** | | Az.-d. 1.2.1.; 1.2.4.; Ü-t. 5.1.1.; Ə. 2.2.1.; Tex.1.3.3. |
| **İş formaları:** | | fərdi, qrupla |
| **İş üsulları:** | | anlayışın çıxarılması, İQS |
| **Təchizat:** | Müəllim üçün: | müxtəlif muzey və eksponatlar, ekspozisiyalar (slayd və ya şəkillər), kompüter, proyektor, iş vərəqlər, meyar cədvəli |
| | Şagird üçün: | dərslik, incəsənətə aid ensiklopediya, müxtəlif mənbələr |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr***

*Mövzunun əsas məqsədi şagirdlərin muzeylər haqqında bildiklərini yadlarına salmaq və yeni biliklər verməkdir.*




### A Dərsin gedişi / MOTİVASİYA

Müəllim yazı lövhəsindən aşağıdakı cədvəli asır və soruşur:
- Bu sözlər sizə nəyi xatırladır? (Muzeyi).
- Hansı dünya muzeylərini tanıyırsınız? (fərziyyələr).
- Muzey nə üçün nəzərdə tutulub? (fərziyyələr – dünya xalqlarına məxsus müxtəlif təsviri sənət kolleksiyalarının saxlandığı və qorunduğu məkandır).




***Tədqiqat sualı:*** *Dünya muzeylərində nümayiş etdirilən Azərbaycana məxsus hansı əsərləri tanıyırsınız və onlar haqqında nə bilirsiniz?*

Şagirdlərin fərziyyələri dinlənilir.

**B** Dərslikdə **Xatırla** blokundakı sual müzakirə olunur. Şagirdlər hansı dünya muzeylərini tanıdıqlarını söyləyirlər.

**D TƏDQİQATIN APARILMASI**

Şagirdlər muzeylərin adlarına uyğun qruplara ayrılır. Müəllim onlara tapşırır ki, İQS vasitəsilə mətni aşağıda verilmiş xüsusi işarələrlə oxusunlar:

“+” – yeni informasiyadır;
“–” – bildiyimə ziddir;
“?” – qarışıq informasiyadır;
“!” – əvvəl bilirdim.

Qruplar öncə dünya muzeyləri haqqında olan mətni fərdi oxuyur və yanında işarələr qoyurlar. Sonra qruplarda yeni və qarışıq informasiyanı, bildikləri və bilmədiklərini cədvəldə lazımi hissəyə qeyd edirlər.

**G** Müəllim qruplara 7-ci sinifdə tanış olduqları sənət əsərlərinin Viktoriya və Albert muzeyində və ya Uffiçi qalereyasında saxlandığını müxtəlif resurslar üzrə tapmağa çalışmağı tapşırır. Bunun üçün qrupların qarşısına incəsənətə aid ensiklopediya və müxtəlif mənbələr qoyur. İnternet olan məktəblərdə ondan da istifadə etmək faydalıdır. Meyarlar üzrə *qrup qiymətləndirilməsindən* istifadə ediləcəyi şagirdlərə xatırladılır.

**MƏLUMAT MÜBADİLƏSİ**

Qruplar cədvəldə yazdıqları, öyrəndikləri yeni informasiyaları oxuyurlar. Sonra hansı əsərlərin Viktoriya və Albert muzeylərində və ya Uffiçi Qalereyasında saxlandığını deyirlər. Qruplar oxuduqları zidd və qarışıq informasiyaları birlikdə müzakirə edirlər.

**H ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

– Hansı dünya muzeyləri ilə tanış oldunuz?
– O muzeylərdə hansı əsərlər saxlanılır?
– Azərbaycana aid əsərlər hansılardır və harada saxlanılır?

**YARADICI TƏTBİQETMƏ**
Dünya muzeylərinə aid əlavə məlumat toplamaq.

**QİYMƏTLƏNDİRMƏ**
***Qrup fəaliyyətinin qiymətləndirilməsi.*** Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Bunun üçün o, tədqiqat işinə başlamazdan əvvəl meyarlar işləyib hazırlayır. Nəticədə isə hər qrupun topladığı işarələr sayılır.

| QRUP | MEYARLAR | | | | | |
|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Əlavələr | Tərtibat | Vaxtında yerinə yetirilib |
| **I** | | | | | | |
| **II** | | | | | | |
| **III** | | | | | | |
| **IV** | | | | | | |

---

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ № 5)
## nümunəsi vəsaitin sonunda verilmişdir.

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏLƏRİ

**Qeyd.** Bütün summativ qiymətləndirmə nümunələrində tövsiyə olunan tapşırıqların sayı 11-dir. İlk 10 tapşırıq şagirdin bölmədə öyrəndiyi bilik və bacarıqları qiymətləndirmək üçün tərtib olunmuş test tapşırıqlarıdır. Sonuncu – 11-ci tapşırıq isə şagirdin yaradıcılıq qabiliyyətinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur. Yaradıcı tapşırığın əhəmiyyəti böyük olduğu üçün şagirdi qiymətləndirərkən bu tapşırıqların yerinə yetirilməsinə üstünlük verilməsi məqsədəuyğundur.

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ üzrə cavablar

---

| KSQ № 1 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | **a.** | a. | a. | a. | a. | a. | a. | **a.** |
| | | **b.** | b. | b. | b. | **b.** | b. | b. | **b.** | **b.** | b. |
| | | c. | **c.** | c. | **c.** | c. | **c.** | **c.** | c. | c. | c. |

| KSQ № 2 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | **a.** | a. | **a.** | a. | a. | a. | **a.** | a. | a. | a. |
| | | b. | **b.** | b. | b. | **b.** | **b.** | b. | **b.** | b. | **b.** |
| | | c. | c. | c. | **c.** | c. | c. | c. | c. | **c.** | c. |

| KSQ № 3 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | **a.** | a. | **a.** | a. | a. | a. | a. | **a.** | **a.** | a. |
| | | b. | **b.** | b. | **b.** | b. | b. | b. | b. | b. | **b.** |
| | | c. | c. | c. | c. | **c.** | **c.** | **c.** | c. | c. | c. |

| KSQ № 4 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | **a.** | **a.** | **a.** | a. | a. | a. | a. | a. | **a.** | a. |
| | | b. | b. | b. | **b.** | **b.** | **b.** | b. | b. | b. | **b.** |
| | | c. | c. | c. | c. | c. | c. | **c.** | **c.** | c. | c. |

| KSQ № 5 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | **a.** | a. | a. | **a.** | a. | a. | **a.** | a. |
| | | **b.** | **b.** | b. | b. | **b.** | b. | **b.** | b. | b. | **b.** |
| | | c. | c. | c. | **c.** | c. | c. | c. | **c.** | c. | c. |

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)

Ad_____________Soyad___________________Sinif________Tarix___________

| **Suallar** | **1.** | **2.** | **3.** | **4.** | **5.** | **6.** | **7.** | **8.** | **9.** | **10.** | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cavab variantı** | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| **Yaradıcı tapşırıq meyarları** | Kompozisiya | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Memarıq üslubu | | | | | | | | | | |
| | Heykəltəraşlıq sahəsi | | | | | | | | | | |
| | Maraqlı mənzərə | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | ..... |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | ..... |

| | |
|---|---|
| **1. Təsviri sənətin növləri bunlardır:**<br>a) heykəltəraşlıq, qrafika, portret<br>b) qrafika, rəngkarlıq, heykəltəraşlıq<br>c) rəngkarlıq, natürmort, mənzərə | **2. Memarlıq – layihələndirmək və qurmaq incəsənətidir:**<br>a) nəqliyyatı b) heykəlləri<br>c) tikililəri |
| **3. Dəzgah heykəltəraşlığına aiddir:**<br>a) baş, bədən, büst<br>b) abidələr, ansambllar<br>c) fasad və interyerləri bəzəyən heykəllər | **4. Monumental-dekorativ heykəltəraşlığa aiddir:**<br>a) baş, bədən, büst<br>b) abidələr, ansambllar<br>c) fasad və interyerləri bəzəyən heykəllər |
| **5. Monumental rəngkarlığa aiddir:**<br>a) heykəl b) freska<br>c) tikililər | **6. Memarlıq üslubları bunlardır:**<br>a) tağ, günbəz<br>b) dizayn, konstruksiya<br>c) qotik, barokko |
| **7. Tağşəkilli formada olan üslub:**<br>a) antik b) rokoko c) roman | **8. Enli gövdəli sütunların təkrarı bu üsluba aiddir:**<br>a) qotik b) antik c) barokko |
| **9. Hündür qülləli, əlvan vitrajlı üslub:**<br>a) heykəltəraşlıq b) qotik c) memarlıq | **10. Şirvan–Abşeron memarlıq məktəbinə bu tikili aiddir:**<br>a) Qız qalası b) Qutlu Musa türbəsi<br>c) Göy məscid |
| **11. Yaradıcı tapşırıq.** Elə bir rəsm çək ki, orada ən çox xoşuna gələn memarıq üslublarının biri, heykəltəraşlığın hər hansı bir sahəsinə aid nümunə olsun. Rəsmin əsas kompozisiyası park və ya küçə ola bilər. Rəsmdə maraqlı mənzərə yaratmağa çalış, rəngli karandaş və flomasterlərlə işlə. Ümumi kompozisiyanın bütöv görünüşünü nəzərə al. | |

# TƏSVİRİ İNCƏSƏNƏT
# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №2)

Ad_____________Soyad___________________Sinif________Tarix___________

<table>
<tr><th>Suallar</th><th>1.</th><th>2.</th><th>3.</th><th>4.</th><th>5.</th><th>6.</th><th>7.</th><th>8.</th><th>9.</th><th>10.</th><td rowspan="5">Cavablar üzrə qiymət<br>.....</td></tr>
<tr><td rowspan="4">Cavab variantı</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td></tr>
<tr><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td></tr>
<tr><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="5">Yaradıcı tapşırıq meyarları</td><td colspan="9">Kompozisiya</td><td></td><td rowspan="5">Rəsm üzrə qiymət<br>.....</td></tr>
<tr><td colspan="9">Süjet</td><td></td></tr>
<tr><td colspan="9">Mövzunun xüsusiyyətləri</td><td></td></tr>
<tr><td colspan="9">Orijinal məzmun</td><td></td></tr>
<tr><td colspan="9">Səliqəli işləmə</td><td></td></tr>
<tr><td colspan="11">Ümumi qiymət (cavablar + rəsm)</td><td>.....</td></tr>
</table>

**1. Süjetli əsərlərə aiddir:**
a) məişət, əsatir
b) natürmort, mənzərə
c) animalist, portret

**2. Təsviri sənətdə nağıl, əfsanələrə çəkilmiş janr belə adlanır:**
a) tarixi b) əsatir c) məişət

**3. Rasim Babayevin yaradıcılığının əsas mövzusu:**
a) mifologiya b) miniatür
c) heykəltəraşlıq

**4. Müzəffər Əli yaradıcılığına aiddir:**
a) heykəltəraşlıq b) memarlıq
c) miniatür

**5. Karavacconun əsərlərində ifadə vasitəsi:**
a) ştrix b) işıq-kölgə c) konstruksiya

**6. Miniatür – təsvirdir:**
a) iri ölçüdə b) kiçik ölçüdə
c) daş üzərində

**7. Avtoportretlərdə təsvir olunur:**
a) təsvir edən şəxsin portreti
b) təsvir edilən şəxsin portreti
c) bir neçə insanın portreti

**8. M.Mirqasımov yaradıcılığı:**
a) rəngkarlıq b) heykəltəraşlıq
c) qrafika

**9. Heykəltəraşlığa xarakterik olan janr:**
a) natürmort b) mənzərə c) portret

**10. Repin yaradıcılığının əsas mövzusu:**
a) insan b) heyvanlar c) memarlıq

**11. Yaradıcı tapşırıq.** Süjetli əsərlərdən birinə aid rəsm çək. Rəsmdə janrın əsas mövzusunun xüsusiyyətlərini göstərməyə çalış. Kompozisiya bütövlüyünü nəzərə al. Orijinal məzmun fikirləş, pastel tabaşir, rəngli karandaş və ya flomasterlərlə səliqəli rənglə.

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №3)

Ad_____________Soyad___________________Sinif________Tarix___________

| **Suallar** | **1.** | **2.** | **3.** | **4.** | **5.** | **6.** | **7.** | **8.** | **9.** | **10.** | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cavab variantı** | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| **Yaradıcı tapşırıq meyarları** | Kompozisiya (konstruksiya) | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Geyim forması | | | | | | | | | | |
| | Üslub xüsusiyyətləri | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Səliqəli işləmə | | | | | | | | | | ..... |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | ..... |

| | |
|---|---|
| **1. Avropada geniş yayılmış baş geyimi:**<br>a) şlyapa b) kəlağayı c) araqçın | **2. Baş geyiminin hazırlanmasında istifadə olunan bəzək elementi:**<br>a) tikmə b) lələk c) hörmə |
| **3. Baş geyimlərindən olan dəbilqə və çələng hansı tarixi üsluba aid edilir:**<br>a) antik b) roman c) barokko | **4. Cəmiyyətdə insanın fərqləndirici əlamətlərindən biri hesab olunur:**<br>a) kitab b) geyim c) dost |
| **5. Baş geyimlərindən olan konusvari forma hansı tarixi üsluba aid edilir:**<br>a) barokko b) İntibah c) qotik | **6. Ornament nədir:**<br>a) yarpaqların düzümü b) güllərin çələngi c) naxışların təkrarı |
| **7. Tarixi geyim – orta əsrlərdən indiyədək "dəyişən" geyimdir:**<br>a) tamamilə b) yanlış fikirdir<br>c) çox az | **8. Milli geyim bütün xalqların göstəricisidir:**<br>a) adət-ənənələrin b) tikildiyi parçanın<br>c) modelyerlərin |
| **9. Hansı geyim üslubunda daha çox həndəsi ornament və daş-qaşdan istifadə olunurdu?**<br>a) Bizans b) roman c) antik | **10. Velaskesin portret və məişət əsərlərində ən çox seçilən nə idi?**<br>a) adət-ənənə b) geyim c) interyer |

**11. Yaradıcı tapşırıq.** Hər hansı bir tarixi üsluba aid maraqlı kişi və ya qadın kostyum (geyim dəsti) variantı fikirləş və çək. Geyimin kompozisiya baxımından konstruksiyasını, üsluba aid formasını, əsas xüsusiyyətlərini (ornament, rəng, aksessuar, baş geyimi, saç düzümü) göstərməyə çalış.

# TƏSVİRİ İNCƏSƏNƏT
# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №4)

Ad_____________Soyad___________________Sinif________Tarix___________

| **Suallar** | **1.** | **2.** | **3.** | **4.** | **5.** | **6.** | **7.** | **8.** | **9.** | **10.** | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cavab variantı** | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| **Yaradıcı tapşırıq meyarları** | Kostyum eskizi | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Maraqlı forma | | | | | | | | | | |
| | Üslub xüsusiyyətləri | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Səliqəli işləmə | | | | | | | | | | ….. |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | **…..** |

| | |
|---|---|
| **1. Azərbaycanın kişi baş geyimlərinə aiddir:**<br>a) əmmamə b) kəlağayı c) şal | **2. Azərbaycanın qadın baş geyimlərinə aiddir:**<br>a) kəlağayı b) əmmamə c) başlıq |
| **3. Kişi geyimini müəyyən et:**<br>a) çuxa b) çəpkən c) eşmək | **4. Qadın qış geyimini müəyyən et:**<br>a) baharı b) eşmək c) arxalıq |
| **5. Azərbaycanda ləyaqət, mərdlik və şərəf simvolu sayılırdı:**<br>a) geyim b) papaq c) ayaqqabı | **6. Yaşlı qadınların istifadə etdikləri kəlağayı rəngi:**<br>a) açıqrəngli b) tündrəngli c) əlvan |
| **7. Qadın payız geyimini müəyyən et:**<br>a) eşmək b) kürdü c) küləcə | **8. Kəlağayının əsas naxış elementi:**<br>a) zoomorf b) həndəsi c) buta |
| **9. Sadə və zərif üslubun adı:**<br>a) klassik b) idman<br>c) romantizm | **10. Dinamik və komfortlu üslubun adı:**<br>a) romantizm b) idman<br>c) klassik |

**11. Yaradıcı tapşırıq.** Elə bir geyimin eskiz modelini çək ki, onda Azərbaycan milli geyimi və müasir üslubların hər hansı birinin vəhdəti olsun. Burada geyimin əsas xüsusiyyətlərini – formasını, parçasını, naxış və saç düzümünü, ayaqqabını, baş geyimini, aksesuarları nəzərə al. İstədiyin ləvazimatla səliqəli işləyə bilərsən. Çalış eskizində maraqlı və orijinal kostyum nümunəsi göstərəsən.

## TƏSVİRİ İNCƏSƏNƏT
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №5)

Ad_____________Soyad___________________Sinif________Tarix___________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Cavablar üzrə qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | ..... |
| Yaradıcı tapşırıq meyarları | İnteryer | | | | | | | | | | Rəsm üzrə qiymət |
| | Perspektiv qaydalar | | | | | | | | | | |
| | Üslub xüsusiyyətləri | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | Səliqəli işləmə | | | | | | | | | | ..... |
| **Ümumi qiymət (cavablar + rəsm)** | | | | | | | | | | | ..... |

**1. Kamil Əliyevin yaradıcılığı bağlıdır:**
a) heykəltəraşlıqla
b) xalçaçılıqla
c) rəngkarlıqla

**2. Dekorativ-tətbiqi sənət növü:**
a) rəngkarlıq, qrafika
b) hörmə, milli geyim
c) memarlıq, dizayn

**3. Süjetli xalçalarda təsvir olunur:**
a) insan və məişət
b) nəbati ornamentlər
c) həndəsi ornamentlər

**4. İnsan tərəfindən kəşf olunmuş ilk qaşıq nədən idi?**
a) daşdan b) metaldan
c) balıqqulağıdan

**5. Dekorativ-tətbiqi sənət sahəsi:**
a) interyer b) mebel
c) heykəltəraşlıq

**6. Bu tarixi üslubda mebellərdə təmtəraq, mürəkkəb dekorlar var idi:**
a) barokko b) qotik c) antik

**7. Binanın daxili hissəsi adlanır:**
a) dizayn b) interyer c) döymə

**8. Frontal interyerdə neçə qovuşma nöqtəsi olur?**
a) 3 b) 2 c) 1

**9. Bucaq interyerdə neçə qovuşma nöqtəsi olur:**
a) 2 b) 1 c) 3

**10. Rəsm müstəvisində üfüq xətti nəyə əsasən müəyyən edilir:**
a) tavana b) göz səviyyəsinə
c) divarlara

**11. Yaradıcı tapşırıq.** Elə bir interyer çək ki, orada üsluba uyğun dekor – mebel, qab-qacaq və xalça nümunələri də yer alsın. İnteryerin frontal və ya bucaq olacağını özün müəyyən et, kompozisiya həllini, perspektivin qanunlarını düzgün yerinə yetir.

**Müəllim qiymətləndirmə vasitələrinin hazırlanmasında dərsliyin hər bölmə üzrə "Ümumiləşdirici tapşırıqlar" blokunda olan tapşırıq növlərindən də istifadə edə bilər.**


TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ

ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Heykəltəraşlıq nümunələrinin sahələrini müəyyən et:
* Monumental * Monumental-dekorativ * Dəzgah

Misir incəsənəti. Böyük Sfinks. E.ə 2700

Hindistan incəsənəti. Şiva rəqs Allahı Nataracanın obrazında X-XII əsrlər. Bürünc. Viktoriya və Albert Muzeyi. London

Azərbaycan incəsənəti. Nizami adına Milli Azərbaycan ədəbiyyatı muzeyinin lociyası. 1939. Bakı

2. Memarlıq tikililərindən qotik üsluba aid olanını müəyyən et.

Heydər Əliyev Mərkəzi. Memar Zaha Hadid. 2012. Bakı

İsmailiyyə Sarayı. Memar İosif Ploşko. 1907. Bakı

3. Rəngkarlıq texnikalarının adını söylə.

26


TƏSVİRİ SƏNƏTDƏ JANRLAR

ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Rəssam əsərlərini növ və janrına görə ardıcıl olaraq göstər:

Miniatür sənəti → Məişət janrı → Əsatir → Portret

Rembrandt. "Səfil oğulun qayıtması". 1668-1669. Ermitaj, Sankt-Peterburq

Karavacco. "Gənc meyvə səbəti ilə", 1593. Qalereya Borqeze, Roma

Soltan Məhəmməd. "Təhmuras divlərə qalib gəlir". 1526. Nyu-York Metropolitan muzeyi

2. Rəssam əsərlərində janrları müəyyən et:
* Portret * Əsatir * Məişət

3. Əşyalar üzərindəki işığın mənbəyini müəyyən et. Hansı işıqlandırmanın əşyanın formasını daha yaxşı qabartdığını izah et.

48


TƏSVİRİ SƏNƏT ORTA ƏSRLƏRDƏ

ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. İbtidai icma dövründən başlayaraq baş və bədən geyimləri, ayaqqabı və aksesuarlarda oxşarlıq və fərq nədədir?

2. Eyni tonlu, müxtəlif fakturalı parçalar arasında fərq nədədir?

Məxmər Kətan İpək

3. Nümunələrdə geyim haqqında bildiklərini izah et:
* dövr; * üslub; * bəzək; * parça; * baş geyimi.

76


DEKORATİV TƏTBİQİ SƏNƏT VƏ BƏDİİ DİZAYN

ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Orta əsrlərdə Avropada yaranmış tarixi üslublar memarlıq, geyim və mebeldə öz əksiniz necə tapmışdır? Üslubların əsas xüsusiyyətlərini müəyyən et.

2. Dekorativ-tətbiqi sənət sahələrini ardıcıllığa əsasən şərh et.

Mebel → Misgərlik → Hörmə → Xalçaçılıq

3. Xalça nümunəsinin mövzusunu və adını müəyyən et.

96

**MƏNBƏLƏR**


1. "Ümumtəhsil məktəblərinin I–IX sinifləri üçün təsviri incəsənət fənni üzrə kurikulumlar". Bakı, 2012.
2. Y.Ş.Kərimov. "Təlim metodları". Bakı, 2007.
3. Z.Veysova. "Fəal/interaktiv təlim". Müəllimlər üçün vəsait, UNICEF, Bakı, 2007.
4. Təsviri incəsənət proqramı. Ümumtəhsil məktəblərinin I–VII sinifləri üçün. "Kövsər" nəşriyyatı, Bakı, 2007
5. "Azərbaycan Milli Ensiklopediyası". Elmlər Akademiyası, Bakı, 2007.
6. C.Həsənzadə, E.Hacınski. "Ayna" Uşaq Ensiklopediyası. "İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti". Bakı, "Ayna Mətbu Evi", 1999.
7. R.Əfəndiyev. "Azərbaycanın daş plastikası". "İşıq" nəşriyyatı, Bakı, 1986.
8. R.Əfəndiyev "Azərbaycan xalq sənəti". "İşıq" nəşriyyatı, Bakı, 1984.
9. R.Əfəndiyev. "Azərbaycan incəsənəti". "Şərq-Qərb", Bakı, 2007.
10. R.Əfəndiyev. "Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində". "İşıq" nəşriyyatı, Baкı, 1980.
11. Ə.Verdiyev. "Dəzgah rəngkarlığı". "İşıq" nəşriyyatı, Bakı, 1988.
12. Ş.H.Sadıqzadə. "Qədim Azərbaycan bəzəkləri". Bakı, "İşıq" nəşriyyatı, 1971.
13. "Altay Hacıyev". "İşıq" nəşriyyatı, Bakı, 1974.
14. Azərbaycan Uşaq Folkloru Kitabxanası. "Mərasimlər, adətlər, alqışlar...", 1-ci kitab. "Gənclik", Bakı, 1993.
15. Məmmədov V.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mirsəliyev A.A. "Naxışların yaddaşı". Azərnəşr, Bakı, 1981.
16. Hüseynov M., Bretanitski M., Salamzadə M. "Azərbaycan memarlığı tarixi". Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu.
17. "İnşaat, memarlıq və inşaat materialları ədəbiyyatı", dövlət nəşriyyatı, Moskva, 1963.
18. C.Qiyasi. "Nizami dövrü memarlıq abidələri". "İşıq" nəşriyyatı, Bakı, 1991.
19. Rzayev N., Qeybullayev Q., Rzayev Ş. "Rusca–azərbaycanca memarlıq-inşaat lüğəti", "Elm", Bakı, 1998.
20. Lətif Kərimov. "Azərbaycan xalçası". "Yazıçı ", Bakı, 1985.
21. K.Əliyeva, E.İbrahimov. "Lətif Kərimov: həyat və yaradıcılığı". "Aspoliqraf" nəşriyyatı. 2007, Bakı, s.248.
22. R.Tağıyeva. "Azərbaycan xalçası". "Şərq-Dizayn". 1999, Bakı, s.260.
23. Tərtibçilər: M.İ.Atakişiyeva, M.Ə.Cəbrayılova, V.M.İslamova., "Azərbaycan tikmələri". Moskva, 1970.
24. AZERBAIJAN CARPETS. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı, s.16.
25. "Azərbaycan rəqs geyimi". Bakı, 2010.
26. "Azərbaycan". Bakı, 1998, s. 416.
27. Müasir İncəsənət Muzeyi. Altay Sadiqzadə. Bakı, 2009.
28. "Arxeoloji albom – Bakı, İçərişəhər", Oka Ofset, Bakı, 2002, s.112
29. Ş.H.Sadıqzadə. "Qədim Azərbaycan bəzəkləri". "İşıq" nəşriyyatı , Bakı, 1971.
30. Ə.Salamzadə. "Əcəmi Əbubəkir oğlu və Naxçıvan memarlıq abidələri". "İşıq" nəşriyyatı, Bakı, 1976.
31. Z.Əliyev. "Sənətin Məcnunu". "Aspoliqraf" nəşriyyatı, Baкı, 2009.
32. N.Məmmədova. "Ksiloqrafiya və linoqravüra", "Bakı" nəşriyyatı, Bakı, 2012, 100 s.
33. K.Kərimov. "Azərbaycan miniatürləri" , "İşıq", Bakı, 1980.
34. "Azərbaycan dilinin izahlı lüğəti", 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
35. "Azərbaycan dilinin orfoqrafiya lüğəti". "Lider", Bakı, 2004.
36. R.Məlikov, N.İbrahimov. "Məktəblinin tarix lüğəti". "Ayna Mətbu Evi", Bakı, 2004.
37. T.Salakhov. "Aurora Art Publishers", Leninqrad, 1980, Printed in Austria.
38. Наджафов М. "Саттар Бахлулзаде – живопись". Москва, "Советский художник", 1985.
39. Автор-составитель М.Наджафов. "Живопись Азербайджанской ССР – 1960-е годы. "Советский художник", Москва, 1976 г.

40. “Эльмира Шахтахтинская”. Советский художник, Москва. 1981.
41. Джамиля Новрузова. “Ибрагим Зейналов”. “İşıq”, Bakı, 1981.
42. “Изобразительное искусство Азербайджанской ССР”. “Советский художник”,Москва, 1978.
43.“Çocuklar için sanat”. “Tudem”, Alsancaq, İzmir, 2009.
44. Durmuş Akbulut. “Resm neyi anlatır”. “Etik yayınlar”, İstanbul, 2011.
45. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, “Советский художник”.
46. Преттье М.К. и Капальдо А. “Творчество и выражение”, том 2. Москва, “Советский художник”, 1985.
47. “Детская энциклопедия” – том 12. Москва, издательство “Педагогика”, 1977.
48. Лавров А.М. “Школа. Учитель. Искусство”. “Просвещение”, Москва ,1981.
49. Белютин Э.М. “Основы изобразительной грамоты”. Издательство “Советская Россия”, Москва, 1961.
50. “Рисунок и живопись”, том 1. Государственное издательство “Искусство”. Москва, 1961.
51. “Энциклопедический словарь юного художника”. “Педагогика”, Москва, 1983.
52. Сокольникова Н.М., Ломов С.П. “Изобразительное искусство для детей. Виды и жанры изобразительного искусства”. Книга для семейного чтения и творческого досуга. АСТ. Астрель, Москва, 2009.
53. Ю.Аксенов, М.Левидова. “Цвет и линия – практическое руководство по рисунку и живописи”. “Советский художник”, Москва, 1976.
54. Роджер Эрб, Стефан Зелевски. “Цвет и свет”. Энциклопедия. Издательство “Мир книги”, 2007.
55. Ящухин А.П. “Живопись”. “Просвещение”, Москва, 1985.
56. Кастерман Ж. “Живопись”. “Рисуй и самовыражайся”. Детское справочное бюро. Москва, издательство “АСТ”, Астрель, 2002.
57. Элвин Крошо, “Акварель – как рисовать”, Москва, издательство АСТ. Астрель, 2006.
58. Н.М. Конышева. “Наш рукотворный мир”. М. 1996.
59. “Одежда народов СССР”, издательство “Планета”, Москва, 1989.
60. “Атлас средневековья. История. Традиции”. “Премьера”, “Астрель”, АСТ, Москва, 2000.
61. “Архитектура древнего и ранне-средневекового Азербайджана”. Азербайджанское государственное издательство, Баку, стр.311, с ил, 1986.
62. “Мир Вещей”. Современная энциклопедия, стр. 443, Москва, 2006.
63. Чингиз Каджар. “Искусство Азербайджана – средние века”. “Azerbaijan – IRS”, 2003.
64. “Всеобщая история костюма”. “Эксмо”, стр. 464, с илл, Москва, 2007.
65. “Rysowanie dla poczatkujacych”. Mark i Mary Willenbrink. Wydawnictwo K.E.Liber, 2008.
66. “Moja pierwsza ksiazka o risowaniu”. Jan Jager and Ica Bokforlaq. Wydawnictwo REA. Warszawa, 2010.
67. http://www.artprojekt.ru/Menu.html – Всемирная энциклопедия искусства
68. http://www.artap.ru/cult/iart_p.htm – Культура и культурология
69. http://www.krugosvet.ru/enc/kultura_i_obrazovanie/religiya/ZIKKURAT.html – Кругосвет. Универсальная научно-популярная онлайн-энциклопедия
70. http://www.renclassic.ru/ Эпоха Возрождения
71. http://www.notredamedeparis.fr/ Нотр-Дам де Пари
72. http://operaduomo.firenze.it/ Собор Санта-Мария-дель-Фьоре
73. http://shedevrs.ru/materiali/270-svetoten.html?showall=1 Светотень
74. http://uatex.ub.ua/photo/album/7355/ Схемы узоров по стежке
75. http://www.newline.ru/mebel/sp/interest/ Стили в мебелях

## *BURAXILIŞ MƏLUMATLARI*

**Təsviri incəsənət – 7**
*Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün*
*"Təsviri incəsənət" fənni üzrə dərsliyin metodik vəsaiti*

**Tərtibçi heyət:**

Müəlliflər: **Yeganə Qələndar qızı Cəlilova**
**Kəmalə Əhməd qızı Cəfərzadə**
**Məhsəti İsa qızı Məmmədova**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Aqşin Məsimov**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
2018-118

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 4,5. Fiziki çap vərəqi 6. Səhifə sayı 96.
Kağız formatı 70x100 1/16. Tiraj 6245. Pulsuz. Bakı – 2018

"BAKI" nəşriyyatı
Bakı, AZ 1001, H.Seyidbəyli küç. 30

Pulsuz